www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 dekabr 2017-ci il Bazar ertəsi № 265 (6878) Qiyməti 60 qəpik

**Xəbər**

## "Leş ət" mafiyası yenidən iş başında - yeni faktlar

yazısı səh.10-da

**Gündəm**

### Eldar Mahmudovu 4-cü dəfə dindirdilər - 1 milyardlıq "qara pul" ittihamı



Sabiq nazir ətrafında istintaq hərəkətlərinin intensivləşməsi onun həbsinin yaxınlaşmasından xəbər verir

yazısı səh.5-də

### Azərbaycan bayrağını endirən türk professora Bakıdan sərt təpki

yazısı səh.4-də

### Müdafiə sənayesi nazirindən mühüm açıqlamalar - "Gələcəkdə ağır hərbi texnika da istehsal edə bilərik"

yazısı səh.4-də

### Ərəb şeyxləri Ermənistanda nə axtarır? - rəy

yazısı səh.9-da

*Fəzail Ağamalı:*

### "Vergilər naziri son illər çoxlu problem içindəydi"

yazısı səh.7-də

### Rusiya televiziyalarında erməni "siyasi xoru" - Solovyovun verilişi Şahnazarovun pavilyonunda hazırlanır

yazısı səh.3-də

### Paytaxta yeni avtobuslar gətirilir: marşrutlarda vəziyyət düzələcəkmi?

yazısı səh.13-də

### Bitkoin: çirkli pul yumaq aləti, yoxsa...

yazısı səh.12-də

### Erməni ilə duet oxuyan azərbaycanlı qız - düşmən sevdalı məşhurlarımız...

yazısı səh.13-də

### Ekspert dəm qazı haqda: "Bunlara diqqət edin ki, həyatda qalasınız..."

yazısı səh.10-da

### MDB məkanını gözləyən bahalaşma dalğası: Azərbaycanı da gözləyirmi?

yazısı səh.12-də

## İstanbul zirvəsindən dünyaya 2018 ismarışı

# "BU OYUNU BİZ POZDUQ..." - BAKI VƏ ANKARANIN ORTAQ MESAJI

Ərdoğanın ev sahibliyi etdiyi islam sammiti Türkiyə və Azərbaycan üçün kritik hədəf cızdı; məkrli planlar de-şifrə olunur; ərəb şeyxlərinin Ermənistanda peyda olması təsadüfmü? Bakı üçün də mühüm gəlişmə...




yazısı səh.8-də

## Yunusların və "azərbaycanlı" separatçıların Rusiyadan təlimat almasına dair şok iddia

Azərbaycana qarşı məkrli planlar icra edən "sapı özümüzdən olan baltalar" Rusiya "KQB"sinin kadrı olan Qannuşkina ilə Hollandiyada toplantı keçiriblər; ölkəmizə qarşı Avropadan təşkilatlananların Kremldən idarə olunmasına dair məlumatlar var...

yazısı səh.3-də



Xaləddin İsgəndərov

### Binəqədinin icra başçısı rayon prokuroru ilə qarşı-qarşıya gəldi

yazısı səh.5-də



*Şirməmməd Hüseynov:*

### "Mən 100 illiyi bayram eləməyə başlamışam"

yazısı səh.6-da



Akif Çovdarov

### Həbs edilən tikinti şirkəti rəhbərini Akif Çovdarova nə bağlayır?

yazısı səh.5-də

YENİ MÜSAVAT
N 265 (6878) 18 dekabr 2017



## Kiyevdə Saakaşvili tərəfdarları impiçment aksiyası keçirdilər

**Kiyevin mərkəzində Gürcüstanın sabiq prezidenti, Odessa vilayətinin keçmiş qubernatoru Mixail Saakaşvili tərəfdarlarının "İmpiçment marşı" keçirilib. Musavat.com-un xarici KİV-ə istinadən məlumatına görə, aksiyada 4-6 min nəfər iştirak edib.**

Bildirilir ki, Saakaşvili Şevçenko abidəsinin yanında iştirakçıları salamlayıb, onlara təşəkkürünü bildirərək "Kreşşatikə qədər və qələbəyə doğru" hərəkət etməyə çağırıb.

Mitinqçilər əllərində bayraqlar tutublar və "Yaşasın Ukrayna!" və "İmpiçment!" şüarları səsləndiriblər. İştirakçılar Kreşşatikdən keçərək Maydana doğru hərəkət ediblər və orada toplantı keçiriblər.

Xatırladaq ki, az əvvəl Mixail Saakaşvili KİV-in, onun Ukrayna lideri Pyotr Poroşenkoya barışmaq təklifi ilə bağlı məktub yazdığı barədə informasiyasını təkzib etmişdi. Strana.ua saytı xəbər yaymışdı ki, Saakaşvili bununla bağlı sualı cavablandırarkən "Mən onlara həmişəkindən daha çox hücüm edəcəyəm" deyib.

Yeri gəlmişkən, Ukrayna KİV-in yaydığı həmin informasiyada iddia olunurdu ki, guya Saakaşvilidən Poroşenkoya məktub var və o, prezidentə deeskalasiya" (gərginliyi götürmək) təklif edib.

Qəzet çapa gedərkən Saakaşvili Ukrayna prezidenti Petro Poroşenko ilə yalnız onun istefası barədə danışmağa hazır olduğunu bəyan edib. APA-nın "RİA Novosti" agentliyinə istinadən verdiyi məlumata görə, M. Saakaşvili Azadlıq (Maydan) meydanında keçirilən aksiyada P. Poroşenkoya barışıq təklif etmədiyini bir daha bildirib.

M. Saakaşvili səmimi insanları onun P. Poroşenko ilə razılaşması barədə xəbərlərə inanmamağa çağırıb: "Mən, canlı Saakaşvili sizin qarşınızdayam. Biz danışıqlara hazırıq, ancaq biz yalnız onun istefası barədə danışa və razılaşa bilərik. Ukrayna xalqının ləyaqətinin bərpası üçün onun istefa barədə danışmağımız mümkündür".

Qəzet çapa gedərkən aksiya davam edirdi.



## Azərbaycanda 17 yeni silah yaradılır

**Müdafiə təyinatlı məmulatların yaradılması sahəsində Müdafiə Sənayesi Nazirliyinin elmi müəssisələrinin potensialından istifadə etməklə bir sıra elmi-tədqiqat və təcrübi-konstruktor işləri həyata keçirilir. Bunu müdafiə sənayesi naziri Yavər Camalov "Azərbaycan" qəzetində işıq üzü görən "Azərbaycanın müdafiə sənayesi ən modern və mükəmməl inkişaf mərhələsindədir" məqaləsində yazıb.**

Y. Camalov bildirib ki, nazirliyin Elmi-Tədqiqat İnstitutunda 2017-ci ildə 31 mövzu, o cümlədən müdafiə təyinatlı məmulatların yaradılması işləri üzrə 15 mövzu üzrə elmi-tədqiqat və təcrübi-konstruktor işləri davam etdirilir. Əsas mövzular sırasında 57 mm-lik (S-5 tipli) və 80 mm-lik (S-8 tipli) idarə olunmayan aviasiya raketlərinin, 25, 50, 100 və 250 kq-lıq qəlpəli-fuqaslı aviabombaların, zirehli texnikalar üçün tüstü qumbaraatan qurğusu və onun qumbarası var: "Milli Aerokosmik Agentliyi tərəfindən isə (MAKA) 2017-ci ildə müxtəlif sahələri əhatə edən 34 mövzu üzrə, o cümlədən 17 müdafiə təyinatlı məmulatın yaradılması işləri aparılır. İlk növbədə əsas diqqət müxtəlif növ döyüş tapşırıqlarının yerinə yetirilməsi məqsədilə yaradılan "Tufan" milli zirehli nəqliyyat vasitəsinin, 12,7 mm-lik pulemyotla təchiz olunmuş məsafədən idarə olunan döyüş modulunun, 40 mm-lik QP-25 tipli lüləaltı qumbaraatanın və s. məmulatların hazırlanmasına yönəldilib. Müdafiə Sənayesi Nazirliyinin respublikanın elm ocaqlarından Milli Aviasiya Akademiyası, Bakı Dövlət Universiteti və digərləri ilə birgə əməkdaşlığına əsasən bir sıra tədqiqat işləri aparılır".

# Şəhid qardaşı baş memarın əlindən dad edir

## Vahid Səmədov: "1 il 9 aydır məni məhkəmələrdə süründürürlər"

**Neftçalanın baş memarı şəhid ailəsini intihar həddinə çatdırıb. Qarabağ uğurunda gedən döyüşlərdə itkin düşən Taleh Şahbala oğlu Səmədovun qardaşı Vahid Səmədov Neftçala rayonunqt baş memarı Vüqar Nağıyevin əlindən cana doyduğunu bildirir.**



Şəhid qardaşı bildirir ki, 2016-cı ildə oğlunun adına qanuni sənədlərlə dövlət reyestr xidmətinin verdiyi çıxarışla 6 sot həyətyanı torpaq sahəsi alıb. "Qonşumuz camaatın torpaqlarını zəbt edib alan Mafiyət Azayeva, həyat yoldaş Mobil Azayev gəlib mənimlə dava elədilər ki, həmin torpaq bizimdir. Bizə həmin torpağı Neftçalanın baş memarı Vüqar Nağıyev satıb. Təsəvvür edin 1 il 9 aydır ki, Vüqar Nağıyevlə Mafiyət Azayevanın əlindən evi tikə bilmirəm. 1 il 9 aydır məni məhkəmələrdə süründürürlər. Anam Gülbikə Balaheydər qızı Zərbəliyeva məhkəmədə süründürməçilikdən bu ilin fevralın 6-da ürəyi partladı, öldü. Vüqar Nağıyev yenə də bizdən əl çəkmədi. Məhkəmədə bizə qarşı iddia qaldırıb bizi get-gələ salıb əsəblərimizlə oynayır. Ekspertiza bizim xeyrimizə rəy versə də əl çəkmirlər. İşimiz 3 dəfə ekspertizaya göndərilib", - deyə Vahid Səmədov bildirib.

Onun sözlərinə görə, Vüqar Nağıyev Neftçala Rayon İcra Hakimiyyətindən əvvəl Şirvan şəhər İcra Hakimiyyətində baş memar işləyib: "Şirvanda torpaqları saxta sənədlərlə camaata satdığına görə icra başçısı Mərdan Camalov onu işdən qovdu. Şirvanı alt-üst edib. İndi də gedib Neftçalanı bərbad günə qoymağa. Şirvandan getsə də, yenə də əməllərini yerə qoymur. Şirvanda yerləşən Reyestr İdarəsi də Vüqarın saxta sənədlərinin əlində girinc qalıblar. Şəhid qardaşı kimi ölkə rəhbərliyinə müraciət edirəm. Vüqar Nağıyevin qanunsuz, saxta əməlləri hüquq mühafizə orqanları tərəfindən araşdırılsın və barəsində ölçü götürülsün. Bizim canımız rahat olsun. Yoxsa bu adam anamın ürəyini partladıb öldürdüyü kimi məni, balalarımı cinayətə sürükləyir, həyatımızla oynayır. Mən əminəm ki, Vüqar Nağıyev barəsində ciddi ölçü götürüləcək və Şirvan camaatının canı dincələcək".

❑ **E.HÜSEYNOV**

# Tez-tez selfi çəkmək ehtiyacı ruhi xəstəlikdir?

**Psixoloqlar tez-tez selfi çəkib sosial mediada paylaşanların "Selfitis" xəstəliyinə tutulmaq ehtimalının ola bildiyini və psixoloji yardıma ehtiyac duyduqları barədə xəbərdarlıq edirlər.**



"The Daily Telegraph" qəzeti yazır ki, "Selfitis" termini, çox selfi çəkənlər üçün ilk dəfə 2014-cü ildə işlədilib. Həmin vaxt Amerika Psixiatriya Mərkəzi bu meyli xəstəlik kimi qiymətləndirməyi təklif edib. Nottingem Trent Universiteti və Hindistandakı "Tiagaracar" İnstitutu da bu vərdişin xəstəliyə çevrilib-çevrilmədiyini araşdırıb.

Aparılan araşdırmalar nəticəsində "Selfitis"in ruhi pozuntu olması nəticəsinə gəlinib və xəstəliyin ciddiliyinin qiymətləndirilməsi üçün Selfitis Davranış Şkalası yaradılıb. Şkala 1-100 arası dəyişir. Araşdırmada 200 nəfər iştirak edib və göstəricilər daha sonra 400 nəfərdə sınaqdan keçirilib. İştirakçılar Hindistandan olub. Çünki ən çox selfi çəkən və təhlükəli yerlərdə selfi çəkərkən ölənlərin çoxu Hindistandandır.

Beynəlxalq Ağıl Sağlamlığı və Asılılıq jurnalında dərc olunan nəticələrə görə, "Selfitis"in üç səviyyəsi müəyyən edilib:

Sərhəddə olanlar: gündə ən az 3 dəfə selfi çəkənlər, amma hamısını sosial mediaya qoymayanlar.

Kəskin: Gündə ən az 3 selfi çəkib hər birini sosial mediaya qoyanlar.

Xroniki: Selfi çəkmək üçün nəzarət edilə bilməyən bir istək duyan, həddən artıq selfi çəkən və gündə ən az 6 dəfə sosial mediada bölüşənlər.

Notthingem Trent Universitetinin Psixologiya fakültəsindən Dr. Canartanan Balakrişnan deyir ki, "№Adətən bu vəziyyətdə [Selfitis] olanlarda özünəinam əskikliyi olur və öz çevrələrində qəbul edilmə istəyi yaranır". Dr. Balakrişnan əlavə edib ki, "Bu narahatlığın varlığı təsdiq edilib, indi insanların nə üçün və necə belə davrandıqlarını və bu vəziyyətdən ən çox əziyyət çəkənlərə necə kömək ediləcəyini tapmaq lazımdır".

Lakin Londondakı Kral Kolleci Universitetinin Psixologiya Fakültəsinin professoru Simon Uesseli isə selfi çəkməyin xəstəlik olması ideyasına şübhə ilə baxır: "Araşdırma selfi çəkənlərin ruhi durumlarının yaxşılaşdığını, diqqətləri üzərilərinə çəkdiklərini, özünəinamlarını artırdığını və ətraf mühit ilə əlaqə qurduqlarını göstərir".

Kral Kolleci Psixiatriya qurumundan Dr. Mark Sleyter da "Selfitis deyə bir şey yoxdur və olmamalıdır" deyir: "Qarışıq və mürəkkəb insan davranışlarını tək bir kəlmə ilə yarlıqlama meyli var. Amma bu təhlükəli və həqiqi olmayan bir şeyə həqiqət kimi bir məna yükləyə bilər". (BBC)



## Bu gün Bakıda çiskinli yağış yağacaq

**Dekabrın 18-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, bəzi yerlərdə çiskinli yağış yağacağı gözlənilir.**

Musavat.com Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinə istinadən bildirir ki, səhər zəif duman olacaq, cənub küləyi əsəcək. Havanın temperaturunun gecə 6-8°, gündüz 9-12° isti olacağı gözlənilir.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz olacaq, bəzi yerlərdə zəif duman olacaq, şərq küləyi əsəcək. Temperaturun gecə 2-7°, dağlıq ərazilərdə 10-14° şaxta, gündüz 7-12° isti olacağı ehtimalı var.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq, şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 7-12° isti olacağı gözlənilir.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq, şərq küləyi əsəcək. Temperaturun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 9-13° isti olacağı ehtimalı var.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz olacaq. Gecə və səhər bəzi yerlərdə duman, şərq rayonlarında çiskin olacaq, şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 7-11° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 2-7° isti olacağı gözlənilir.

Mərkəzi-Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman, şərq rayonlarında çiskin olacaq, şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 1-6° isti, gündüz 10-14° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz olacaq. Gecə və səhər bəzi yerlərdə duman, çiskin, olacaq, şərq küləyi əsəcək. Temperaturun gecə 4-7° isti, gündüz 10-13° isti, dağlarda gecə 1° şaxtadan 4°-dək isti, gündüz 8-11° isti olacağı ehtimal edilir.

# Yunusların və "azərbaycanlı" separatçıların Rusiyadan təlimat aldıqlarına dair şok iddia

## Azərbaycana qarşı məkrli planlar icra edən "sapı özümüzdən olan baltalar" Rusiya "KQB"sinin kadrı olan Qannuşkina ilə Hollandiyada toplantı keçiriblər; ölkəmizə qarşı Avropadan təşkilatlananların Kremldən idarə olunmasına dair məlumatlar var...

**Azərbaycana qarşı separatçılıqla məşğul olan "siyasi qaçaq" Ataxan Əbilov dekabrın 17-də facebook səhifəsində özünü və Avropadakı digər separatçıların Kremldən təlimatlandırıldığını ifşa edən şəkil paylaşıb. Fotodan görünür ki, A.Əbilov, Leyla və Arif Yunuslar, həmçinin separatçılığa görə məhkum olunmuş və həbsxanada ölmüş, təxribatçı Talış Mədəniyyət Mərkəzinin rəhbəri, "Tolişi sədo" qəzetinin baş redaktoru olmuş Novruzəli Məmmədovun həyat yoldaşı Məryəm Məmmədova rus hüquq müdafiəçisi (?), sovet KQB məktəbinin yetişdirməsi Svetlana Qannuşkina ilə Hollandiyada görüşüb müzakirələr aparıblar. Müzakirələrin detalları haqda təbii ki, açıqlama verməyiblər. Amma bu fotoşəkilin özü bütün detalları açıb ortaya qoyur.**



Məsələ ondadır ki, Svetlana Qannuşkina Kremlin Avropadakı dayaqlarının, təxribatçı sosialist qruplaşmalarının təlimatçılarından biridir və zaman-zaman Azərbaycan dövlətinə qarşı yön almış proseslərdə adı hallanıb. A.Əbilov, Leyla və Arif Yunuslar isə var gücləri ilə Azərbaycana qarşı "vuruşan" şəxslərdir. Separatçı "Talış Muğan Respublikasının" rəhbəri Əlikram Hümmətovun müavini olmuş, habelə Rusiyanın və İran xüsusi xidmət orqanlarının ikili agenti olduğu iddia edilən Ataxan Əbilov Hollandiyada açıq şəkildə separatçılıqla məşğuldur. Ötən il Azərbaycandan Ermənistana qaçan Şahin Mirzəyevin düşmən ölkəyə sığınması üçün danışıqları da Avropa üzərindən Ataxan Əbilov aparmış və faktiki olaraq onu "verbovka" edib Ermənistana göndərməyə müvəffəq olmuşdu.

Leyla və Arif Yunuslar da faktiki olaraq Azərbaycana qarşı olan ən qorxunc planlarda həvəslə iştirak edirlər.

L.Yunus Avropa institutları ilə əlaqəli görünsə də, faktiki olaraq onun hələ 90-cı illərin əvvəllərindən - Müdafiə Nazirliyində işlədiyi vaxtlardan Rusiya xüsusi xidmət orqanları ilə əməkdaşlıqları olmasına dair iddialar var.

Son vaxtlar Hollandiyada bir araya gələrək Azərbaycana qarşı təxribatlarla məşğul olan "azərbaycanlılar"dan ibarət qruplaşmanın Svetlana Qannuşkinanın maraq dairənə düşməsi heç də təsadüfi deyil.

Qeyd edək ki, Leyla Yunusla Qannuşkina ilə çoxdan rəfiqədirlər. Qannuşkina hüquq müdafiəçisi donuna girsə də, daha çox Rusiyanın müxtəlif Avropa təsisatlarında ələ aldığı funksionerləri təlimatlandıran çekistlərdən biridir.

Burada bir haşiyə çıxaq: Hər dəfə Azərbaycanın Avropa institutları ilə yaxınlaşması müşahidə olunanda, müəyyən bir razılaşma, protokol imzalanmasına doğru addımlar atılanda Avropa Şurasında, Avropa Parlamentində ölkəmizə qarşı bir qanun layihəsi ortaya atılır və qalmaqal yaranır, münasibətlər gərginləşdirilir. Bu, əlbəttə ki, təsadüfi deyil və ifşa olunub ki, Avropada Azərbaycana qarşı olan qüvvələr məhz Kremldən idarə olunan solçu qüvvələrdir. Onların ifşasına dair xeyli öncələr "Yeni Müsavat"da "Avropadan Azərbaycana edilən təzyiqlərdə rus barmağı", "Azərbaycana qarşı Avropa və Asiya üzərindən solçu hücumu" sərlövhəli yazılar dərc olunub. Həmin materiallarla aşağıdakı linklərdə tanış ola bilərsiniz - (http://musavat.com/ru/author-news/avropadan-azerbaycana-edilen-tezyiqlerde-rus-barmagi_395280.html ttp://musavat.com/ru/author-news/avropadan-azerbaycana-edilen-tezyiqlerde-rus-barmagi_395280.html, http://musavat.com/news/azerbaycana-qarsi-avropa-ve-asiya-uzerinden-solcu-hucumu_439804.html)...



Kreml birmənalı şəkildə Azərbaycanın Avropa ilə yaxınlaşmasına qarşıdır. Rusiya Azərbaycanla Avropa arasında nifaq salmaq, gərgnliklər yaratmaq üçün hər zaman öz solçu agentlərindən istifadə edib. Faktiki olaraq Avropa Şurası, Avroparlamentdə ölkəmizə qarşı layihələr hazırlayanlar, müzakirəyə verənlər də onlardır. Məqsəd münasibətləri davamlı şəkildə korlamaqdır.

İndi də Avropa Birliyi ilə Azərbaycanın arasında böyük əməkdaşlıq saziş imzalanması üçün danışıqlar gedir. Belə bir dönəmdə bəlli qüvvələr həm siyasi məhbus məsələsini xüsusi qabardır, habelə Avropadakı separatçıların əli ilə ölkəmizə qarşı növbəti təxribatlar düşünürlər. Nəzərə alsaq ki, 2018-ci il Azərbaycanda prezident seçkiləri ilidir, onda Kremlin agentlərinin daha çox əl-ayağa düşməsinin səbəbləri bir az da aydınlaşmış olur.

Ekspertlər hesab edirlər ki, Yunuslar və separatçı Əbilovla Qannuşkinanın görüşündən sonra ermənipərəst qüvvələrin Azərbaycana qarşı növbəti və daha böyük təxribatları gözləniləndir. Ehtimal olunur ki, ilk növbədə bu təxribatçı qrup Azərbaycanın Avropa Şurasından çıxarılması ilə bağlı növbəti dəfə beynəlxalq qurumlara müraciətlər etməyə hazırlaşır. Çünki belə bir həssas dönəmdə - Avropa Şurası ilə gərginlik mühitində bu müraciət "effekt" verə bilər.

Bütün hallarda Azərbaycanın aidiyyəti qurumları və diaspor təşkilatları bu məsələni diqqətə almalı, önləyici tədbirlər görməlidir.

❑ **Elşad MƏMMƏDLİ**

# Rusiya televiziyalarında erməni "siyasi xoru"...

## **Tofiq Abbasov:** "Solovyovun verilişi Karen Şahnazarovun direktoru olduğu kinostudiyanın pavilyonunda hazırlanır"

**Rusiyanın "Zvezda" telekanalında yayımlanan siyasi tok-şou zamanı azərbaycanlı jurnalist Fuad Abbasov ermənistanlı ekspert Sarkis Tsaturyanla əlbəyaxa olub. Buna səbəb də erməni ekspertin Türkiyə ilə bağlı təhqiramiz fikirlər səsləndirməsidir. Aparıcı tərəfləri zorla sakitləşdirib.**

Qeyd edək ki, son zamanlar ermənilər rus telekanallarında kök salıblar. Tez-tez canlı yayıma çıxan erməni ekspertlər Türkiyə və Azərbaycanla bağlı təhqirlərlə dolu fikirlər, şər-böhtanlar səsləndirirlər. Rusiya KİV-ləri onlara həvəslə geniş meydan verirlər. Amma nədənsə, Azərbaycan və Türkiyə tərəfi Rusiya KİV-lərin məlum siyasətinə diqqətçəkən etiraz nümayiş etdirmirlər. Bu da hər iki dövlətin ictimaiyyətində müəyyən etirazlar doğurur.

Xüsusilə, 3 milyon azərbaycanlının yaşadığı, çoxsaylı təşkilatlarımızın fəaliyyət göstərdiyi bir ölkədə ermənilərin Rusiya mətbuatında bizdən daha öndə olmaları ilə bağlı ən müxtəlif fikirlər var. Onların qarşısını almaq üçün Azərbaycan hökumətinin, şimal qonşumuzda yaşayan azərbaycanlıların, səfirliyimizin müxtəlif qurumlarımızın hansı fəaliyyəti göstərmələri barədə çoxsaylı fikirlər var.



Azərbaycanın rusdilli mediasında müntəzəm çıxışlar edən politoloq Tofiq Abbasov Rusiyada yayımlanan bu tipli verilişlərdə özlərinə məxsus prodüserlərinin, təşkilatçılarının olduğunu bildirdi: "Özlərinə məlum olan səbəblərdən bu və ya digər eksperti çağırırlar. Bu şouların bəzilərində Bakıda oturaraq iştirak etmişəm, ora dəvət almamışam. Bir faktı nəzərə almaq lazımdır ki, erməni ekspertlərin sayı Türkiyədə çoxdur. Onlar özlərini rusiyalı kimi qələmə versələr də, onlar xislət, daxildə olan məzmun etibarı ilə özlərini həm erməni sayırlar, həm də ermənipərəst xətt yürütməkdə davam edirlər. Biz Vladimir Solovyovun tok-şoularında çox şeyin şahidi oluruq. Rusiyanın Dmitri Kiselyovla əyani söhbətim olub. Mən ona öz etirazımı bildirib dedim ki, necə olur Rusiya televiziyasında, dövlət kanalında sionistlərlə daşnakların təbliğatına belə geniş meydan verirsiniz, axı bu düzgün deyil. O mənə dedi ki, sizinlə razıyam. Amma onun sözlərindən belə çıxdı ki, Solovyovun verilişi prodakşında hazırlanır, özü də Karen Şahnazarovun direktoru olduğu kinostudiyanın pavilyonunda. Onun özü ona görə tez-tez tok-şoularda iştirak edir. Düzdür, Azərbaycan və Türkiyə ilə bağlı təhqiramiz fikirlərinə rast gəlməmişəm. Amma bir neçə dəfə vurğulayıb ki, onun kökü-əsli Qarabağdandır. Bunun özü də təbliğatın bir formasıdır. Ola bilər ki, onun dədə-babası Qarabağdan çıxıblar. Bu elə də problem deyil. Dmitri Kiselyov mənə onu da demişdi ki, bizim o verilişə müdaxilə etməyə haqqımız da yoxdur. Onu pavilyonda çəkir, Kremllə razılaşdırır və özü bildiyi versiyanı, fərziyyəni efirə verir. Sionistlərin və daşnakların təbliğatı ilə bağlı iradıma tam haqq qazandırmışdı".

Politoloq onların qarşısını almağın yollarından da söz açdı: "Bu məsələni ilk həmkar deyilsiniz qaldırırsınız. Rusiyada lap 10 milyon azərbaycanlı yaşasa da, gərək Azərbaycanın səfirliyi, müxtəlif təşkilatları orada fəal olsunlar. Əgər onların özləri orada ola-ola ciddi iş görmürlərsə, nəticədə belə vəziyyət yaranır. Gərək onların əlaqələri olsun. Madam ki, nüfuzlu kanallarda belə verilişlər gedir, birtərəfli mövqelər əks olunur, gərək səfirliyimiz, təşkilatlarımız məsələyə münasibət bildirsinlər. O məsələni ictimailəşdirib deməlidirlər ki, siz ümumiyyətlə, diskussiya mədəniyyətini pozmuş olursunuz. Çünki birtərəfli təbliğat gedir. Əgər orada iki erməni varsa, ən azından bir və ya iki azərbaycanlı, türk də olmalıdır. İştirakçıların sayı etibarı ilə bərabərlik olmalıdır, əgər bu yoxdursa, deməli birtərəfli təbliğat gedəcək. Biz Bakıda otura-otura nə edə bilərik? Dəfələrlə məktublar yazmışam, Azərbaycan mətbuatında çıxışlar edirəm, xüsusilə, Azərbaycanın rusdilli mediasında. Bilirəm ki, onlar rusdilli mediamızı oxuyurlar. Dəfələrlə mənə təhqiramiz şeylər yazırlar. Erməni mətbuatında daim məni hallandırırlar. Azərbaycanda mətbuata nəzarət edən, prezidentin inandığı məsul şəxslərin də buradakı fəaliyyətləri çox önəmlidir. Mənə dəfələrlə hədələr olub, zənglər olub ki, məni soyublar, facebook səhifəmi iki dəfə dağıdıblar, elektron poçtumu da iki dəfə dağıdıblar. Demirəm ki, mən qəhrəmanlıq edirəm, xeyr, bu bizim borcumuzdur. Dövlətimizin, tariximizin, xalqımızın keşiyində durmalı, həqiqətimizi müdafiə etməliyik. Burada qüvvələri səfərbər etmək lazımdır".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 265 (6878) 18 dekabr 2017

# Azərbaycan bayrağını endirən türk professora sərt təpki

## Tənzilə Rüstəmxanlı: "Görün, o, nə qədər cahil və qərəzli bir adamdır..."



**Türkiyənin Uludağ Universitetində Azərbaycan bayrağının endirilməsi Azərbaycan və qardaş ölkədə ciddi etiraz doğurub. Universitetin Salih Pay adlı ilahiyyat professoru Azərbaycan bayrağının endirilməsinə qərar verib. Səbəb Ermənistan bayrağının universitetin bayraqlar sırasından çıxarılması olub.**

Baş verənlər isə universitetin millətçi gənclərinin ciddi narazılığına səbəb olub. Bayrağı Türkiyənin ülküçü gənclərinin endirdiyini, azərbaycanlı tələbələrin bu məsələyə heç bir aidiyyəti olmadığını bildirən bir neçə türk gənc əllərində Azərbaycan bayrağı tutaraq, universitet önündən etiraz videosu paylaşıblar. Onlar bildiriblər ki, azərbaycanlı tələbələr endirilən bayrağın əvəzində yeni bayraq asmaq istəyiblər və universitetin mühafizə polisi tələbələrin bu istəyinin icrasına, daxili qaydalara zidd olmasına baxmayaraq, mane olmayıblar. Həmçinin, universitetin müəllim heyəti də azərbaycanlı tələbələrə dəstək verib. Mühafizə polisinin və müəllimlərin bu dəstəyini alqışlayan gənclər ilahiyyat professorunu ən ağır sözlərlə təhqir edərək, əslində Türkiyədə Ermənistan bayrağı olmaması gərəkdiyini və bunu edən əxlaqsız professorun mütləq cəzalanacağını qeyd ediblər.

Qeyd edək ki, son aylarda Türkiyə daxilində Azərbaycanda etiraz doğuracaq bu tipli hadisələr nədənsə tez-tez təkrarlanır. Bu ilin sentyabrında 4 xain Türkiyə vətəndaşının Dağlıq Qarabağa qanunsuz səfər etməsi buna misaldır. Müstəqil ekspertlər iki qardaş ölkə sayılan dövlətlərdən birində digərinə qarşı belə halların yaşanmasının qarşısının tezliklə alınmasının vacibliyini önə çəkirlər.

Azəri-Türk Qadınlar Birliyinin rəhbəri Tənzilə Rüstəmxanlı bildirdi ki, iki qardaş ölkənin əlaqələrinə zərbə vurmaq üçün bunlar əvvəlcədən planlaşdırılır: "Xatırlayırsınızsa, bir neçə il əvvəl Bursada keçirilən futbol oyununda belə hadisə olmuşdu. Amma universitetdə bunun baş verməsi heç də xoşagələn hal deyil. Bu, bir dövlət universitetidir, özəl universitet olsa, haradasa anlamaq olardı ki, orada çoxsaylı digər ölkələrin tələbləri var. Buna Türkiyənin Təhsil Nazirliyi tərəfindən, dövlət səviyyəsində ciddi reaksiya verilməlidir. Çünki Azərbaycan və Ermənistan bayrağını Türkiyədə eyni nöqtədə tutmaq qədər ədalətsizlik, cahillik olmaz. Çünki ömür boyu Ermənistanda Türkiyə bayraqları yandırılıb, ayaq altına atılıb. Amma Azərbaycanda Türkiyəyə qarşı münasibət birmənalı şəkildə bəllidir. Türkiyənin 80 milyonu bilir ki, Azərbaycan dövləti və xalqı qardaş ölkə kimi daim Türkiyənin yanında olub. Xüsusilə, "erməni soyqırımı"nda daim Türkiyənin yanında olmuşuq. Ölkəmizdə türk bayrağına nəinki dövlət universiteti, heç özəl universitet də bu qədər hörmətsizlik edə bilməz. Etsələr, dövlət və xalq olaraq onun cavabı anındaca verilər. Belə bir şəraiti heç vaxt yaratmarıq. Bir ilahiyyat professorunun bunu etməsi sadəcə, acınacaqlıdır. Görün o nə qədər cahil və qərəzli bir adamdır. O tipli insanların ya Azərbaycan-Türkiyə münasibətlərindən xəbəri yoxdur, ya Ermənistanın Türkiyəyə münasibətindən xəbərsizdir, ya da xəbəri var, qərəzli şəkildə bunu bilərəkdən edir ki, iki qardaş ölkənin əlaqələrinə zərbə vursun. Yəqin ki, Türkiyə ictimaiyyəti buna ciddi şəkildə təpki göstərəcək. Çünki Azərbaycan məsələsində türk ictimaiyyəti çox həssasdır, necə ki, bizim özümüz beləyik. Biz qardaş ölkələrik, hər məsələlərdə bərabər hərəkət edirik. Necə ola bilər ki, bir ölkənin daxilində hər zaman qardaş dediyi bir ölkənin bayrağına qarşı bu qədər hörmətsizlik edilsin?".

T.Rüstəmxanlı professorun cəzalandırılacağına ümid edir: "Bu təxribatdan başqa bir şey deyil. Yəqin ki, dövlət onu cəzalandıracaq. Mən olsaydım, o professoru universitetdən atardım, ayağını qoymazdım universitetə dəysin. Elə bir ictimai qınaq olmalıdır ki, belə hadisələr bir daha təkrarlanmasın. Burada ictimai qınağın olması mütləqdir. Həm də hökumət də bir mövqe ortaya qoymalıdır. Düşünürəm ki, professorun bu hərəkətinə Türkiyə hökumətinin rəhbərliyi səviyyəsində etiraz olmalıdır. Azərbaycan tərəfdən hər hansı bir etirazın dövlət səviyyəsində olacağına inanmıram. Çünki ona bir ehtiyacın qalacağını da düşünmürəm. Niyə Azərbaycan reaksiya verməlidir? Türkiyə hökuməti axı bundan xəbərsiz deyil".

❑ **Cavanşir ABBASLI**



# Müdafiə sənayesi nazirindən mühüm açıqlamalar

## Zahid Oruc: "Azərbaycan gələcəkdə ağır hərbi texnika da istehsal edə bilər"

**"Bu ilin iyununda, Silahlı Qüvvələr günü ərəfəsində daha 2 istehsalat müəssisəsində kompleks tamamlanma işləri başa çatdırılıb və Ali Baş Komandan İlham Əliyevin iştirakı ilə istifadəyə verilib. Bununla da istifadəyə verilmiş istehsal müəssisələrinin sayı 58-ə çatdırılıb".**

Bu barədə müdafiə sənayesi naziri Yavər Camalov "Azərbaycan" qəzetində dərc olunan "Azərbaycanın müdafiə sənayesi ən modern və mükəmməl inkişaf mərhələsindədir" məqaləsində yazıb.

Y.Camalov bildirib ki, həmin istehsal müəssisələri lazım olan müasir texnoloji avadanlıqlarla təchiz edilib və eləcə də inkişaf etmiş ölkələrin şirkət və firmalarından alınmış dəzgah, xüsusi cihaz və alətlərlə komplektləşdirilib.

Nazir bildirib ki, yaxın zamanlarda daha 2 zavodun-artilleriya və tank topları üçün müxtəlif çaplı mərmilərin isti ştamplanması və mexaniki emalı, həmin mərmilərin atəş yığımlarının gilizlərinin istehsalı zavodlarının açılışları nəzərdə tutulur. Eyni zamanda döyüş sursatlarının hazırlanmasında əsas komponent kimi istifadə olunan partlayıcı maddələr-piroksilin, ballistit barıtların, trotil və heksogen istehsalı üzrə zavodların, eləcə də müxtəlif çaplı artilleriya mərmiləri üçün 4 növ başlıq partladıcılarının və müxtəlif çaplı minaatan atəş yığımları üçün müasir növ tullayıcı barıt atımlarının istehsalı sahələrinin yaradılması işləri də davam etdirilir.

Y.Camalov həmçinin qeyd edib ki, müdafiə təyinatlı məmulatların yaradılması sahəsində Müdafiə Sənayesi Nazirliyinin elmi müəssisələrinin potensialından istifadə etməklə bir sıra elmi-tədqiqat və təcrübi-konstruktor işləri həyata keçirilir: "Nazirliyin Elmi-Tədqiqat İnstitutunda 2017-ci ildə 31 mövzu, o cümlədən müdafiə təyinatlı məmulatların yaradılması işləri üzrə 15 mövzu üzrə elmi-tədqiqat və təcrübi-konstruktor işləri davam etdirilir. Əsas mövzular sırasında 57 mm-lik (S-5 tipli) və 80 mm-lik (S-8 tipli) idarə olunmayan aviasiya raketlərinin, 25, 50, 100 və 250 kq-lıq qəlpəli-fuqaslı aviabombaların, zirehli texnikalar üçün tüstü qumbaraatan qurğusu və onun qumbarası var. Milli Aerokosmik Agentliyi tərəfindən isə (MAKA) 2017-ci ildə müxtəlif sahələri əhatə edən 34 mövzu üzrə, o cümlədən 17 müdafiə təyinatlı məmulatın yaradılması işləri aparılır. İlk növbədə əsas diqqət müxtəlif növ döyüş tapşırıqlarının yerinə yetirilməsi məqsədilə yaradılan "Tufan" milli zirehli nəqliyyat vasitəsinin, 12,7 mm-lik pulemyotla təchiz olunmuş məsafədən idarə olunan döyüş modulunun, 40 mm-lik QP-25 tipli lüləaltı qumbaraatanın və s. məmulatların hazırlanmasına yönəldilib. Müdafiə Sənayesi Nazirliyinin respublikanın elm ocaqlarından Milli Aviasiya Akademiyası, Bakı Dövlət Universiteti və digərləri ilə birgə əməkdaşlığına əsasən bir sıra tədqiqat işləri aparılır".

Nazir daha sonra yazıb ki, İsrailin "Aeronautika" şirkəti ilə birgə müəssisə yaratmışıq və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları (PUA) istehsal edirik. Həmçinin Türkiyənin "Aselsan" şirkəti ilə bir neçə istiqamətdə danışıqlar aparılır. "Alov" zavodunda servis xidmətinin yaradılması ilə bağlı qərar qəbul edilib: "2018-ci ildə Türkiyənin başqa şirkətləri və digər ölkələrin müvafiq qurumları ilə bir sıra layihələr həyata keçirmək niyyətindəyik. Bu layihələrə əsasən 23 mm-lik snayper tüfəngini yaradıb, silahlanmaya daxil etməliyik. Snayper tüfənginin atış məsafəsi 3000 metr olacaq".

Y. Camalov qeyd edib ki, düşmənin PUA-larını endirmək üçün cihazların hazırlanması istiqamətində işlər gedir. Eyni zamanda, idarə olunmayan aviasiya bombalarının idarə olunan variantına gətirilməsi ilə bağlı layihələr də həyata keçiriləcək. Habelə kumilyativ başlıqlı pilotsuz uçuş aparatlarının ilkin sınaqlarına başlanıb: "Bu, düşmənin həm canlı qüvvəsini, həm də hərbi texnikasının məhvetmə qabiliyyətinə malik olacaq. Digər tərəfdən, elektro-impulslu silahların yaradılması istiqamətində də bir sıra ölkələrlə danışıqlar gedir və bu işlərin icrasına başlamışıq". Nazir deyib ki, bu gün Azərbaycan Ordusu regionun ən güclü ordularından birinə çevrilib. Bunu ötən ilin aprel döyüşləri bir daha sübut edib: "Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğalçı ölkənin ordusuna sarsıdıcı zərbələr endirilərək bir sıra yaşayış məntəqələri və əlverişli yüksəkliklər düşmən tapdağından azad edildi. Həmin döyüşlərdə Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində yaradılan və istehsal olunan müdafiə təyinatlı məmulatlardan geniş istifadə olundu. Düşmənin canlı qüvvəsinin və döyüş texnikalarının yerinin müəyyən edilərək məhv edilməsində yeni növ milli müdafiə təyinatlı məhsullar mühüm rol oynadı".

Nazir onu da qeyd edib ki, müdafiə sənayesi müəssisələrinin sayı 58-ə, istehsal məmulatlarının çeşidi 1200-ə çatıb, ümumi məhsul istehsalının həcmi 6,7 dəfə, müdafiə təyinatlı məmulatların həcmi 42 dəfə artıb, 10-dan çox ölkəyə hərbi məhsul ixracı 2,7 dəfə yüksəlib.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Zahid Oruc "Yeni Müsavat"a bildirdi ki, nazirin məqaləsində açıqlanan faktlar Azərbaycanda müdafiə sənayesinin qısa zamanda böyük inkişaf yolu qət etdiyini göstərən faktlardır: "Şübhəsiz bu, birinci növbədə onunla əlaqədar baş verdi ki, Azərbaycan özünün təhlükəsizliyini təmin etmək üçün vacib olan texnikanı, texnologiyanı, müasir silahları arzu etdiyi məkanlardan ala bilmirdi. Bəlli olduğu kimi, Avropa Birliyinin konkret olaraq bölgə ilə əlaqədar qəbul edilmiş sanksiyası mövcuddur. Onlar Cənubi Qafqaz arealına xüsusi modifikasiyalı silahları satmaqdan imtina ediblər və əslində bu, ABŞ tərəfindən çıxarılmış qərarın Avropa məkanına müdafiəsindən ibarətdir. Səbəblər əlbəttə ki, çoxdur. Ümumən hesab olunub ki, əgər regionda ağır müharibələrin davamlılığı perspektivi güclənəcəksə, bu, məkanda İran və Rusiya ilə strateji planlar quran Qərb dairələrinin maraqlarına uyğun olmayacaq. Ona görə də Azərbaycan xaricdən silah asılılığını azaltmaq naminə müdafiə sənayesini qurub inkişaf etdirmək istiqamətində addımlarını atdı. Hər il hərbi sferaya ayrılan büdcə vəsaitlərinə kəskin müqavimət, beynəlxalq təzyiqlər mövcud idi. Lakin bütün bunlara baxmayaraq Azərbaycan bu sahədə uğurlu addımlar atdı. İndi artıq böyük bir siyahı mövcuddur ki, həmin siyahıdakı silahları Azərbaycan istehsal edir. Silahların həm ölkə daxili ehtiyac üçün, həm də xarici bazara çıxarılmasını təmin edən addımlar da atılmaqdadır".

Bəs Azərbaycan gələcəkdə ağır hərbi texnika istehsal edə biləcəkmi? Zahid Oruc qeyd etdi ki, bu mümkündür: "Ümumən son illərdə dünyada silah və hərbi texnika bazarında çox böyük bir dinamizm müşahidə olunur. Azərbaycan burada əməkdaşlıq etdiyi mühüm dövlətlərlə bir tərəfdən İsrail, Rusiya, o biri yandan Türkiyə, həmçinin Belarus, müəyyən bir dövrdə Polşa, Rumıniya ilə çox uğurlu siyasət yürütdü. Özünün hərbi ehtiyaclarını ödədi. Lakin bir çox ehtiyacların ödənməsi üçün daxildə istehsal zəruri idi. Azərbaycan da bunu etdi. Azərbaycan hazırda və gələcəkdə nüvə silahı yaratmaq, nüvə başlıqlarını əldə etmək kimi niyyəti yoxdur. Qarşımıza qoyduğumuz məqsəd birinci növbədə təhlükəsizlik təminatını reallaşdırmaq üçün hava hücumu sistemlərini müdafiə etməkdir, xüsusilə, strateji məkanlarımızı qorumaqdır. Odur ki, Azərbaycan çox mümkündür ki, gələcəkdə ağır hərbi texnikalar da istehsal etsin. Lakin bildiyiniz kimi, bu bazar beynəlxalq məkanda əsasən ABŞ-ın əlindədir. Onlar ağır hərbi texnikanın son nümunələrini yaradıblar. Ona görə də burada ayaqlaşma elə də asan deyil. Silah bazarı xeyli dərəcədə rəqabətlidir, tutulubdur, nano sistemləri işləyən korporasiyalar çalışır. Əminəm ki, Azərbaycan gələcək dövrdə buna qadir olacaq".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 265 (6878) 18 dekabr 2017

# Eldar Mahmudovu 4-cü dəfə dindirdilər - 1 milyardlıq "qara pul" ittihamı

## Son günlər sabiq nazir ətrafında istintaq hərəkətlərinin intensivləşməsi onun həbs təhlükəsinin artmasından xəbər verir




**Sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov, qeyri-iş günü olmasına baxmayaraq, dekabrın 16-da da Baş Prokurorluğun Ağır Cinayətlərə qarşı İstintaq İdarəsinə çağırılıb. Bu barədə azpolitika.info-ya mötəbər mənbələrdən məlumat daxil olub. Məlumatda bildirilir ki, Eldar Mahmudov İstintaq İdarəsinə yollanıb, günorta 1 saatlıq nahar fasiləsindən sonra yenidən İstintaq İdarəsinə qayıdıb. Sayt yazır ki, Eldar Mahmudov 2 gün ardıcıl olaraq əsasən oğlu Anar Mahmudovun biznesi, ölkədən çıxardığı 1 milyard dollarla bağlı sorğu-sual edilib.**

Dekabrın 16-da günün birinci yarısında isə hazırda həbsdə olan keçmiş köməkçisi, əmisi oğlu Vüqar Mahmudovla üzləşdirilib. "Günün ikinci yarısında Akif Çovdarovun sabiq nazirlə üzləşdirmə üçün İstintaq İdarəsinə gətiriləcəyi gözlənilirdi" - mənbə "azpolitika"ya bildirib. Həmçinin əlavə edib ki, sabiq nazir xüsusilə gərgin görünüb. Son günlər sabiq nazir ətrafında istintaq hərəkətlərinin intensivləşməsi, onun köməkçisi Vüqar Mahmudov və Akif Çovdarovla üzləşdirilməsi həbs ehtimalının son dərəcə yüksəldiyindən xəbər verir.

Yada salaq ki, Eldar Mahmudovu buna qədər Baş Prokurorluğun Ağır Cinayətlərin İstintaqı İdarəsində artıq 4 dəfə dindiriblər. Əvvəlki dindirmələrin köməkçisi vəzifəsini daşımış Vüqar Mahmudovun cinayət işi çərçivəsində gerçəkləşdiyi bildirilirdi. V.Mahmudov ləğv olunmuş MTN Antiterror Mərkəzinin şöbə rəisinin müavini vəzifəsində işləyib. Faktiki olaraq nazirin köməkçisi funksiyasını həyata keçirib. Polkovnik-leytenant Vüqar Mahmudov bu ilin noyabrında həbsə alınıb. O, nazirliyin vəzifəli şəxsləri barəsində Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində istintaq edilən cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb edilib. Sabiq nazirin əmisi oğlu Vüqar Mahmudova özgə əmlakının mütəşəkkil dəstə tərkibində külli miqdarda mənimsəmə, ayrı-ayrı vətəndaşların əmlakını hədə-qorxu ilə tələb etmə, əməliyyat-axtarış fəaliyyəti haqda qanunvericiliyin tələblərini kobud surətdə pozma, vəzifə saxtakarlığı, eləcə də şəxsi maraqlarına görə qulluq mövqeyindən sui-istifadə faktları üzrə ittihamlar elan olunub. Barəsində Bakı Hərbi Məhkəməsinin qərarı ilə 4 aylıq həbs qətimkan tədbiri seçilib.

Eldar Mahmudovun ölkədən 1 milyard dollar çıxarılması ətrafında sorğu-sual edildiyi bildirilir. Mümkündür ki, keçmiş nazir həmin pulları ölkədən hazırda həbsdə olan əmisi oğlu Vüqar Mahmudovun vasitəsilə çıxarıb. V.Mahmudov bu il noyabrın 3-də həbs edildikdən sonra belə xəbərlər yayılmışdı ki, ondan Eldar Mahmudovun həbsinə əsas ola biləcək ifadələr alınıb. Bildirilirdi ki, V.Mahmudov E.Mahmudovun köməkçisi statusunda olsa da, bir çox hallarda nazir müavinlərindən artıq səlahiyyətli olub. İddialara görə, onun kabinetində bir neçə iri seyf olub. Həmin seyflərə iş adamlarından, müxtəlif vəzifə sahiblərindən, məmurlardan toplanan xəraclar yığılıb. Əsasən, MTN tərəfindən cəzalandırılan şəxslərdən yığılan pullar Vüqar Mahmudov tərəfindən toplanaraq bu haqda nazirə məruzə olunurmuş. Belə xəbərlər də var ki, Eldar Mahmudovu "sağ əli" olan əmisi oğlunun ifadəsi əsasında həbs etmək istəyirlər.

❑ E.HÜSEYNOV

# Həbs edilən tikinti şirkətinin rəhbəri ilə Akif Çovdarovu nə bağlayır…

## "Yeni Yasamal" MTK-nın rəhbəri Cahangir Alışov mənzil qalmaqalı ilə bağlı həbs edilsə də, işdə general Akif Çovdarovun da adı var; "MTN işi"ndə əsas şahid olan MTK rəhbəri nələr demişdi...



**"Yeni Yasamal" MTK-nın Yasamal rayonu, Şeyx Məhəmməd Xiyabani küçəsi 5 ünvanında yerləşən 16 mərtəbəli yaşayış binası ilə bağlı doqquz il əvvəl başlamış qalmaqal yeni məcraya yönəlib. Belə ki, tikinti şirkətinin rəhbəri Cahangir Alışov həbs edilib. Şirkət rəhbəri evlərin qanunsuz satışını vəkili Habil Fətəliyev vasitəsi ilə həyata keçirdiyindən onun da saxlanıldığı deyilir.(virtualaz.org)**

Zərərçəkən vətəndaşların mənzil probleminin illərdir ki, KİV-də işıqlandırılmasına baxmayaraq, 2006-ci ildə nəğd ödənişlə aldıqları mənzillər hələ də onlara təhvil verilməyib. Məlumat üçün deyək ki, binanın tikintisi 2008-ci ilin ortalarından başlayıb. MTK-nın sədri Cahangir Alışov dəfələrlə vəd versə də, vətəndaşlar mənzillərinə köçə bilməyiblər. Buna səbəb mənzillərin eyni vaxtda bir neçə nəfərə satılmasıdır.

Zərərçəkənlərin mənzillərin bir neçə nəfərə satılması ilə bağlı dəfələrlə hüquq-mühafizə orqanlarına şikayət etmələrinə baxmayaraq, Cahangir Alışov haqqında ciddi tədbir görülməyib. Faktla bağlı 2 ilə yaxındır ki, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi qaldırılsa da, C.Alışovu həbs etmək qərarı yubanırdı. Məlumata görə, 200-dən çox ailənin 8 milyon manatdan çox pulu mənimsənib.

Cahangir Alışov və vəkili tikintinin yubadılması və mənzillərin bir neçə nəfərə satılması iddialarını rədd edirdilər. Onlar iddia edirdilər ki, binanın yeri daş karxanası olub və daşların kəsilməsi vaxt aparıb, üstəlik dövlətin qərarı ilə tikinti 2 ilə yaxın dayandırılıb. Onlar binanın 2015-ci ilin sonunda bina təhvil veriləcəyini vəd etmişdilər. Cahangir Alışov binada cəmi 12-13 evin mübahisəli olduğunu bildirirdi.

2016-cı ildə binanın tikintisi əsasən tamamlansa da, Cahangir Alışov binanı təhvil verməyib. Maraqlıdır ki, Cahangir Alışov "Yeni Yasamal" MTK-dan başqa "Yüksəliş C"MTK-nin təsisçisi, "Bərpa Tikinti" MMC-nin direktoru, "Karvan 2010"ticarət mərkəzinə rəhbərlik edib. Bu qədər geniş imkanların ona yaradılması haqlı şübhələr yaradıb. Əcaba, MTK rəhbərini kim himayə edib?

2015-ci ildə "MTN işi" üzə çıxanda mediada belə xəbərlər yayıldı ki, Cahangir Alışovun himayəçisi MTN generalı Akif Çovdarov imiş. Şikayətçilər iddia edirdilər ki, A.Çovdarovla yaxın dostluq münasibətlərindən istifadə edən MTK rəhbəri bu səbəbdən illərdir ki, "toxunulmaz" qala bilib. İddia olunurdu ki, Cahangir Alışov Akif Çovdarovun vasitəsi ilə kiçik oğlunu MTN Akademiyasına da düzəltdirib. Daha bir maraqlı xəbər isə bu idi ki, Masazır qəsəbəsində Akif Çovdarovun işgəncə məkanı kimi istifadə edilən istixanalarını da MTK rəhbəri tikib.

A. Çovdarovun həbsindən sonra isə MTK rəhbəri "valı dəyişib" və bu dəfə özünü MTN çetesinin qurbanı kimi qələmə verməyə başlayıb. Cahangir Alışov və daha bir nəfər məhkəmədə Akif Çovdarova qarşı iddia irəli sürərək, onlardan 19 mənzilin təqdim olunmuş adamların adına keçirilməsini, 500 min dollar ödənilməsinin tələb edilməsini, sonradan isə həmin məbləğin ayrı-ayrı binalarda yerləşən 6 mənzillə əvəzləndiyini bildiriblər.

Akif Çovdarovun kürəkəni Rəşad Əmircanov (o da MTN-də işləyib) isə məhkəmə ifadəsində MTK sədri haqda ilginc məqam açıqlamışdı. R.Əmircanov demişdi ki, Cahangir Alışovun MTN-ə dəvət edilməsi xəbərinin eşidən şöbə rəisi ona "inşaatla məşğul olan Cahangir Alışov Akif Çovdarovun yaxın adamıdır və bu işdən uzaq durun" xəbərdarlığını edib.

İstixanaların tikilməsinə gəlincə, Cahangir Alışov deyib ki, Masazırda görülən işlər üçün Akif Çovdarovun onu 250 min dollar xərcləməyə məcbur edib. Generalın sahibi olduğu istixananın direktoru- "Bəhrə-2010" MMC-nin sahibi isə məhkəmədə iddiaları rədd edərək həmin işlər üçün bütün pulları öz əli ilə kassadan verdiyini demişdi.

❑ "YM"

# Binəqədinin icra başçısı rayon prokuroru ilə qarşı-qarşıya gəldi

## Prokurorun zeytun bağında tikinti işlərinin dərhal dayandırılması ilə bağlı göstəriş verməsi Xaləddin İsgəndərovu qəzəbləndirib və...



**Bakının 6-cı mikrorayon ərazisində yerləşən zeytun bağının bir hissəsi məhv edilib və həmin ərazidə tikinti işləri aparılır. Mətbuatda yayılan xəbərlərdən belə aydın olur ki, Heydər məscidinin yaxınlığında zeytun bağının bir hissəsinin məhv edilərək, yerində tikinti işlərinə başlanılması prosesinin arxasında birbaşa olaraq Binəqədinin icra başçısı Xaləddin İsgəndərov dayanır. Məhz icra başçısının birbaşa tapşırığı ilə əraziyə ağır texnika yeridilərək ağaclar məhv edilib, ərazidə tikinti işlərinə başlanılıb.**






Tendensiya.az saytı yazır ki, məsələ ictimailəşməsindən sonra müvafiq qurumlardan sərt reaksiyalar verilib. Zeytun bağında tikinti işlərinin dərhal dayandırılması ilə bağlı göstəriş gəlib. Binəqədi rayon prokuroru Nazim İmanov əraziyə tabeliyində olan işçilərini göndərərək, tikintinin dayandırılmasına çalışıb. Amma prokurorun bu istəyi icra başçısı Xaləddin İsgəndərovun müdaxiləsindən sonra nəticəsiz qalıb. Sayt yazır ki, Xaləddin İsgəndərov ondan tikintini dayandırmaq tələb edən prokurorla sərt şəkildə mübahisə edib. Bəzi saytlarda hətta icra başçısı ilə prokurorun əlbəyaxa olması ilə bağlı başlıqlar da yer alıb. Gələn məlumatlara görə, hazırda zeytun bağının məhv edilən hissəsində tikinti işləri davam etdirilməkdədir.

İllərdir ki, Xaləddin İsgəndərovun Binəqədidə yaşıllıqları məhv etməsi ilə bağlı mətbuatda xəbərlər yayılır. İcra başçısının bir dəstə "qoçu" saxladığı, onların vasitəsi ilə istədiyi ərazini ələ keçirərək satışa çıxardığı deyilir. Bildirilir ki, heç bir qanun və hüquq tanımayan başçının "qoçu" dəstəsi istədiyi şəxsin evini sökür, istədiyi adama tikinti üçün icazə verir. Dəstə birbaşa Binəqədi rayon İcra Hakimiyyətinin başçısına tabedir və hər gün də gördükdəri "işlər"lə bağlı başçıya birbaşa məlumat verirlər.

Daxil olan şikayətdə bildirilir ki, mütəşəkkil dəstəyə Orxan, Nicat, Zaur, Ramin, Fuad, Arif və başqa bir neçə nəfər daxildir. Həmin dəstəyə isə Xaləddin İsgəndərovun ailə sürücüsünün oğlu Orxan adlı şəxs başçılıq edir. Belə ki, dəstə Binəqədi rayonunda tikinti işlərinə bütün nəzarəti həyata keçirir. Binəqədidə heç kim Orxanın qeyri-rəsmi razılığı olmadan daşı-daş üstünə qoya bilməz. Orxan və dəstəsi açıq şəkildə Binəqədi rayonunun ərazisindəki qəsəbə və kəndlərdə qanunsuz hərəkətlərini davam etdirməkdədirlər. Bir müddət əvvəl mətbuatda yayılan xəbərlərdə hətta icra başçısının qeyri-rəsmi tikinti icazələrinin qiymətləri də yazılmışdı. Qeyd olunurdu ki, "qoçu" dəstəsinə 1 mərtəbəli ev üçün 10 min manat, 2 mərtəbəli ev üçün 20 min manat, mansard üçün 5 min manat "şirinlik" vermək lazımdır. Dəstə üzvlərindən Orxan, Nicat adlı şəxslərin Biləcəri icra nümayəndəliyində, Arif və Fuadın Binəqədi kənd icra nümayəndəliyində formal olaraq işlədikləri də bildirilir. Orxan adlı şəxsin istifadəsində Az 99 HH 434 nömrəli "Niva" markalı avtomobili ilə gün ərzində öz dəstəsi ilə rayon ərazisini gəzərək tikinti aparan şəxslərin işini dayandıraraq "hesab" almamış əl çəkmir.

İcra başçısı Xaləddin İsgəndərovun yaxın qohumu olan sabiq vergilər naziri Fazil Məmmədova arxalanaraq etdiyi qanunsuzluqların qarşısının alınmasının zamanıdır.

Yayılan məlumatları dəqiqləşdirmək üçün Binəqədi Rayon İcra Hakimiyyəti ilə əlaqə saxladıq. Lakin sorğumuza cavab verən olmadı.

❑ E.HÜSEYNOV



# “Suriya beynəlxalq birlik üçün qara ləkədir” - İsveçrə mətbuatı

## “Avropa isə öz-özünü tamaşaçı tribunasına döndərib”

**“Suriyada vətəndaş müharibəsi səngiyib. Rusiyanın dəstəyi ilə koalisiya qalib gələrək Bəşər Əsədi hakimiyyətdə saxladı. Qərb isə öz qərarsızlığı və sinizmi sayəsində Suriyada dinc nümayişlərlə başlayan münaqişənin müharibəyə çevrilməsinə şərait yaratmışdı”. Bunu İsveçrənin “Neue Zürcher Zeitung" qəzetində müəlliflər Elias Perabo və Ferdinand Dür yazırlar.**

Məqalə müəllifləri qeyd edir ki, BMT-nin keçmiş Yuqoslaviya və Ruanda üzrə Beynəlxalq tribunallarında prokuror olmuş, həmçinin BMT-nin Suriyada İnsan hüquqlarının kütləvi surətdə pozulmasını araşdıran komissiyasının keçmiş üzvü Karla del Ponte "karyeram boyunca bu qədər vəhşiliyin törədildiyi yer görməmişəm" - deyə, söyləyib. Eks-prokuror son 7 ildə zülm və vəhşətin əvvəlki kimi davam etdiyini bildirərək, bunun beynəlxalq birlik üçün əsl rüsvayçılıq olduğunu qeyd edib.

“Bütün bunlar isə Avropanın lap yaxınlığında baş verir. On illər boyunca dinc insanları müharibənin ən dəhşətli silahlarından qoruyan onlarla saziş qəbul edilib. Suriyada isə onların hamısı tapdalanıb və faydasız maklaturaya çevirib. Cəzasız qalan cinayətlər beynəlxalq hüququ absurd anlayışa çevirməklə bərabər BMT-nin institutlarına ağır zərbə vurur”- məqalədə yazılıb.

Yazıda BMT Təhlükəsizlik Şurasının 4 daimi üzvünün Suriyada gerçəkləşdirdiyi və minlərlə insanın ölümünə bais olan aviazərbələrlə hüququn “yuyulub getməsində” böyük rol oynadığı vurğulanır.

Jurnalistlərin fikrincə, Avropanın, daha doğrusu, Avropa Birliyinin Suriyaya marağı yalnız İŞİD tərəfindən Parisdə törədilən terror aktlarından və qaçqınların kütləvi axınından sonra peyda olub: “Lakin problemin effektiv həlli əvəzinə onları yalnız bir məsələ düşündürüb-qaçqınlardan necə can qurtarmalı” - yazıda göstərilir.

“Fransa prezidenti Emmanuel Makron bu məsələdə Avropanın mənəvi çatışmazlığını göstərən belə bir cümlə sərf edib: ”Əsəd fransızların deyil, Suriya xalqının düşmənidir".

Yazı müəllifləri bu sözlərdə əxlaqsız məntiqin gözə çarpdığını bildirirlər: “Yeni İŞİD ”ağ avropalıları” öldürdüyü müddətcə Əsəd də istədiyi qədər suriyalını qətlə yetirə bilər. Lakin unudulur ki, Suriyadakı münaqişə ilk dəfə İŞİD və ya Əl Qaidə tərəfindən deyil, ölkədəki sərt diktaturaya qarşı dinc nümayişlərdən sonra başlayıb. Əsəd bu gün də Dəməşq ətrafında 350 min insanı aclığa məhkum edib. Onun qüvvələri Dera, Hums və Hələbdə kimyəvi silahdan istifadə edərək, həmin yerlərin altını üstünə çevirib".

Yazıda bütün bunların Rusiya və İranın böyük miqyaslı yardımları sayəsində mümkün olduğu göstərilib: “Rusiya BMT Təhlükəsizlik Şurasında 11 dəfə veto haqqından istifadə edərək Suriya məsələsini tamamilə bloklayıb. Kreml orada həm Əsəd ordusu, həm də öz hərbi-hava qüvvələrinin insanlıq əleyhinə törətdiyi cinayətləri açıq-aşkar ört-basdır etməkdən heç utanmır”.

Jurnalistlər Suriyadakı vəziyyətin bu hala gəlməsində Avropanın da az rol oynamadığını qeyd edirlər. Məqalə müəlliflərinin fikrincə Qərb vətəndaşları dəstəkləmək və dinc əhalinin müdafiəsinə qalxmaq yerinə qaranlıq qruplaşmalara silah və pul paylayaraq münaqişənin daha da alovlamasına şərait yaradıb. Bununla Əsədə qarşı etirazların dini radikallaşmasına yol açıb.

“Lakin deyəsən Qərbdə bundan narahat olan yoxdur” - Elias Perabo və Ferdinand Dür yazaraq davam edirlər: “Avropa özünü mənəviyyat instansiyası kimi göstərə bilər, lakin o baş verənlərdən sadəcə ”təəssüfünü bildirdikcə" başqa oyunçular öz işlərini görməkdədirlər. Bundan başqa, Avropanın real siyasəti boğazdan yuxarı ritorika ilə insan haqları uğrunda əsl mübarizə arasında uçurumu aşkar surətdə nümayiş etdirir. Artıq Avropanı indi embarqoların zəifləddiyi İranda daha çox sərməyə yatırmaq, Səudiyyə Ərəbistanına silah satmaq, Rusiyadan ucuz qaz almaq maraqlandırır".

Məqalənin yekununda yazılıb ki, Cenevrə sülh prosesi artıq ölüb. Avropa isə öz-özünü tamaşaçı tribunasına döndərib.

❑ **Musavat.com**

# “Mən 100 illiyi bayram eləməyə başlamışam”

## Şirməmməd Hüseynov: “Vətən sevgisi insan ömrünü uzadan birinci dərmandır”

**Dekabrın 17-də mətbuatımızın ağsaqqalı, canlı əfsanəmiz, Bakı Dövlət Universitetinin professoru Şirməmməd Hüseynovun 93 yaşı tamam oldu. Doğum günündə bu yorulmaz araşdırmaçı alimimiz, hamımıza örnək olan dəyərli ziyalımızla həmsöhbət olmaq istədik. Hər zamankı kimi, iş başında olsa da, “Yeni Müsavat”a vaxt ayırdı.**

**- Şirməmməd müəllim, istədim doğum gününüzdə həm sizi təbrik edim, həm də ad günü təəssüratınızı öyrənim. Ömrün 93-cü ilinin tamamında hansı hisslər keçirirsiniz?**

- Vallah, bir əsrə yaxın Azərbaycan tarixinin, taleyinin şahidi olasan, bu, hər adama müyəssər olan şey deyil. Amma əsas budur ki, 20-ci, 21-ci əsr Azərbaycan tarixinin ən möhtəşəm əsrləridir. İnsan həddi-buluğa çatanda yeni nəsil yaradır. Millət də həddi-buluğa dövlət yaradır. Amma hər həddi-buluğa çatanın övladı olmur, hər həddi-buluğa çatan millət az olur. Bu milləti həddi-buluğa çatdırdılar. Həddi-buluğ nədir? Bax, indi mən məqalələr verirəm. Cümhuriyyətin iqtisadi əsasları. Yazıblar e...Yeni müstəqil dövlət yaratmaq üçün gərək bunun iqtisadi zəmini ola. Bu iqtisadi zəmin olub. Yəni millətin özü-özünü dolandırmaq imkanı olub. Əkinçiliyi də olub, sənayesi də, sənətkarları da, mənəvi ədəbiyyatı da, mətbuatı da, dili də olub, qeyrəti də namusu da olub. İndi bunları öyrənmək lazımdır ki, bu milləti həddi-buluğa çatdıran hansı qüvvələr, kimlər olub? Çünki onların nümunəsi bizə lazımdır. Millət həddi-buluğdan tükənməz, dövlətçiliyini itirəməz. Bir şərtlə ki... Məsələn, məqalə yazılıb ki, millətin, cümhuriyyətin iqtisadi təməli nə olub, kimlər yaradıb bunu? Məlum olub ki, bunlar təmənnasız, vətənə, millətə xidmət edən kişilər olub. Onlardan öyrənmək lazımdır.

**- Belə məlum olur ki, siz hətta ömrünüzün 93-cü ilinin tamamında da Cümhuriyyətimizin 100 illiyi, Cümhuriyyət qurucuları barədə düşünürsünüz...**

- Bəs necə? Görmürsən, mən hər həftə iki səhifə “525-ci qəzet”ə göndərirəm, bir məqalə də “Azərbaycan” qəzeti çap edir. İkisində də rubrika açmışam. Birində “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi qarşısında”, o birisində də “Azərbaycan Xalq Cümhuriyyəti-100". İndi bircə şey var ha... 100 illik gəlir, bu cümhuriyyəti yaradan kişiləri qanmaq lazımdır, ya yox? Mən eşitdim ki, guya prezident göstəriş verib ki, harda Azərbaycan Cümhuriyyəti xadimlərinin qəbri var, onların üstü götürülsün. Bu, yaxşı şeydir, ya yox? İndi gərək bunu nə təhər yerinə yetirəcəklər. Türkiyədə nə qədər Azərbaycan mücahidi var. Onların hamısının qəbri, ailələri var. Mənə belə gəlir ki, onların nəsillərini bu bayrama çağırmaq lazımdır. Maraqlanmaq gərəkdir, necə yaşayırlar, nə edirlər? Yəni xaricdə mücahidlərimizin qəbirləri çoxdur. Tiflisdə nə qədəri var. Bu respublikada nə qədəri var. Mirzə Balanın bir məqaləsi var, deyirdi ki, hər Cümhuriyyət bayramını qeyd edəndə məzarlardan qulağımıza səslər gəlir, amma bircə şey də var ki, onlardan da böyük bir qismini ki, dənizə tullayıblar, dənizin dalğaları o səsi bizə gətirir. Bunları bilmək lazımdır e. Keçmişini bilməyən millətin gələcəyi olmaz.



**“Cümhuriyyətin 100 illiyini bayram eləməmiş, bu dünyadan gedən deyiləm”**

**- Bu yaxınlarda mətbuat yazdı ki, Rəsulzadənin həyat yoldaşının məzarı Türkiyədə tapılıb.**

- Rəsulzadənin iki həyat yoldaşı olub. Biri onun övladlarının anasıdır - yazıçı Seyid Hüseynin bacısı. Amma o birisi Polşadan olan Leyla xanımdır, polyak qızıdır (Vanda xanım). Onun məzarı Türkiyədədir. Polşa prezidenti Pilsudskinin qohumu olub. Yəni böyük bir ailənin övladıdır. Özü də bizimkilər dövlət yaratmaq uğrunda fədakarlığı həm də polyaklardan öyrəniblər. Çünki Avropada polyaklar qədər milli dövləti uğrunda vuruşan ikinci millət yoxdur. Fikir verin, Şopen polyak olub. O, Vyanada ölüb, amma polyaklar onun ürəyini öz vətənlərinə gətiriblər, indi də saxlayırlar. Polyaklardan vətənpərvərliyi, vətən uğrunda vuruşmağı öyrənmək lazımdır. Millətçiliyi yox, vətənpərvərliyi.

**- Professor, gecə-gündüz araşdırmalarınızı davam etdirirsiniz. Məmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli irsinin araşdırma və təbliğində böyük işlər dördünüz. Bəs, bundan sonra kimləri araşdırmaq niyyətindəsiniz?**

- Mən fikirləşirəm ki, Məmməd Əmindən, Üzeyir bəydən sonra Nəsib bəy Yusifbəylinin, Mirzə Bala Məmmədzadənin əsərlərini, Əhməd Həmdinin məqalələrini çap edək. Bunların yaradıcılığında Cümhuriyyət və Azərbaycan tarixi öz əksini tapıb. Başqa bir məsələ... Məmməd Əmin deyirdi mühacirət dövründə elə bina qurmuşuq ki, onu heçnə dağıda bilməz. Bir şeir var e...

Könlüm evi bir gülşənə bənzər ki, əzizim,

Min badi-xəzan əssə də, viran ola bilməz! (Səməd Vurğun)

İndi bunlar bir dövlət yaradıblar ki, onu heç kəs yarada bilməz! Müəyyən vaxtda kimsə istila edə bilər, fasilə olar. Amma yenə əvvəl-axır o dövlət üzə çıxacaq. Millət ona sahib çıxacaq.

**- Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı şəxsən sizin təklifiniz, sözünüz, məsləhətləriniz varmı?**

- Bilirsiniz necədir? Hər şeyi bir adamdan gözləmək zəiflik əlamətidir. Çünki prezidentin, hökumətin başı müasir məsələlərə qarışıqdır. Bu işi ziyalılar, tarixçilər, ədəbiyyatçılar, jurnalistlər görməlidir. Mən heç kəsdən heç nə gözləmədən işləyirəm. Gərək hamı işləyə də, hərə bir sahədə. Göstərişlə keçirilən bayram bayram deyil. Hərə özü bayram eləməlidir. Mən özüm 100 illiyi bayram edəcəyəm. Bayram eləyirəm də, artıq 4 ildir bayram eləməyə başlamışam. Amma o bayrama 50 ildir hazırlaşıram. Üzü də 50 il bundan qabaq demişəm ki, Cümhuriyyətin 100 illiyini bayram eləməmiş, bu dünyadan gedən deyiləm (gülür).

**- İnşallah, bu dövlət, bu millət də gördüyünüz böyük işləriniz, millətə, vətənə sevginiz qarşılığında sizin 100 illiyinizi qeyd edər...**

- (Gülür) Mən deyirəm ki, niyyətin hara, mənzilin də ora.

**- Cümhuriyyətdən danışdıq, amma 93 yaşınızı necə qeyd edirsiniz, bu barədə demədiniz...**

- Bilirsən, mən təntənə-məntənə tərəfdarı deyiləm. Bax, bu gün də “Azərbaycan” qəzetində bir məqaləm çap olunub: “Yeni Qafqasya” adlı. 1927-ci ildə “Yeni Qafqasya” jurnalında Ərdoğan familiyalı bir nəfərin azəri oğullarına məktubu dərc olunub. İndi bu Ərdoğan o ərdoğanlardandır, kimdir, bilmirəm. O, elə şeylər yazıb ki, mən indiki Ərdoğanın çıxışında eynən həmin cümləri görürəm, 7-dən 70-ə, tələbəsindən müəlliminə qədər. Ərdoğanın dilində nə varsa, orda var. O nəsildəndir kimsə...

**- Belə demək olarmı ki, siz elə öz məqalənizlə ad gününüzdə özünüzü təbrik edibsiniz?**

- Hərə gərək özü-özünə bayram keçirə, ruhən, hər cəhətdən. Əgər hər millətin nümayəndəsi fərdi qaydada özü bayram edirsə, deməli, millət bayram eləyir. Adamları yığıb iclas keçirmək bayram deyil. Özü də o bayramı, o sevinci ruhunda yaşadırsan. Mən sənə deyim, vallah-billah Vətən sevgisi insan ömrünü uzadan birinci dərmandır.

**- (yarızarafat) Demək, uzunömürlüyün sirri məlum oldu...**

- Bəli. Ən böyük sirr budur ki, namuslu, qeyrətli olasan, millətə təmənnasız xidmət edəsən, heç kəsdən də heç nə gözləməyəsən. Abbas Səhhət “Hophopnamə”nin 1912-ci ildəki ilk nəşrinin müqəddiməsində Əbdülhəqq Hamidin sözlərini sitat gətirib ki, insanın öz vicdanından aldığı mükafatı heç bir padşah, heç bir sultan, heç bir prezident verə bilməz. Yazır ki, Sabir də öz zəhmətinin, millətə xidmətinin mükafatını heç kəsdən gözləmirdi, öz vicdanından alırdı.

“Yeni Müsavat” Media Qrupu olaraq dəyərli ağsaqqalımız Şirməmməd müəllimi ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, araşdırmalarında daha böyük uğurlar arzulayırıq.

❑ **Elşad PAŞASOY, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 265 (6878) 18 dekabr 2017

# “Vergilər naziri son illər çoxlu problem içindəydi”

## Fəzail Ağamalı: “Məmur vəzifədə olarkən vəzifədən gedəcəyi günü düşünməlidir”

**“Baxış bucağı”**

**Deputat, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı ilə uzun fasilədən sonra həmsöhbət olduq. Müalicəsi ilə əlaqədar bir neçə ay ərzində mediada az-az görünən partiya sədrindən əvvəlcə sağlıq durumu barədə soruşduq. Bildirdi ki, artıq əməliyyatdan sonrakı dövrdə aldığı müalicə də uğurla başa çatıb. Sözarası hər kəsi artıq çəkidən xilas olmağa səslədi və özünü nümunə gətirdi.**

Dediyinə görə, həkimlərin tövsiyəsinə əməl edib bəzi yeməklərdən imtina edəndən sonra 98 kiloqramdan 86 kiloqrama düşüb. “Köklük dəhşətdir, insan orqanizmini daha çox yükləyir və bu da ən müxtəlif problemlərə yol açır, xəstəliklər əmələ gətirir” deyə əlavə etdi. Biz də deputata “keçmiş olsun” söyləyib aktual mövzulara keçid elədik.

***- Fəzail bəy, Milli Məclisdəki sonuncu müzakirələrdə bir sıra həmkarlarınız deputatın mandatdan məhrum edilməsini nəzərdə tutan qanundan narahatlıqlarını ifadə etdilər. Amma adətən, nədənsə siz çıxışa yazılmadınız. Bunun səbəbi nə idi? Siz narahat deyilsiniz?***

- Mən fikirlərimi komitənin yığıncağında söyləmişdim. Əslində bu dəyişiklik konstitusiyaya etdiyimiz dəyişikliyin mahiyyətinə tamamilə uyğun idi. Təbii olaraq, konstitusiyaya edilən dəyişikliklər digər qanunvericilik aktlarında da dəyişiklikləri zəruri edir. Deputatın mandatdan məhrum edilməsində bir boşluq var idi və bu boşluğu aradan qaldırmaq üçün addım atıldı. Əslində bunun ətrafında geniş müzakirələr elə komitənin özündə oldu. Biz bu məsələnin MSK tərəfindən həllinin tərəfdarı kimi çıxış etmədik. Biz Milli Məclisə aid olan məsələnin Milli Məclisin səlahiyyətindən başlayaraq, sonrakı müvafiq qurumlarda bunun yekunlaşması və mandatdan məhrum edilənin hüquqlarının müdafiəsinə qədər detalları önə çəkdik. Nəhayət, uzun müzakirələrdən sonra komitənin sədri Əli Hüseynlinin müvafiq qurumlarla işçi qaydasında apardığı müzakirədən sonra nəhayət, deputatlar tərəfindən söylənilən və Milli Məclisə də səlahiyyət verən məqamlar nəzərə alındı və bu qanun qəbul edildi. Burada həm Milli Məclisin, həm seçki prosesinə məsul olan MSK-nın və təbii olaraq məhkəmədə bu məsələnin müzakirəsi, məhkəmənin hökmündən sonra mandatdan məhrumedilmənin qüvvəyə minməsi və Ali Məhkəmənin qərarından sonra həmin şəxsin Konstitusiya Məhkəməsinə müraciət etməsinə qədər məqamlar nəzərə alındı. Kifayət qədər demokratik, belə bir tale ilə üzləşə biləcək deputatın hüquqlarının sonadək müdafiə olunması baxımından bitkin bir səviyyəyə çatdırıldı. Kimin nə deməsindən asılı olmayaraq, hər halda bu dəyişiklik olmalı idi və o, Konstitusiyaya edilən dəyişikliyin mahiyyətinə və məzmununa tamamilə uyğundur.

***- Yəni daha deputatları hər hansı təhlükə gözləmir?***

- Nə üçün gözləmir? Deputatlar orada göstərildiyi kimi, əgər ciddi etika qaydalarını kobud şəkildə pozarsa, başqasının əvəzinə səs verib saxtakarlıqla qəbul edilmiş qanunun nəticələrinə təsir göstərə biləcək addımlar atarsa, bu, artıq ciddi məsuliyyətdir və o halda Milli Məclisdə məsələ müzakirə olunaraq müvafiq qərar qəbul edilir.

***- Keçmiş həmkarınız Hüseyn Abdullayevlə sizin aranızda baş verən hadisəni xatırladım. Hüseyn Abdullayev bir müddət əvvəl prezidentliyə iddiasını ortaya qoydu. Bu barədə nə deyə bilərsiniz?***

- Hüseyn Abdullayev azərbaycan vətəndaşıdırsa, Konstitusiya ilə onun seçmək və seçilmək hüququ var. Azərbaycanın demokratik ölkədir və istənilən vətəndaş öz namizədliyini seçkili orqanlara təqdim edə, sonrakı proseslərdə iştirakçı ola bilər. Amma Hüseyn Abdullayevin arzu-istəyinin reallaşması sadəcə olaraq mümkün deyil. Bunun ən mühüm səbəblərindən biri ondan ibarətdir ki, Hüseyn Abdullayev Azərbaycan cəmiyyətində nüfuz sahibi deyil. Hətta o, imzatoplama mərasimində tələb olunan rəqəm səviyyəsində imza toplayıb onu MSK-ya təqdim etmək gücündə deyil. Bu baxımdan Hüseyn Abdullayevin prezident seçkilərində iştirak etmək arzusunun reallaşması sadəcə olaraq fantastikadır. Yəni bu, Hüseyn Abdullayevin imici, onun cəmiyyətdə nüfuzu baxımından həyat keçirilməsi mümkün olmayan məsələdir. Ola bilsin xırda digər amillər də ola bilər. Hətta bunların üzərində dayanmadan belə, demək istərdim ki, Hüseyn Abdullayev bu gün müxalifətdəki qüvvələrin onu dəstəkləyə biləcəyinə inanır. Ancaq ayrı-ayrı saytlarda, qəzetlərdə, elə sizin qəzetdə də gedən yazılarda müxalifətin ona çox mənfi münasibət bəslədiyi birmənalı şəkildə özünü ifadə edir. Hüseyn Abdullayevin prezident seçkilərində hətta imza toplayıb, təsdiq olunub, iştirak etmək şansı belə yoxdur. Bu cür şansı olarsa belə, onun prezident seçilmək ehtimalı sıfıra bərabərdir.



**“Hüseyn Abdullayev Azərbaycan cəmiyyətində nüfuz sahibi deyil”**

***- Bəs, eks-spiker Rəsul Quliyevlə bağlı nə deyə bilərsiniz? Bu yaxınlarda kövrək notlarla dolu müsahibəsini, yəqin, oxudunuz. Azərbaycandan kənarda yaşadığı üçün seçkilərə qatılması real görünmür. Bəs, 70 yaşı tamam olan eks-spikerin Azərbaycana qayıdışı ilə bağlı humanist qərar verilə bilərmi?***

- Bilmirəm. Bu, mənim səlahiyyətimdə olan məsələ deyil, ona görə də cavab verməkdə çətinlik çəkirəm. Rəsul Quliyev əgər xaricdə yaşamağı Azərbaycanda yaşamaqdan üstün tutubsa və o, 20 ildən artıqdır ABŞ-da ömür sürürsə, bu baxımdan onun yenidən Azərbaycana gələrək, prezident seçkilərində iştirak etmək imkanı yoxdur. Azərbaycan qanunları, Konstitusiyası ilə bu şans ona verilmir. Çünki əgər Azərbaycan vətəndaşı 10 ildən yuxarı xaricdə yaşayarsa, onun prezident seçkilərində iştirak etmək hüququ yoxdur. Qaldı, onun Azərbaycana gəlib-gəlməməsi, əlbəttə, bu, Rəsul Quliyevdən və müvafiq rəsmi qurumların məsələyə münasibətindən asılıdır. Çünki onun haqqında cinayət işi də var və xitam verilməyib. Bütün bunların hamısı təbii ki, müvafiq qurumlar tərəfindən reallaşa bilər. Əgər Rəsul Quliyev bunu istəyirsə, danışıqlar apara, müvafiq qurumlarla məsələ müzakirə oluna bilər. Ondan sonra məsələyə aydınlıq gəlməsi mümkündür.

**“Rəsul Quliyev bunu istəyirsə, danışıqlar apara, müvafiq qurumlarla məsələ müzakirə oluna bilər”**

***- Rəsul Quliyevin hazırda da hakimiyyətdə dayaqlarının olması mümkündürmü?***

- Münasibətdə olduğu adamlar ola bilər, lakin onun dayaqlarının olmasını istisna edirəm. Ola bilsin ki, 90-cı illərin axırına qədər, hətta cənab prezidentimiz İlham Əliyev prezident seçilənə qədər o dayaqlar olub. 2003-cü ildən, İlham Əliyev prezident seçildikdən sonra cənab prezidentin zaman kəsiyində özünü güclü bir lider, dövlət xadimi kimi özünü təsdiq etməsi Rəsul Quliyevi bu dayaqlardan məncə, tamamilə məhrum etdi.

***- Deputat həmkarınız Zahid Oruc prezident seçkilərinin vaxtının dəyişdirilməsi təklifini verib. Siz bu təklifə necə yanaşırsınız?***

- Mən millət vəkillərinin irəli sürdüyü təkliflərə münasibət bildirməyi məqsədəuyğun saymıram. Prezident seçkilərinin parlament seçkiləri ilə bərabər, yaxud müxtəlif vaxtlarda keçirilməsi məsələsi bir millət vəkilinin təklifi ilə həll olunmur. Bu məsələ ciddi şəkildə ölçülüb-biçilməlidir, təhlil olunmaqlıdır, analiz aparılmalıdır, ondan sonra bu haqda qəti fikir bildirmək olar. Bu təklif digər millət vəkillərinin təklifləri kimi səsləndirilib və bu da millət vəkilinin hüququdur.

***- Fəzail bəy, sabiq vergilər naziri Fazil Məmmədov postundan uzaqlaşdırılandan sonra onunla bağlı davamlı məlumatlar yayılır, hətta adı sabiq MTN şefi ilə birgə hallandırılır. Siz bu barədə nə deyə bilərsiniz?***

- Mən də bu məlumatları KİV-dən alıram. Bütün bunların nə dərəcədə həqiqət olub-olmaması mənə bəlli deyil. Ola bilsin ki, bu yazılarda kifayət qədər həqiqət var, ola bilsin qərəz. Lakin mən düşünürəm ki, istənilən yüksək səviyyəli dövlət məmuru vəzifədə olarkən vəzifədən gedəcəyi günü düşünməlidir. Həmin şəxs vəzifədən gedəndən sonra rahat yaşamağı vəzifədə olduğu dövrdə təmin etməlidir. Kim bunu edirsə, o doğrudan da öz həyatının sonrakı illərini çox sakit şəkildə, ailəsi, ətrafı ilə bərabər yaşayır, həyatını davam etdirir. Kim əgər vəzifəsindən istifadə edərək qanunsuzluqlara yol verirsə, milyonları, milyardları yığıb sağa-sola xərcləyirsə, gələcək “qara gün”ü üçün o qədər pulun ona verəcəyi xoşbəxtlik haqqında düşünürsə, məncə, bu cür insanların aqibəti, taleyi çox faciəli olur. Heç zaman bu pullar birincisi, ona qismət olmur, ikincisi də təbii olaraq bu cür insanlar sonralar dövlətin müvafiq qurumları tərəfindən əldə olunan informasiyalara görə araşdırılır və müvafiq tədbirlər görülür, bütün bunlara hüquqi qiymət verilir.

***- Konkret halda vergilər naziri barədə nə demək olar?***

- Sizə deyim ki, vergilər naziri son illərdə kifayət qədər problem içindəydi. Son illər, demək olar ki, əvvəlki illərdən fərqli olaraq, vergilər faktiki olaraq sahibkarlığın inkişafına mane olurdu, sahibkarlığın inkişafında bir buxova çevrilmişdi. Tez-tez, hədsiz dərəcədə qanuna edilmiş dəyişikliklər, ələvələr sahibkarları çaş-baş salmışdı. Bir deputat kimi demək istərdim ki, bizim ən çox əlavələr və dəyişikliklər etdiyimiz Vergilər Məcəlləsinə əlavə və dəyişikliklərdir. Məncə, Mikayıl Cabbarova vergilərlə bağlı o qədər də yaxşı olan miras qalmayıb, onun üzərinə çox ciddi, ağır bir yük düşüb. Mən əminəm ki, Mikayıl Cabbarov bunun öhdəsindən gələcək. Necə ki, Təhsil Nazirliyində ciddi islahatlara başladı və biz bu islahatların konkret nəticələrini 3 ilə, 4 ilə, maksimum 5 ilə görəcəyik. Elə ən azı təhsil sistemində direktorların, müəllimlərin təyinatında rüşvətxorluq götürüldü, şəffaflıq təmin olundu, müəllimlərin kateqoriyaları müəyyənləşdi, pislə yaxşı müəyyənləşdikdən sonra onların maaşındakı fərq ortalığa qoyuldu və s. İndi mən inanıram ki, Mikayıl Cabbarov yeni düşüncə sahibi kimi vergi sistemində də ciddi, hər kəsin, xüsusilə sahibkarların düşündüyü kosmetik deyil, fundamental dəyişikliklərə nail olacaq. Çünki cəmiyyətin də, sahibkarların da Mikayıl Cabbarovdsan gözləntiləri budur.

***- Hakimiyyətyönümlü partiyanın sədri olaraq 2018-ci il prezident seçkiləri ilə bağlı gözləntiləriniz maraqlıdır. AVP-nin namizədi dəqiqləşibmi?***

- Mənə belə gəlir ki, növbəti prezident seçkiləri kifayət qədər siyasi fəallıq mühitində, demokratik şəraitdə keçəcək, 10 və ondan çox siyasətçi prezident kürsüsü uğrunda mübarizəyə qoşulmaq üçün öz istəyini ortaya qoyacaq, ən layiqli, güclü siyasətçi qalib gələcək. Mən qarşıdan gələn prezident seçkilərində favorit olaraq İlham Əliyevi görürəm. İlham Əliyev 2003-cü ildə prezident seçildikdən sonra həm ölkə daxilində, həm ölkə xaricində çox ciddi nüfuz qazanıb, 21-ci əsrin yüksək tələblərinə cavab verə biləcək dövlət xadimi kimi özünü təsdiq edib. Bunu Azərbaycanın dünya miqyasında tanıdılması və nüfuzunun artması xüsusi olaraq qeyd etmək istərdim ki, İlham Əliyevin 2003-cü ildən keçən zaman kəsiyində həyata keçirdiyi siyasət həm Azərbaycanı yüksək inkişaf mərhələsinə çıxarıb, Azərbaycan regionun lider dövləti statusunu qazanıb və bu gün bu statusu daşımaqdadır, həm də onun beynəlxalq səviyyədə nüfuzu, hörməti xeyli dərəcədə artıb ki, bununla bağlı kifayət qədər faktları və arqumentləri gətirə bilərik. Digər namizədlər də təbii ki, prosesə qoşulacaq. Lakin mən bütün namizədlərin üzərində İlham Əliyevin qələbə qazanağına qətiyyən şübhə etmirəm. Çünki İlham Əliyevin Azərbaycan cəmiyyətində böyük nüfuzu var. Ana Vətən Partiyası öz ənənəsinə sadiq olaraq, güclülərin ən güclüsünün seçilməsinin tərəfdarı kimi bir daha qarşıdan gələn növbəti illər üçün İlham Əliyevi prezident kimi görür və təbii ki, öz imkanları daxilində ölkəmizin daha da gücləndirilməsi üçün alternativi olmayan İlham Əliyevin seçkilərdə qalib gəlməsi üçün bütün imkanlarını və qüvvələrini səfərbərliyə alacaq və bu prosesdə fəal iştirak edəcək.

**Elşad PAŞASOY,**
**“Yeni Müsavat”**



# Toplananların və çıxılanların yeri

Zamin HACI
zaminhaci@gmail.com

**Bir ictimai yerdən keçirəm təsadüfən, yol yoldaşlarım söhbət edir:**

"- Keçmiş vergilər naziri Fazil Məmmədovun evinin tək bir aylıq işıq pulu 10 min manatdır.

Görəsən orda nə yandırırmış bu.

Əşşi, onsuz hamısını əvvəl-axır qusdururlar.

Ümumiyyətlə heç kim bu dünyadan özüylə bir metr ağ parçadan başqa nəsə aparmır".

Qərara gəlirəm, söhbətə müdaxilə edim: "- Bir metr? Kəfən üçün bu az deyilmi?". Həmsöhbətlər mənə laqeyd nəzərlə baxırlar, yəni biz nə hayda, sən nə hayda... Ancaq mən ciddi olaraq fikirləşirəm ki, görəsən kəfənin orta statistik ölçüsü neçə metr olmalıdır, bizim oliqarx, zəhmətkeşlərimizi yeyib enlənmiş məmur ordusuna kəfən biçmək üçün Saatlıda neçə hektar pambıq əkməliyik.

Şəhər əfsanələri ilə yaşamaq çox rahatdır. Onu qusdurdular, bunu vurdular, filankəsi yoldular, behmənkəsi asdılar... Həyatımızda isə dəyişən bir şey yoxdur. Vurulanın qabaq 5 milyardı vardısa, indi 2 milyardı qalıb. Nə olsun? Bundan sənə-mənə nə? Bəlkə hər quldur nazir vurulanda cibimizə kişmiş töküblər? Əksinə, il ildən pis gəlmişdir. Hələ bir gülməli arqumenti də ortalıqda fırladırlar: "Odur ey, Ziyanın oğlu Azərbaycana gələ bilmir". Guya Azərbaycana gəlmək on(lar)a çox vacib imiş. Camaat təyyarənin yük yerində, qatarın altında, gəminin lövbərində, nə bilim, Trampın lotoreyasında buradan qaçmağa fürsət axtarır, sən isə keçmiş nazirin oliqarx oğlunun xaricdə qalmasıyla təskinlik tapırsan.

"Ətrafı, qohum-əqrəbası səksəkə içindədir, icra başçıları gecə yatmır". Bah. Ona görə Xaləddin müəllim Binəqədidə artıq asfalt yolların içini də dükan-bazar tikənlərə satır? Səkiləri satıb qurtarıb, indi növbədə yollardır. Gecə-gündüz satır. Rəhmətlik Lalə xanım yadıma düşdü... Eh, əcəb adamlar gördük, qədrini bilmədik - hərəsi bir kitablıq, dastanlıq adamlar idilər. Hələ bir Xanış kişi vardı, qəfil xatırladım. Görəsən onun 2 arvadı və 22 uşağı indi nə işlə məşğuldur? Yoxsa onlar da səksəkə içindədir?

Bir məsələ də maraqlıdır ki, görəsən bu məmurların bəd əməlləri niyə ancaq onlar vurulandan sonra üzə çıxır. Fərman oxunana qədər mələk sayılırlar, fərman oxunan kimi ən qəddar cinayətkar bunların yanında hörmətli olur. Elə bil heç kim dünənə qədər bu eyibləri görmürmüş. Bir fərmanla hamının - millətin, medianın, hakimiyyətin gözü açılır. Halbuki, hamı cinayətləri görüb susurdu. Hətta nazir vurulanda da "çox da şey eləmək" məsləhət deyil, nə biləsən, bəlkə onu qəfil bağışladılar, keçmiş xidmətləri, oğlunun kimin qızını alması, özünün haçansa hansı qələti eləməsi-filan nəzərə alındı, təzədən qaytarıb nazir qoydular? Bunun üçün təzə nazirlik də icad eləmək olar - xeyirxah məqsədlər, barışdırıcı missiya üçün. Hamımız azərbaycanlıyıq, bəzilərimiz isə daha çox azərbaycanlıyıq!

Bu yaxında bir lotu türmədən buraxıldı, getdi Türkiyəyə. Deyirdilər bu lotunun adamları vaxtilə başqa ümummilli lotularımızdan birini qətlə yetiribdir. Nəsə qəliz söhbətdir, oğru aləminə bələd olmadığımız üçün çox uzatmayaq. Bax həmin türmədən çıxan lotumuzun ardıyca bir dəstə killer yollanmışdı. Onlara isə öldürülən lotunun qardaşı başçılıq edirmiş. Ancaq qardaşı İstanbulda polis tutdu. Belə baxanda adi kriminaldır, gündə o qədər belə qan davası cəhdləri olur ki. Sadəcə, bu tutulan qardaş polkovnik rütbəsində, özü də yetərincə məsul obyektdə çalışırdı. Keçən ay qardaş işdən çıxarılıb. Guya bir "vorzakon"un qardaşının o cür vəzifə daşımasını indiyə qədər bilmirdilər? Dəli şeytan deyir ki, qardaşının qisasını ala bilsəymiş bəlkə hələ də işləyirdi. Müxalifətçi deyil ki, bütün qohumlarını işsiz, ac qoyasan, türməyə salasan. Vorzakon qardaşı hörmətli vəzifədir.

Vaqif Bayatlının bir şeirində qardaş teması yaxşı işlənmişdir: "Qardaşımın üzü köməyim olsun".

# İstanbul zirvəsindən dünyaya 2018 ismarışı

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın şəxsi təşəbbüsü ilə İstanbulda reallaşan İslam Əməkdaşlıq Təşkilatı (İƏT) ölkələrinin fövqəladə toplantısı qardaş ölkənin regional supergüc olaraq mövqeyinin daha da möhkəmlənməsi, nüfuzunun artması ilə yadda qaldı. Azərbaycan da daxil, türk toplumunun malik olduğu böyük potensialı göstərdi, Türkiyə və Azərbaycanın İslam dünyası üçün etibarlı lokomotiv missiyasını ortaya çıxardı.**




## "Bu oyunu biz pozduq..." - Bakı və Ankaranın ortaq mesajı

### Ərdoğanın ev sahibliyi etdiyi islam sammiti Türkiyə və Azərbaycan üçün kritik hədəf cızdı; məkrli planlar de-şifrə olunur; ərəb şeyxlərinin Ermənistanda peyda olması təsadüfmü? Bakı üçün də mühüm gəlişmə...

Türkiyə güclənirsə, sözsüz ki, Azərbaycanın da gücünə güc qatılır. Təsadüfi deyil ki, İstanbul zirvəsi və orada nümayiş etdirilən ortaq siyasi iradə öncəliklə türk düşmənlərini əməllicə pəjmürdə və narahat elədi, dost-müttəfiqləri isə təbii ki, sevindirdi. Eyni zamanda müsəlman toplumun maraqlarını ciddiyə almayan, yaxud kor-koranə bəzi Qərb dairələrinin havasına oynayan antitürk çevrələri nişan verdi.

Bu xüsusda prezident Rəcəb Tayyib Ərdoğanın aşağıdakı sözləri diqqət çəkir. Sitat: "15 ildir Türkiyəni böyük, güclü, məzlumların, günahsızların ümid qapısı, güvən qaynağı olan bir ölkə kimi gücləndirməkdəyik. Türk milləti olaraq hələ dünyaya son sözümüzü söyləmədik. Hər şeyin zamanı olduğu kimi, bu böyük günün də zamanı var. Müsəlmanların gələcəyini yaxından maraqlandıran oyunu biz pozduq. Əgər bu gün daxildən, xaricdən davamlı hücumlara məruz qalırıqsa, böhtanlara tuş gəliriksə, davamıza və onun uğuruna canımıza qəsd edilirsə, səbəbi bu mübarizələrdən vaz keçməməyimizdir".

Gerçəkdən də, böyük Yaxın Şərq oyununun əsas hədəfi "ipə-sapa yatmayan" Türkiyə və onun müttəfiqləridir. Bunu bir sıra Qərb siyasiləri heç gizlətmirlər də.

*****

"Türkiyə regionun stabil ölkəsinə və doğan ulduzuna çevrilib. Təkcə 2017-ci ilin üçüncü rübündə ölkənin iqtisadiyyatı 11% artıb. İlin sonu üçünsə bu göstərici 7,5% ola bilər. Türkiyə bəzi Qərb dairələrinin bütün əngəllərinə rəğmən, inkişaf eləməkdədir. Dünya şokda, Türkiyənin rəqibləri isə kədər içindədir. Onlar Türkiyəni dayandırmaq üçün hər şeyi sınaqdan çıxardılar".

"Yeni Müsavat" xəbər verir ki, bu sitat "Sabah" qəzetinin ingilis versiyasındakı məqaləsindəndir. Məqalədə daha sonra deyilir: "Onlar istəmirlər ki, Türkiyə regionda öz maraqlarını qorumaq bacarığına malik iqtisadi, hərbi və siyasi cəhətcə aparıcı derjava olsun. Onlar Suriyada PKK-ya bağlı təşkilatlara kömək göstərməklə də Türkiyəni dayandırmağa, Türkiyə iqtisadiyyatına ziyan vurmağa çalışdılar. Lakin bütün bunlar fiasko oldu... Amerika sorğusu göstərdi ki, Ərdoğan Yaxın Şərqdə ən populyar liderdir. Bu, ona görə baş verdi ki, Ərdoğan Yaxın Şərq əhalisinin qayğısını çəkir, onu fələstinlilərin ağır vəziyyəti narahat edir. Ancaq bütün bunların fonunda ərəb liderlərinin əksəriyyəti Qüdsün İsrailin paytaxtı elan edilməsinə laqeyd yanaşdılar. İstanbulda islam liderlərinin sammiti ərəb liderlərinin Qüds və Fələstin xalqı ilə bağlı situasiyadan nə dərəcədə narahat olduqlarını nümayiş etdirdi".

*****

Qeyd edək ki, İstanbul sammitində Səudiyyə Ərəbistanı, Misir və bəzi digər ərəb ölkələri öz liderləri səviyyəsində iştirak etməyib. Siyasi təhlilçilərin bununla bağlı şərhləri maraqlıdır.

"Ərdoğanın İstanbul sammitində daha genişmiqyaslı proseslərə start verməyi hədəfləyən siyasəti ərəb ölkələrinin böyük qısqanclığına səbəb olub". Bu sözləri Axar.az açıqlamasında politoloq İlqar Vəlizadə deyib. Ekspert hazırda Qüds istiqamətində iki cəbhənin açıldığını bildirib.

"İstanbul sammitindən öncə Ərəb Ölkələri Liqasının xarici işlər nazirlərinin toplantısı baş tutdu. Burada dominantlıq təşkil edən Səudiyyə Ərəbistan, Misir və digər ərəb ölkələri idi ki, gündəliyi də məhz onlar tərtib etmişdilər. Fikir verin, Türkiyənin təşəbbüsü ilə baş tutan İstanbul zirvəsində sözügedən ölkələr bir o qədər fəal iştirak etmədilər. Çünki bu ölkələr məhz Ərəb Ölkələri Liqası çərçivəsində güclərini birləşdirməyə üstünlük verirlər. Türkiyənin təşəbbüsü ilə baş tutan İƏT zirvə görüşü isə panərəb yox, panislam xarakteri daşıyırdı", - deyə ekspert qeyd edib.

*****

Maraqlıdır ki, bu arada, yəni məhz İstanbul zirvəsindən sonra bəzi ərəb şeyxləri və övladları İrəvanda peyda olublar. Bu barədə informasiyanı "Qraparak" erməni qəzeti yayıb. Bildirilir ki, İrəvana gələnlər arasında Birləşmiş Ərəb Əmirliyinin Əbu Dabi Əmirliyinin şahzadəsi Mənsur ibn Zeyd əl-Nahyanın da olduğu bildirilir. Onların İrəvana 3 gün öncə gəldiyi və erməni iş adamı Qagik Çarukyanın qonaqları olduğu vurğulanıb.

"Qraparak" görüşdə əsas məqsədin ərəb investisiyasının Ermənistana cəlb edilməsi olduğu deyilir. Ancaq bu, asan məsələ deyil. Əks halda, qonşu İran çoxdan bu yöndə ciddi uğurlara nail olardı. Di gəl, Ermənistana bütünlüklə nəzarət edən Rusiya faktoru, Ermənistanın Azərbaycanla müharibə vəziyyətində olması, Qarabağ konfliktinin həll olunmamış qalması, bunun nəticəsi kimi, Ermənistanın blokada şəraitində olması və dünya okeanına çıxışının olmaması işğalçı ölkəyə böyük xarici sərmayə yatırımını mümkünsüz edir. Hərgah, erməni rəsmiləri ərəb ölkələrinə intensiv səfərlər eləməklə vəziyyətdən və blokada şəraitindən çıxmağa çalışırlar.

Yeri gəlmişkən, İrəvanda iqtisadi durum başa çatmaqda olan 2017-ci ildə daha acınacaqlı olub, ölkədən kapital axını sürətlənib. Üstəlik, parlament xarici borc üçün müəyyən etdiyi kritik hədd baryerini artırmaq məcburiyyətində qalıb. Beləliklə, investisiya tapmayan Ermənistan gələn il borclanmanı artırmağa hazırlaşır. Yanvardan isə Ermənistanda, Dağlıq Qarabağda böyük bahalaşma dalğası gözlənilir: 800-ə yaxın mühüm tələbat malının qiymətinin, həmçinin, benzinin qiymətinin qalxması gözlənilir.

Yəni, ərəb şeyxlərinin İrəvan səfəri müəyyən mənada Azərbaycan üçün narahatlıq doğursa da, əslində ciddi təlaşa əsas yoxdur. Müəyyən qədər rahatsızlıq yaradan Qüds ətrafındakı olaylardan dolayı Azərbaycanın strateji müttəfiqi Türkiyə ilə strateji tərəfdaşımız İsraili arasında münasibətlərin gərginləşməsi, Bakının müəyyən seçim qarşısına gəlməsidir. Fəqət, "küncə sıxılmış" İsrailin də bundan sonra Azərbaycana ehtiyacının artacağını söyləmək olar.

*****

"Ayrıca maraq kəsb edən istiqamət Türkiyənin Qüdslə bağlı sərt mövqeyi və Putinlə Ərdoğanın Ankaradakı bəyanatıdır. Belə olan halda Ankaranın yaxın müttəfiqi Bakı çətin ki, ümumi bəyanatlardan kənarda qalsın". Bu sözlər rusiyalı politoloq Qriqori Trofimçuka məxsusdur.

Onun fikrincə, Bakı Təl-Əvivlə yaxın münasibətləri saxlamaqdan ötrü çox çalışmalı olacaq. "Aydın olan bir şey var. Yaxın Şərqdə vəziyyət çətinləşir və daha ciddi fazaya daxil olur. Bu prosesin iştirakçıları bundan sonrakı dönəmdə necə hərəkət edəcəklərinə qərar verməlidirlər. Ağ Evin Qüds gedişi çox şeydən xəbər verir. Bu gedişi Donald Trampın qəribəliyinə bağlamaq olmaz. Çox şey hələ təzə başlayır. Daha etibarlı sülh prosesi üçün Rusiya və Türkiyə Suriyadan ABŞ-ı qovmalı olacaq", - deyə o əlavə edib.

Çevrəmizdə, bölgədə vəziyyət gerçəkdən də, daha ciddi fazaya daxil olub, çox şey təzəcə başlayır. Deməli, Azərbaycan üçün də 2018 - yeni çağırışlar ili olacaq - həm Qarabağ (Ermənistan) alanında, həm də qardaş Türkiyə və İsraillə əlaqələr baxımından. Gələn il dost-müttəfiqləri qorumaq zərurəti yəqin ki, artacaq. Bir şeyi dəqiqdir ki, Bakı və Ankara Ərdoğanın təbirincə desək, bu il də əleyhimizə olan böyük oyunu sinxron siyasət sayəsində poza bilib. Amma məkrli oyunlar hələ bitməyib...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

**Ərəb şeyxləri son zamanlar Ermənistana ayaq açmağa başlayıblar. Erməni mediasının yazdığına görə, Ermənistana sərmayə cəlb etmək üçün ermənilər ərəb şeyxləri ilə müxtəlif istiqamətlərdə iş aparırlar. Məsələn, Ermənistanda dərc olunan "Hraparak" qəzeti yazır ki, artıq 3 gündür ərəb şeyxləri oğulları ilə birlikdə Qagik Tsarukyanın qonağıdırlar.**



# Ərəb şeyxləri Ermənistanda nə axtarır?

## **Sabiq maliyyə naziri:** "Onlar Ermənistana ov etmək üçün gedə bilərlər, amma investisiya yatırmaları inandırıcı deyil, çünki..."

Q.Tsarukyan Ermənistanın ən güclü oliqarxlarından biridir. Virtualaz.org mənbəyə istinadən xəbər verir ki, Ermənistana gələn ərəb qonaqlar arasında Birləşmiş Ərəb Əmirliklərinin ən nüfuzlu şəxslərindən biri sayılan Əbu Dabi şahzadəsi şeyx Zeyd əl-Nahayanın böyük oğlu da var. Mənbə onu da qeyd edir ki, səfər dostluq xarakteri daşıyır - ərəblər Ermənistanla tanış olmaq, görməli yerlərini gəzmək üçün gəliblər. Qəzetin əldə etdiyi məlumata əsasən, "özəl səfər" həmçinin investisiya məqsədi güdür. Lakin bu barədə hələlik danışılmır.

Bəs iqtisadiyyatı ağır durumda olan kasıb Ermənistan ərəb şeyxləri üçün cəlbedici ola bilərmi? Olarsa nəyinə görə? İşğalçı ölkəyə ərəb sərmayəsinin qoyulması mümkünmü? Ərəb ölkələri içərisində söz sahibi sayılan Səudiyyə Ərəbistanı Azərbaycan ərazilərini işğal edən Ermənistanla heç bir siyasi, iqtisadi əlaqələr qurmayan ölkədir. Bu amil ermənilərin ərəb sərmayəsini ölkəyə cəlb etməsinin qarşısını ala bilərmi?

Sabiq maliyyə naziri, iqtisadçı professor Fikrət Yusifov "Yeni Müsavat"a bildirdi ki, bəzi ərəb şeyxlərinin Ermənistana səfər etməsi Birləşmiş Ərəb Əmirliklərinin və Səudiyyə Ərəbistanının Ermənistanla münasibətlərin yaxşılaşdırılması istiqamətində səylərinin artırılması anlamına gəlməməlidir: "Bir neçə ərəb şeyxinin Ermənistana gəlişi sadəcə, turistik səfər sayıla bilər. Bu səfərdə iqtimaiyyət üçün açıqlanmayan sırf şəxsi məqamlar da ola bilər. Bütün hallarda Səudiyyə Ərəbistanının bu günə qədər Ermənistanla heç bir siyasi və iqtisadi əlaqə qurmaması, iki dövlət arasındakı münasibətlərin hansı səviyyədə olmasının göstəricisidir. Ermənilər ərəblərin bir şəxsin dəvəti ilə bu ölkəyə gəlməsini bu qədər şişirdib az qala, bunu iki ölkə arasında qardaşlıq münasibətlərinin təməlinin qoyulması kimi qələmə verməyə çalışırlar. Görünür, bir neçə ərəbin hansısa bir erməni iş adamının dəvəti ilə Ermənistana səfərini bu qədər şişirtmək indiki dönəmdə ermənilərə çox lazımdır. Bu şəkildə aparılan təbliğat erməni xislətinə tam uyğundur.

Unutmayaq ki, Səudiyyə Ərəbistanı müstəqilliyimizi dəstəkləyən ilk ölkələrdən biri olmaqla yanaşı, bu illər ərzində bütün beynəlxalq tədbirlərdə Azərbaycanın torpaqlarının Ermənistan tərəfindən işğalına qarşı səsini qaldırmış və bu məsələdə bir qayda olaraq bizim haqq işimizi dəstəkləmişdir. Birləşmiş Ərəb Əmirliklərinin də Azərbaycanla ciddi siyasi, iqtisadi əlaqələri var və onların da Ermənistanla münasibətləri ermənilərin xeyirinə sayılacaq səviyyədə deyil. Bir neçə ərəbin şəxsi dəvətlə Ermənistana gəlməsi çox adi bir məsələdir. Geniş maliyyə imkanlarına malik ərəblər hər hansı bir şəxsi münasibətlərin olmasından istifadə edərək bu ölkə ilə tanış olmaq istəyində bulunublar. İnanmıram ki, Ərəblər iqtisadiyyatı Rusiyadan tam asılı bir vəziyyətdə olan, heç bir enerji resursları olmayan və Azərbaycanla müharibə vəziyyətində olan bir ölkəyə investisiya yatırmaq barəsində düşünsünlər. Onlar bir çoxlarının düşündüyü qədər də sadəlövh deyillər. Ən yaxşı halda onlar Ermənistana ov etmək üçün gedə bilərlər, ancaq ora investisiya yatırmaları heç inandırıcı görünmür".

F.Yusifov qeyd etdi ki, Birləşmiş Ərəb Əmirlikləri ilk dövlətlərdən biri olaraq 1991-ci ilin 26 dekabr tarixində Azərbaycan Respublikasının müstəqilliyini tanıyıb. Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında diplomatik əlaqələr 1992-ci ilin 1 sentyabr tarixindən qurulub. İndiyə qədər Azərbaycan və BƏƏ arasında müxtəlif əməkdaşlıq sahələrini əhatə edən 21 sənəd imzalanıb. Bunlara Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq haqqında Saziş, Gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiya, İnvestisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş, Ali təhsil sahəsində əməkdaşlıq haqqında Saziş, mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş, səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş, Azərbaycanda İxracın və Sərmayələrin Təşviqi Fondu ilə Birləşmiş Ərəb Əmirliklərinin Federal Ticarət və Sənaye Palatası arasında Azərbaycan-BƏƏ Biznes Şuranın yaradılması haqqında Anlaşma Memorandumu daxildir.

❑ **Etibar SEYİDAĞA**



## NATO Rusiya təhlükəsinə qarşı qüvvələri üçqat artırdı

**NATO Baş katibi Yens Stoltenberq alyansın çevik reaksiya qüvvələrini son üç il ərzində üç dəfə artırdıqlarını bəyan edib.**

Virtualaz.org xəbər verir ki, Stoltenberq bu barədə "Journal du Dimanche" nəşrinə müsahibəsində deyib.

"2014-cü ildə Ukraynada başlayan böhrandan sonra alyans son illərin ən ciddi hərbi mobilizasiyasını həyata keçirdi. Biz NATO-nun çevik reaksiya qüvvələrini üç dəfə-40 min nəfərə qədər artırdıq. Onlardan 5 mini bir neçə gün ərzində döyüşə hazırlıq vəziyyətinə gətirilə və mümkün hərbi əməliyyatlar zonasına göndərilə bilər"-Stoltenberq dəqiqləşdirib.

Baş katibin sözlərinə görə, NATO təlimlərin də sayını artırıb, Baltik regionunun hava məkanında patrul uçuşlarını intensivləşdirib.

Stoltenberq əlavə edib ki, alyans üçün kiberhücum ciddi təhlükə kəsb edir və bununla əlaqədar kiberməkanı hərbi məsuliyyət zonası elan etmək qərara alınıb. "Bu isə o deməkdir ki, ciddi kiberhücum NATO-nun kollektiv müdafiə barədə 5-ci bəndinin işə düşməsinə gətirib çıxara bilər"-Baş katib deyib.

Stoltenberq bütün bu tədbirləri, o cümlədən NATO-nun iki komanda məntəqəsinin yaradılmasını Rusiyanın aqressiv hərəkətləri ilə izah edib.

# Türkiyə üçün Qarabağdakı təhlükə - PKK



**Elşad PAŞASOY**
epashasoy@yahoo.com

**Ermənistanın bu gün çəkindiyi əsas məsələ Türkiyənin Qarabağ məsələsinə müdaxiləsidir. Təsadüfi deyil ki, son aylarda Ankaranın işğal altındakı Azərbaycan ərazilərinə diqqətini artırması İrəvanda narahatlığa səbəb olub. Əks təqdirdə Ermənistan hakimiyyəti Türkiyəni Sürix protokollarının ləğvi ilə təhdid etməzdi.**

Diqqət edin, əslində 2009-cu ilin payızında Sürixdə imzalanmış bu protokollar Ermənistanın xilasına hesablanmışdı. Azərbaycanın etirazları və Türkiyədəki bacı-qardaşlarımızın sərt təpkisindən sonra bu sənədlər arxivə atıldı. Ancaq heç bir təpki olmasaydı, Ankara ilə İrəvan arasında futbol diplomatiyasından sonra başlayan gediş-gəlişlər davam etdirilsəydi, işğalçı ölkə İran nəfəsliyinin ardınca daha böyük imkanlar qazanacaqdılar. Lakin bu, baş vermədi. Çünki Ermənistanın elə bu vəziyyətdə, yarı-boğulu halda, çapalaya-çapalaya qalması elə erməni diasporunun, Ermənistan hakimiyyətinin özünə lazımdır.

Məsələ sadədir, erməni diasporunun strateji məqsədləri Türkiyədən ərazi qoparmaqdır, onunla normal münasibətlər yaratmaq yox. Əslində erməni diasporu özü də 1915-ci ildəki kimi böyük güclərin əlində "maşa" rolunu oynayır. Odur ki, gələn ilin martında Sürix protokollarının Ermənistanda tamamilə ləğvi barədə qərarla Türkiyənin hədələnməsi absurddur. Yoxsa səfil gündə yaşadıqları halda Türkiyəyə "yox" deməzdilər.

Prezident Ərdoğan bir neçə dəfə xatırladıb ki, Türkiyədə işləyən 70 mindən artıq ermənini ölkədən qova bilərlər, amma bunu etmirlər. Ancaq ifrat humanizmin təhlükəli olduğu da bəllidir. Qardaş ölkə gərək unutmasın ki, Ermənistanın Konstitusiyasında Türkiyəyə qarşı ərazi iddiası əksini tapıb, üstəlik, bu ölkənin gerbində Türkiyəyə məxsus Ağrı dağı ("Ararat") yer alır. Serj Sərkisyanın "Qarabağı biz aldıq, Ağrını gələcək nəsillərə saxladıq" sözlərini gərək nə Türkiyədə, nə də Azərbaycanda kimsə unutmasın.

Böyük güclərin əlində oyuncaq olan Ermənistan Qarabağla kifayətlənmək niyyətində deyil ki. Beynəlxalq təşkilatlar da "sülh danışıqları" nağılı ilə illəri uzadır. Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşündən sonra ABŞ-dan reaksiya gəldi ki, "biz bu görüşü alqışlayırıq". Nazirlərin şəkil çəkdirməyinə alqış deyən ABŞ, Rusiya, Fransa 2 uşaq atası olan hərbçimizin Qarabağdakı erməni terrorçuları tərəfindən qətlə yetirilməsinə heç bir reaksiya vermədilər! Bu, sübut edir ki, dünya bizi təslimçi sülhə vadar etmək istəyir. Yəni reallıqla barışın, Qarabağı unudun, getsin!

Azərbaycan XİN başçısı deyib ki, qarşıda bizi kritik ay gözləyir. Nələri nəzərdə tutur, demək çətindir. Amma Ermənistanın bu yolla islah olunmayacağını artıq hər kəs anlayır.

Türkiyənin Naxçıvanın təhlükəsizliyinə qarant olması erməniləri çox narahat edir. İşğalçılar bu mənada Türkiyə-Rusiya münasibətlərinin yaxşılaşmasını da istəmirlər, düşünürlər ki, birdən Kreml Ankaraya Ermənistanı cəzalandırmaq fürsətini tanıyar. Xüsusilə də Ermənistanın Avropa İttifaqı ilə saziş imzalamasından sonra bu narahatlıq ermənilərin yuxusunu qaçırıb. Ona görə də vurnuxurlar.

Üstəlik, Ermənistanda hakimiyyət uğrunda gizli savaş gedir. Azərbaycan yaranmış fürsətdən maksimum istifadə etməlidir. Son zamanlar Türkiyə ilə hərbi əməkdaşlığı yüksək səviyyədədir. Lakin bu əməkdaşlığın daha da irəli aparılması lazımdır. Hər birimiz anlayırıq ki, biz Şuşaya yalnız ordumuzun qələbəsi sayəsində qayıda bilərik. "Arxalı köpək" rolunu oynayan işğalçının hərbi blokunun qarşısında isə Türkiyə-Azərbaycan birgə ordusunun dayanması yeganə çıxış yoludur. Düşmənin Naxçıvanla bağlı narahatlığı da bunun əsas çıxış yolu olduğunu isbatlayır.

Ermənilərə 1918-ci ili, Türkiyə-Azərbaycan hərbi qüvvələrinin Qarabağa birgə hücumunu xatırlatmaq lazım gələcək. Qubadlıda terrorçulara düşərgə salan Ermənistanla danışıqlarda vaxt itirməyin mənası yoxdur. Fakt budur ki, Qarabağ PKK-çılar üçün "təhlükəsiz bölgə"yə, təlim mərkəzinə çevrilib. Bir gün bu düşərgədəki PKK-çılar ermənilərlə birgə Ağrı uğrunda savaşa başlaya bilər. Terrorçuları beşiyindəcə boğmaq üçün qardaş Türkiyə Azərbaycanla birgə hərəkətə keçməlidir. Artıq bəyanatlar zamanı arxada qaldı.

Qüds olayı sübut etdi ki, Qarabağ məsələsində artıq gecikməməliyik. Uşaq qatilləri ilə danışıqlara "alqış" deyən güclərdən hər şey gözləmək olar...

# Dəm qazı can almaqda davam edir - səhlənkarlıq, yoxsa...

## **Ekspert:** “Bunlara diqqət edin ki, həyatda qalasınız...”

**Havalar soyuduqca dəm qazından zəhərlənmə halları da çoxalır. Yayda dənizdə boğulma halları çox olursa, qışda da dəm qazı can alır, faciələr yaşanır. Son dəhşətli hadisə dekabrın 12-də baş verib. Belə ki, Hacıqabulda 33 yaşlı Ləman Əliyeva yaşadığı evin hamamında 3 yaşlı qızı və 2 yaşlı oğlu ilə birgə dəm qazından boğularaq ölüblər.**



Ötən illərdə də vəziyyət eyni idi. Hər dəfə müvafiq qurumlar, ekspertlər SOS təbili çalsa da, dəm qazı faciəsinin qarşısını almaq mümkün olmur. Vətəndaşlar bir çox hallarda verilən qazın tərkibindən şikayətlənirlər. Ancaq “Azəriqaz” İstehsalat Birliyi bu fikirləri doğru saymır. Belə ki, qurumun mətbuat xidmətindən bildirilir ki, verilən təbii qazın tərkibi stantartlara uyğundur.

Ekspertlərə görə, zəhərlənmələrin qarşısını almaq üçün insanlar arasında maariflənmə işinin aparılması da olduqca vacibdir. “Azəriqaz” və Fövqəladə Hallar Nazirliyi tərəfindən bu kimi işlər aparılır. Ümumilikdə isə dəm qazından zəhərlənmənin bir sıra səbəbləri var ki, onlardan bəzilərini qeyd edək:

- suyu qazla qızdırılan duş və vanna otaqlarında nəfəsliklərin olmaması (duş qəbul edən şəxsi nəzarətdə saxlamaq və tez-tez maraqlanmaq vacib şərtdir);
- soba ilə qızdırıcı sistemlərdə texniki təhlükəsizlik qaydalarının pozulması;
- standarta uyğun olmayan və kustar yolla hazırlanmış qızdırıcı cihazlardan istifadə edilməsi;
- sobanın qapağının vaxtında bağlanmaması;
- yanacağa yanma üçün lazımı miqdarda havanın daxil olmaması;
- tüstü çıxarıcı boruların və tüstü bacasının yaxşı işləməməsi;
- sobanın və tüstü çəkən bacanın nasaz vəziyyətdə olması;
- sobada və borularda çatların və nasazlıqların olması;
- insanların yanğın ocaqlarında olmaları;
- qarajda avtomobilin işlək vəziyyətdə olması.

Ekspert Nüsrət Qasımov bildirdi ki, maarifləndirməyə rəğmən bu kimi hadisələrin sayı kifayət qədər çoxdur: “Bədbəxt hadisələrin 99 faizi hamamda baş verir. Bunun da əsas səbəbi odur ki, kim harada və necə gəldi qaz cihazı quraşdırır. Eyni zamanda 30-40 ildir ki, tüstü bacalarını təmizlətməyənlər var. Əvvəllər Yanğından Mühafizə idarəsində könüllü cəmiyyət vardı ki, onlar tüstü bacalarını dəyişib, ildə də iki dəfə yoxlayırdılar. Əslində su qızdırıcılarının ildə 2 dəfə tüstü bacası yoxlanmalıdır. Qızdırıcı cihazlarında isə qış mövsümündən öncə olmaqla ildə bir dəfə yoxlama aparılmalıdır. Bu tüstü bacalarında arı da pətək qura bilər, siçovul, quş da ölüb qala bilər. Ona görə də tüstü bacasının yoxlanması əsas şərtdir. Ancaq məsələ bundadır ki, ev sahibinin də üz tutası qurum yoxdur. Cəmi bir qurum var ki, onlar da tüstü bacasını 800 manata təmizləyirlər. 1 kubmetr metan qazı yanan zaman 9 kubmetr hava lazım olur. Bu hava çatmayanda və ya çox olanda yanma prosesi pozulur. Bu zaman da karbon 4 oksid əvəzinə, karbon 2 oksid ayrılır və 7 dəqiqə ilə 30 dəqiqə arasında o mühitdə nəfəs alan insan zəhərlənir. Ona görə də tüstü, boru ilə xaricə ötürülməli və bu boru da damdan 50 sm hündürə qalxmalıdır. Çox təəssüf ki, heç bunu da bilən yoxdur. Kim necə bacardısa, elə də düzəldir və fərqli diametrlərdə boru qoyurlar. Onda da tüstünün yarısı içəri vurur”.

Ekspert bildirdi ki, hamamxananın da ölçüləri standarta uyğun olmalıdır: “Hamamın həcmi 7.5 kubmetr olmalıdır. Hündürlüyü 2.20 sm, qapısı da bayıra açılmalı və aşağısında deşiklər olmalıdır. Səbəb də xaricdən havanın daxil olaraq, yanma prosesinə kömək etməsidir. Havalandırma elə işləməlidir ki, 1 saatda 3 dəfə içərinin havası dəyişsin. Heç kim bu normativlərə fikir vermir. Özbaşınalıq, səhlənkarlıq isə ölümlərə səbəb olur. Bəziləri deyir ki, qazımız zəhərlidir. Yaxşı bu qaza zəhəri kim qatıb? Bütün dünya üzrə qəbul olunub ki, ən təmiz qaz Azərbaycanda çıxarılır. Bu qaz zəhərli olsa Avropa ölkələri niyə bunu alır? Qazın tərkibində problem yoxdur. Bunlar cəfəngiyatdır. Qazla məşğul olan ustaların da lisenziyası olmalıdır ki, bu da yoxdur. İnsanlar elə tanış, qohum kim əlində açar tuta bilirsə, çağırıb qaz cihazlarını quraşdırırlar. Gecə yatan zaman da qızdırıcını mütləq söndürmək lazımdır. Soyuğun qorxusundan qaz cihazını yanılı qoymaq qəti şəkildə qadağandır. Qazı yandırma qaydasına diqqət etmək lazımdır. Öncə odu gətirmək lazımdır, sonra qazı açmaq gərəkdir. Elementar qayda-qanuna fikir vermək lazımdır. Rezin, plastik borularla qaz çəkmək olmaz. Havalandırma sisteminə də diqqət etmək lazımdır. Dəm qazının iyi var. Bu, sarımsaq iyinə oxşayır. Həmçinin, dəm qazı gözü də acışdırır. Bunlara diqqət etmək lazımdır ki, həyatda qalasınız”.

**❑ Əli RAİS,**
**❑ “Yeni Müsavat”**

---

# “Leş ət” mafiyası yenidən iş başında - yeni ilginc faktlar

## **Eyyub Hüseynov:** “Leş əti gətirəni cərimələyirlər, amma həmin ətin sifarişçisi cəzasız qalır...”

**“Leş ət” mafiyasının Bakının bazar və dükanlarında piştaxtalara murdar ət tədarük etməsi yeni söhbət deyil. İllərdir ki, ölkənin dörd bir tərəfindən murdar ətlər paytaxta daşınır, konkret ünvanlarda qablaşdırılaraq, satışa hazır vəziyyətə gətirilərək satılır. “Leş ət” mafiyasına qarşı hüquq mühafizə orqanlarının hərəkətliyi yetərli deyil. Bu gün murdar ət satan tutulur, sabah isə yenə də işini davam etdirir.**



Facebook istifadəçisi Teymur Həsənov murdar ət satan birinin fotosunu paylaşayaq yazıb. Sitat: “2-3 ay bundan öncə at əti satdığına görə bu adamı tutmuşdular. Əsgər yoldaşımdı. Keçən həftə gördüm təsadüfən. Dedi yenə həmin işdəyəm, pis deyil qazancım. İstəsən, gəl birlikdə işləyək. At ətini dönərxanalara satır. Mənə maraqlı olan bunun nə satması, hara satması deyil. Cəhənnəmə satsın. Bəs yaxşı, bu adamı necə azadlığa buraxdılar? Belə adamlara həbs düşmürmü? Adam fakt at əti satdığına görə tutulmuşdu, amma indi azadlıqdadır”.

Bu statusa yazılan şərhlər də maraqlıdır. Məsələn Şakir Məmmədov adlı istifadəçi yazır: “Biz hamımız, bilmədən o qədər at əti yemişik ki. Kolbasanın 70 faizi at ətidir. Kolbasa ona görə ucuzdur”.

Hər kəsi narahat edən bu mövzunun mətbuatda uzun illərdir ki, dartışılmasına baxmayaraq, “leş ət” mafiyasını dayandırmaq mümkün olmur. Ölkənin dörd bir tərəfindən paytaxta at-eşşək, ölmüş mal-qaranın ətini daşıyıb gətirirlər. Tutuldular, cərimələrini ödəyib işlərinə davam edirlər. Kənardan baxanda belə görünür ki, sanki hüquq-mühafizə orqanları, müvafiq qurumlar “leş ət” mafiyası"nın qarşısında acizdirlər. Doğrudanmı belədir?

Leş ətlərin və onlardan hazırlanan kolbasa məhsullarının əhaliyə satılması ilə bağlı məsələ də diqqət mərkəzindədir. Leş ətlərdən istifadə edən şirkətlər cərimələnmir. O səbəbdən ki, qanunda həmin əti alanın cəzalanması nəzərdə tutulmur.

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov leş ətlərlə bağlı 15 ildən yuxarıdır ki, mübarizə aparıldığını, lakin istənilən nəticənin ortada olmadığını deyir.

Onun sözlərinə görə bu məsələ ilə bağlı dövlət orqanlarına illərdir ki, məlumat verirlər: “Mən istəyirəm ki, dövlət orqanları bu cinayətləri ifşa etsinlər. Lakin çox vaxt bu mümkün olmur. Son zamanlar Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi bu məsələ ilə bağlı yaxşı işlər görür. Yerlərdə leş alverinə göz yumulur. Hamı bilir ki, leş alveri insanların gözü qarşısında baş verir. Ölmüş heyvanın ətini alıb gətirib kolbasa istehsalçılarına verirlər. Gözqamaşdıran qablaşdırmada həmin ölmüş heyvanın ətini də əhali bəh-bəhlə yeyir. Leş ət əsasən ölmüş heyvan ətidir. Heyvan dayanan yerdə ölmür, xəstələnir, virus, mikrob daşıyıcısına çevrilir, ölür. Həmin heyvanın ətindən hazırlanan qida insan orqanizminə virus, mikrobları keçirə bilər. İnsan həmin ətdən hazırlanan qidadan ən təhlükəli xəstəliklərə yoluxa bilər. Mədə-bağırsaq, sağalmaz və əlacı olmayan viruslar o ətlərdən yoluxur. Müvafiq dövlət orqanları da işlərini formal addımlar atmaqla bitmiş hesab edirlər. Söhbət əhalinin qida təhlükəsizliyindən gedirsə, belə bir mövqe yolverilməzdir. Leş əti daşıyıb gətirəni cərimələyirlər, amma həmin ətin sifarişçisi kənarda qalır. O da bir başqasına həmin o əti sifariş verir. Yəni sifarişçilər cəzalandırılmır, ona görə də tələbin qarşılığını ödəmək istəyənlər də ortaya çıxır. Əsas sifarişçilərdir, onların yaxasından yapışıb cəzalandırmalı və bunu ictimaiyyətin gözü qarşısında etməlidirlər ki, bir daha həmin şirkətlərin məhsullarını alan olmasın”.



Yada salaq ki, bir müddət əvvəl Milli Məclisin deputatı Tahir Kərimli leş ətlərin satılmasının qarşısını almaqla bağlı fikirlər bildirmişdi. Demişdi ki, “leş ət” mafiyasına qarşı polis orqanları ilə baytarlıq idarələri birgə əməliyyatlar keçirməlidir.

“O ki qaldı qanunvericilik qaydasına, hüququn bir mənbəyi də adətdir. Bizim adətimiz var və bu qanun şəklini almalıdır. Müsəlman xalqları var, məsələn, qazaxlar, qırğızlar, bunlar at əti yeyir. Azərbaycanda isə bu əti yeyən yoxdur. Bizim milli mətbəximizdə at və eşşək əti yoxdur. Düşünün, bir insan ləzzətlə kabab yeyir. Gəlib ona dedilər ki, yediyin kabab eşşək ətidir, o, hansı vəziyyətə düşər? Onda psixoloji problem və eyni zamanda müxtəlif xəstəliklər yaranar”, - deyə Tahir Kərimli bildirmişdi. Demişdi ki, məsələnin Cinayət Məcəlləsində xüsusi maddə şəklində yer almasına ehtiyac var: “Özlərinin tamahına görə, insanlara at və eşşək, qocalmış inək və müxtəlif ölkələrdən heyvan əti gətirib kolbasa şəklində yedizdirirlər. Bunun hüquqi nizamnaməyə salınmasına ehtiyac var”. Deputat onu da əlavə edib ki, Ağsu rayonunun Nuran kəndində bir eşşək 50 manata satılır: “Bir neçə il əvvəl bu kənddə yas məclisində idim. Dedilər ki, nə qədər eşşək var, hamısını 50 manatdan alıb aparıblar”.

Zaman-zaman mətbuatda bu cür məlumatlar yer alır. Ağsunun Nuran kəndində eşşəyi 50 manata alanlar təkdırnaqlı heyvanı hara aparırlar? Əlbəttə ki, eşşək kəsilir və bazara aparılır. Deməli, bu cür ətlərə bazarda tələbat var. Hüquq-mühafizə orqanlarının diqqətdən yayınan “leş ət”i bazara çıxartmağa nail ola bilirlərsə, deməli, ortada çox ciddi iş, biznes və bu biznsin arxasında dayanan qüvvə var. Nəticədə bu cür ətlər ət məhsulları istehsalçıları tərəfindən alınır və kolbasa sexlərinə, kafe və restoranlara “ayaq açır”.

Bu suala Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq Komitəsinin üzvü Vahid Əhmədov çıxış yolu kimi bu sahədə qanunvericiliyin sərtləşdirilməsinə və nəzarətin artırılmasına ehtiyac olduğunu demişdi.

“Bu insanlar nə haqla o ətləri insanlara yedizdirirlər? Hamımız müsəlmanıq, at ətini, murdar ətləri, ölmüş heyvanların ətini gətirib insanlara yedizdirirlər. Bunun qarşısını almağa maksimum çalışırlar. Hüquq-mühafizə orqanları, Kənd Təsərrüfatı Nazirliyinin müvafiq idarələri çalışırlar ki, bu halların qarşısını alsınlar. Ancaq bu halları ortaya çıxartmaq çox çətindir. İnsan özü də başa düşməlidir ki, pul xətrinə başqa insanları zəhərləmək olmaz. Bu sahədə sərt qanunlar var, ancaq onları daha da sərtləşdirməyə ehtiyac var ki, zərərçəkənlər olmasın. Bu ətlər daha çox əhaliyə ictimai iaşə obyektləri vasitəsilə yedizdirilir, leş ət satanlar kafe və restoranlarla əlbir işləyirlər. Bu obyektlərin sahibləri də həmin ətlərdən istifadə etməməlidirlər. Birincisi, hüquq-mühafizə orqanları bu sahədə çox ciddi işləməlidirlər, yerli sahə müvəkkilləri bu işdə fəal olmalıdırlar. Çünki onlar hər şeydən məlumatlı olurlar. İkincisi də, bu məsələ Kənd Təsərrüfatı Nazirliyinin birbaşa səlahiyyətində olan məsələdir. Onlar normal işləyirlər, keyfiyyət məsələsinə nəzarət edirlər. Ancaq hu sahədə işi gücləndirmək lazımdır”, - deyə deputat bildirib.

**❑ E.MƏMMƏDƏLİYEV**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Türkiyə ilə Azərbaycan hərbi ittifaqda - işğalçının qorxunc röyası

## Konflikt ətrafındakı situasiyanın diktəsi: Naxçıvanda Türkiyə hərbi bazaları məsələsi nəhayət, 2018-ci ildə reallaşa bilər; sabiq diplomat: "Türk-rus yaxınlığı Bakının xeyrinədir..."

**İşğalçı Ermənistan prezidenti Serj Sərkisyan ötən həftəsonu Qarabağ problemi ilə bağlı danışarkən masa üzərində "Lavrov planı" deyilən bir planın olmadığını deyib. "Lavrov Ermənistana son səfəri çərçivəsində Dağlıq Qarabağ nizamlanmasına dair yeni təkliflərlə çıxış eləmədi. Nazir Lavrov əmindir ki, bu konflikti həll etmək olar və təklif edilən prinsiplər belə bir imkanı yaradır", - deyə düşmən ölkənin başçısı qeyd edib.**




Xatırladaq ki, söhbət üç prinsipdən - ərazi bütövlüyü, güc tətbiqi ilə hədələməmək və öz müqəddəratını təyinetmə prinsiplərindən gedir. Rusiya XİN başçısının sözlərinə görə, həmsədrin irəli sürdüyü bu prinsipləri tərəflər qəbul eləsə də, problemin həlli yöndə tərəflərin real praktik addımları gözə dəymir. Hərçənd, rəsmi Bakı Qarabağ məsələsinə üç prinsipinin tətbiqi ilə bağlı Lavrovdan fərqli yanaşmanın tərəfdarıdır.

Sərkisyan isə bəyan edib ki, hazırda əsas məsələ münaqişə tərəfləri arasında etimad mühitini yaratmaqdır. O, bir daha təmas xəttində atəşkəsin pozulmasına yeni nəzarət mexanizminin tətbiq olunmasının vacibliyini vurğulayıb.

Bu, əlbəttə ki, işğalçı tərəfin çoxdankı arzusudur: Azərbaycan ərazilərinin bir qarşını belə geri qaytarmadan cəzasızlıq statusu qazanmaq, işğal rejimini uzatmaq və yekun etibarilə sülh danışıqlarında diktə edən tərəfə çevrilmək. Erməni tərəfinin hiyləgərliyi ondan ibarətdir ki, belə mexanizmlərin tətbiqini "etimad atmosferi" yaradılmasının vacibliyi ilə əlaqələndirməyə çalışır. Halbuki, bu, olsa-ola faktiki, təmas xəttinin rəsmi təmas xəttinə çevrilməsinə nail olmaqla işğalı legitimləşdirmək və bu zaman Azərbaycanın hərbi zərbələrindən tamamən sığortalanmaqdan savayı bir şey deyil.

Sözsüz ki, Bakı heç vaxt birtərəfli qaydada, sırf işğalçının maraqlarına işləyən və faktiki şəkildə, Azərbaycanın hərb yolu ilə öz ərazilərini azad eləmək kimi müstəsna hüququnu əlindən alacaq nəzarət mexanizmlərinin qurulmasına razılıq verməyəcək. Bakı dəfələrlə bəyan edib ki, belə mexanizmlər yalnız substansiv danışıqların tərkib hissəsi ola bilər. Yəni məsələyə torpaqların işğaldan azad edilməyə başlandığı halda baxıla bilər.

*****

Sərkisyanın son açıqlaması Ermənistanda hakimiyyət dəyişməyində Qarabağ məsələsində İrəvanın gələn il də konstruktiv mövqe tutmayacağından xəbər verir. Əfsus ki, Ermənistan rəhbərliyinin bu mövqeyi xeyli dərəcədə həmsədr dövlətlərin, xüsusən də Rusiyanın və onu erməni kökənli xarici işlər naziri Sergey Lavrovun məsələdə ədalətsiz, beynəlxalq hüquqla uzlaşmayan yanaşmasından qaynaqlanır. Konfliktin həllində ərazi bütövlüyü prinsipi ilə yanaşı, öz müqəddəratını təyinetmə prinsipini də gündəmə gətirmək səylərinin başqa adı ola bilməz.

Belə olan vəziyyətdə, Azərbaycanın öz hərbi qüdrətini daha da artırmaq, işğalçı ölkəni bahalı silahlanma yarışına cəlb edib onu iqtisadi cəhətcə daha da zəiflətməkdən savayı yolu qalmır. Bu xüsusda bizim ən etibarli siyasi-hərbi müttəfiqimiz əlbəttə ki, 2018-ci ildə də qardaş Türkiyə olaraq qalacaq. Yəqin ki, gələn iki qardaş ölkə arasında hərbi və hərbi-texniki əməkdaşlıq daha yüksək səviyyəyə qalxacaq, ortaq hərbi təlimlər intensivləşəcək.

Sevindiricidir ki, bu arada Türkiyə də özünün hərbi-sənaye kompleksini durmadan gücləndirir ki, bu da onun regional supergüc kimi gücünü artırmaqla yanaşı, Azərbaycanın gücünə də əlavə güc qatır. Məsələn, bu arada məlum olub ki, 2019-cu ilin birinci yarısında Türkiyənin yerli "Altay" tanklarının seriyalı istehsalına başlanılacaq. Türkiyə Milli Müdafiə Nazirliyi ilkin olaraq 500 ədəd tankın istehsal olunacağı barədə bildirib.

Xatırladaq ki, Türkiyə istehsallı "Altay" tankı ilk dəfə 2013-cü ilin iyulunda sınaqdan keçirilib. Sınağın nəticələri göstərib ki, tank qarşıya qoyulan tələblərə tam cavab verir. Bu isə o deməkdir ki, həmin tanklar çox tezliklə Azərbaycan Ordusunun da sərəncamına daxil ola, Ermənistanın müttəfiqi Rusiyadan silah asılılığımız azala bilər.

Gələn isə Naxçıvanda Türkiyə hərbi bazalarının qurulması və qardaş ölkə ilə hərbi ittifaqın yaradılmasının, nəhayət ki, gündəmə gələcəyi istisna deyil. Həm baza, həm də hərbi ittifaq isə işğalçının qorxulu röyasıdır. Belə bir zərurət həm də Rusiyanın Qarabağ münaqişəsinin həllinə ciddi təkan verməkdə istəməməsi ilə birbaşa bağlıdır. Səbəblər isə müxtəlifdir. Onların arasında ən əsası, sözsüz ki, konfliktin nizamlanacağı təqdirdə Rusiyanın bölgədəki dayaqlarını itirə biləcəyi ilə bağlı təlaşıdır.

*****

"Rusiya hazırda Dağlıq Qarabağ münaqişəsinin həllində məsafəli davranır və siyasi maraqlarını problemin həllindən üstün tutur". Bu sözləri politoloq, keçmiş diplomat Fikrət Sadıqov deyib (Axar.az). Politoloq bildirib ki, Rusiya Dağlıq Qarabağ münaqişəsini birbaşa öz nəzarəti altında saxlayır və bu rolunu heç vaxt zəifləməyəcək.

"Moskva çıxış yolunu Bakı və İrəvan arasındakı dialoqda görür. Bu, zahirən doğru görünsə də, əslində reallığa uyğun deyil. Aydın məsələdir ki, Ermənistanın əsas donoru Rusiyadır. Aparılan danışıqlara baxmayaraq, İrəvanın qeyri-konstruktivliyi birbaşa Moskvadan qaynaqlanır. Hətta Rusiyanın Qarabağ məsələsində Ermənistanı birbaşa təlimatlandırdığını düşünürəm", - deyə ekspert qeyd edib.

Politoloqun fikrincə, hazırda yeganə müsbət məqam Türkiyənin Dağlıq Qarabağ məsələsinin nizama salınması prosesində nümayiş etdirdiyi siyasi aktivlikdir: "Türkiyə bu aktivliyini artırarsa, Rusiya Ermənistanı müəyyən güzəştlərə razı sala bilər. İstənilən halda, rus-türk yaxınlığı Bakının xeyrinədir. İndiki reallıqda Rusiyanın hansısa bir dövləti Qarabağ məsələsinin həllinə bu qədər yaxın buraxması reallıqdan uzaqdır. Yalnız Ankara Bakının mövqeyini Moskvaya daha qabarıq şəkildə çatdıra bilər. Azərbaycan isə bu fonda diplomatiya ilə yanaşı, hərbi sahədə Ermənistana qarşı hücumedici addımlarını hazırlamalıdır".

Şübhə yox ki, Azərbaycan öz hərbi və döyüş hazırlığını gələn il də gücləndirməyə çalışacaq. Güc amilinin isə danışıqlar prosesinə təsiri getdikcə artır ki, azalmır.




## Müdafiə Nazirliyində geniş kollegiya iclası keçirilib

**Müdafiə Nazirliyində nazir, general-polkovnik Zakir Həsənovun rəhbərliyi və kollegiya üzvlərinin iştirakı ilə 2017-ci tədris ilində qoşunların hazırlığı üzrə yekunlara dair geniş tərkibdə iclas keçirilib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, tədbirdə Azərbaycan Respublikası Prezidentinin Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi Fuad Ələsgərov iştirak edib.**

İclasda hesabat dövründə ordu quruculuğu sahəsində görülən işlər və əsas istiqamətlər üzrə yerinə yetirilən tapşırıqlarla bağlı məruzə dinlənilib, son dövrlərdə həyata keçirilən islahatlar, qoşunların döyüş hazırlığının vəziyyəti, xidməti və digər məsələlər müzakirə olunub.

Müdafiə naziri 2017-ci ildə xidməti döyüş hazırlığının yekunları və 2018-ci tədris ilində qarşıda duran vəzifələr haqqında geniş məruzə ilə çıxış edib. Azərbaycan prezidenti İlham Əliyevin Azərbaycan Ordusuna verdiyi qiyməti, göstərdiyi diqqət və qayğını xüsusi qeyd edən nazir Ali Baş Komandanın rəhbərliyi ilə son illər ərzində əldə edilən nailiyyətlərdən danışıb.

Z.Həsənov cari ildə görülən tədbirlərin təhlilini apararaq döyüş hazırlığı və mənəvi-psixoloji vəziyyət, müdafiə sistemi və onun hərtərəfli təminatı məsələlərini diqqətə çatdırıb, qoşunların döyüş qabiliyyətinin artırılması məqsədilə 2018-ci tədris ilində qarşıda duran əsas vəzifələrin icrası ilə əlaqədar komandir-rəis heyəti qarşısında tapşırıqlar qoyub. Sonda kollegiya iclasının qərar layihəsi müzakirə edilərək qəbul olunub.

YENİ MÜSAVAT
N 265 (6878) 18 dekabr 2017



# Bitkoin - çirkli pul yumaq aləti, yoxsa virtual valyuta bazarının ilk qaranquşu...

## Ekspert: "Azərbaycanda xüsusi komissiya yaradılmalıdır"

**Son aylar beynəlxalq kriptovalyuta olan bitkoinin sürətlə bahalaşması və onun ətrafında baş verən proseslər dünyada birmənalı qarşılanmır. Görünməmiş sürətlə bahalaşan bitkoinlə bağlı dünyanın nüfuzlu maliyyə təşkilatlarının rəhbərləri, böyük dövlətlərin maliyyə rəsmilərindən inamsızlıq çağırışları da getdikcə artmaqdadır. Bu çağırışlarda bitkoinin köpük olduğu ehtimal edilir, ona inanaraq investisiya yatıranların tezliklə itkiylə üzləşə biləcəyi vurğulanır. Hətta ABŞ Federal Ehtiyat Sisteminin rəhbəri Canet Yellen bu maliyyə alətindən çirkli pulların yuyulması məqsədilə istifadə edilməsi təhlükəsinin olduğunu bəyan edib: "Bitkoin etibarsız, yüksək dərəcəli spekulyativ aktivdir və o, çirkli pulların yuyulmasında istifadə oluna bilər. Hazırda beynəlxalq hesablaşmalarda bitkoin cüzi yer tutur. Həmçinin bitkoin qanunvericiliklə tənzimlənməyən qeyri-sabit mənfəət mənbəyi kimi səciyyələndirilir. Federal Ehtiyatlar Sistemi bitkoinlə bağlı hər hansı tənzimləyici rol oynamaq fikrində deyil".**

C.Yellen həmçinin banklara qeyri-qanuni yolla əldə edilmiş maliyyə vəsaitlərinə qarşı çıxmağın vacibliyini xatırladaraq bəyan edib ki, çirkli pulların yuyulmasında bitkoindən də istifadə oluna bilər.

Maraqlıdır ki, Rusiya Avropa Birliyi və ABŞ-ın sanksiyalarından yayınmaq üçün kriptovalyutalardan istifadə etmək niyyətindədir. Rusiya prezidentinin müşaviri Sergey Qlazyev Prezident Administrasiyasında kriptovalyutaların hüquqi statusu barədə keçirilən müzakirələr zamanı bildirib ki, xarici məhdudiyyətlərdən yayınmaq məqsədilə bitkoindən istifadə obyektiv zərurətə çevrilə bilər: "Kriptovalyutalardan istifadə etmək üçün obyektiv zərurət yaranıb. Birincisi, banklar sanksiyalarla üzləşib və hesablaşmalar həyata keçirmək istəmir. Dövlət üçün önəmli bəzi fəaliyyət növləri üzrə bu maliyyə aləti bizə çox yarayır. Sanksiyalara baxmayaraq, kontragentlərimizlə bu yolla hesablaşmalar apara bilərik".

Bu günlərdə bitkoin və digər kriptovalyutalara investisiya imkanları barədə açıqlama ilə Azərbaycan Dövlət Neft Fondu (ARDNF) da çıxış edib. Son 1 il ərzində bitkoin 23,7 dəfə bahalaşaraq ötən il dekabrın 15-dəki 745 dollardan 17 600 dolara çatıb. Artımın bundan sonra da davam edəcəyi gözlənilir. Bu şəraitdə ARDNF-nin bu valyutalara yatırım etməklə böyük mənfəət əldə edə biləcəyi barədə iradlara münasibət bildirən Neft Fondu bu bazarı izləsə də, onun böyük risklər daşıdığını və gələcəyi ilə bağlı "ciddi sualların olduğunu" hesab edir. (Fins.az)

Fonddan bildirilib ki, ARDNF-nin əsas fəaliyyəti vəsaitlərin idarə edilməsi sahəsidir və bir institusional investor olaraq Fond da dünya maliyyə bazarlarını, o cümlədən yeni trendləri daima izləyir, öz investisiya strategiyasında bunları nəzərə alır.

Lakin ARDNF-nin investisiya fəaliyyəti, Azərbaycan Prezidenti tərəfindən təsdiq edilən İnvestisiya Qaydaları, İnvestisiya Siyasəti kimi müvafiq aktlarla tənzimlənir: "Amma bu sənədlərdə də nə potensial maliyyə aktivi, nə də valyuta kimi kriptovalyutalar yer almır və hal-hazırda da bununla bağlı hər hansı bir dəyişiklik nəzərdə tutulmur".

Fondun ekspertləri kriptovalyutalar bazarı ilə bağlı mövqelərini də açıqlayıblar: "Ümumiyyətlə hal-hazırda kriptovalyutalar dayanıqlı bir maliyyə aktivi və ya valyuta kimi hər hansı bir fundamental dəyərə əsaslanmır və bu alətlərə daha çox individual investorlar tərəfindən spekulyativ məqsədlərlə yatırımlar edilir. Təbii ki, çox yüksək volatillik, bu bazarın tənzimlənməməsi və istər dövlət, istərsə də maliyyə qurumlarının yüksək çinli rəsmiləri tərəfindən daima bu barədə narahatlıqlar onların gələcəyi ilə bağlı əsaslı suallar yaradır".

İqtisadçı-ekspert, İqtisadi və Sosial İnkişaf Mərkəzinin rəhbəri Vüqar Bayramov bitkoinin qiymətindəki sürətli artımın narahatlıqlar yaratmasını təbii sayır: "Bir məhsulun qiymətində 1 ildə 17 dəfədən çox artım olursa, bu, onun arxasında köpüklərin yaranması ehtimalını gücləndirir. Bu baxımdan, bitkoinin gələcəyi ilə bağlı narahatlıqlar var. Lakin onlar ziddiyyətlidir, hansınısa birmənalı qəbul etmək mümkün deyil. Bir qisim dünyada tanınmış iqtisadçılar, mərkəz bank rəhbərləri ona etibar etmirlər, xəbərdarlıq çıxışları səsləndirirlər".

Ekspertin sözlərinə görə, kriptovalyutalarla bağlı nikbin olan mütəxəssislər hesab edirlər ki, tezliklə bitkoin öz bazar dəyərini tapacaq və qiyməti sabitləşəcək, bununla da bitkoin virtual valyuta bazarına keçidin əsasını müəyyənləşəcək: "Düşünürəm ki, bitkoinin dəyərindəki artım dayanacaq və sabitləşəcəksə özünü təsdiq etmiş olacaq. Əgər bahalaşma davam edəcəksə, bu zaman köpüklərin yaranması ehtimalı güclənmiş olacaq. Gələcəyinin necə olmasından asılı olmayaraq, bitkoin virtual valyuta bazarının əsasını qoydu. Valyuta bazarında hesablaşmalara yanaşmaları dəyişdirdi. Nəzərə alsaq ki, bitkoin blokçeynlərin istifadə ilə ödənişlərin edilməsini şərtləndirir, bu o deməkdir ki, bitkoin ənənəvi bank əməliyyatlarından kənar ödəniş imkanı yaradır. Yəni bu valyuta ilə ödəniş etmək üçün hansısa bank hesabına, bank əməliyyatına ehtiyac qalmır. Bu isə o deməkdir ki, ənənəvi banklara marağın azalması müşahidə oluna bilər. Hətta gələcəkdə mərkəz banklar tərəfindən virtual pulların belə dövriyyəyə buraxılması mümkündür. Bu baxımdan, bitkoin, hansı taleyi yaşamasına baxmayaraq, virtual valyuta dövrünün başlaması ilə bağlı inqilabın əsasını qoydu".

V.Bayramovun sözlərinə görə, Azərbaycan Mərkəzi Bankı virtual valyuta bazarları ilə bağlı araşdırmalarını genişləndirməli, bu sahədəki dəyişikliklərə hazır olmalıdır: "Proseslər çox yüksək sürətlə gedir, tezliklə Azərbaycana da gəlib çatacaq. Artıq Rusiya da daxil olmaqla bir sıra ölkələr kriptovalyutaların öyrənilməsi ilə bağlı xüsusi qruplar, komissiyalara formalaşdırıblar. Düşünürəm ki, Azərbaycanda da Mərkəzi Bank yanında belə komissiyanın yaradılmasına ehtiyac var".

❑ **DÜNYA**
❑ **"Yeni Müsavat"**

# MDB məkanını gözləyən bahalaşma dalğası



## Fikrət Yusifov: "Ermənistandan tam fərqli olaraq Azərbaycan iqtisadi yüksəlişini davam etdirməkdədir"

**Gələn ilin əvvəllərindən etibarən MDB məkanında, o cümlədən qonşu ölkələrimizdə növbəti bahalaşma dalğasının olacağı gözlənilir. Hətta bir sıra ölkələrdə artıq bahalaşma başlayıb da.**

Artıq Türkmənistanda bahalaşma dalğasının rüşeymləri görünməyə başlayıb. Türkmənistanda əsas qida məhsullarının defisiti və qiymət artımı müşahidə edilir.

APA-nın "lenta.ru"ya istinadən verdiyi məlumata görə, bu barədə "Azadlıq radiosu"nun Türkmənistan bürosu xəbər yayıb.

Məlumatda bildirilir ki, Marı və Axal vilayətlərində noyabr ayında un iki dəfə bahalaşıb və defisitin yaranacağından ehtiyatlanan əhali daha çox un almağa başlayıb. Artıq dekabrın əvvəlində bütün ölkə boyu un çatışmazlığı yaranıb. Nəticədə çörəyin qiyməti 1 Türkmənistan manatından 1,4 -1,5 manata kimi qalxıb. Aşqabadda isə keyfiyyətli undan hazırlanmış çörək iki həftə ərzində 2 manatdan 3,5 manata kimi qalxıb.

Habelə, Gürcüstan və Qazaxıstanda da bahalaşma haqda danışılır.

Ən böyük bahalaşma isə Ermənistan və separatçı bölgədə gözlənilir. 800 adda məhsulun, o cümlədən, benzinin qiymətinin artacağı deyilir. İqtisadiyyatı dərin böhran yaşayan və bunun təsiri ilə erməni əhalisinin pisləşən vəziyyətinin daha da acınacaqlı həddə çatacağı bildirilir...

İqtisadçı ekspertlər digər MDB ölkələrində də bu tipli artımların yeni ildən etibarən ola biləcəyini proqnozlaşdırırlar. Azərbaycanla bağlı vəziyyət isə müxtəlif cür dəyərləndirilir.

Sabiq maliyyə naziri, iqtisadçı alim Fikrət Yusifov gələn il Azərbaycanda qiymətlərin sabit qalmasında bir sıra əsasların olduğunu düşünür: "Ermənistan bu gün iqtisadiyyatı çox ağır durumda olan ölkələrin sırasında ilk yerlərdən birini tutur. Hər bir ölkənin iqtisadi vəziyyətinə ilk növbədə onun iqtisadi və siyasi suverenliyi prizmasından yanaşaraq qiymət verilməlidir. Bu ölkədə nə real siyasi müstəqillik, nə də iqtisadi müstəqillik mövcuddur. Ermənistanı az-çox tanıyan hər bir kəs bunun belə olduğunu çox yaxşı bilir. Bu gün Ermənistan beynəlxalq siyasi müstəvidə Rusiyanın istəmədiyi heç bir addımı ata bilməz. Atarsa bunun fəsadları onun üçün çox ağır ola bilər. Erməni hakimiyyətinin başında dayananlar hərdən Ermənistanın müstəqil dövlət olmasını "sübut etməyə" çalışan bəzi görüntülər etsələr də, bu sırf öz xalqını aldatmağa hesablanmış siyasi gedişlərdir və bu addımlar da sahiblərinin razılığı ilə atılır. Siyasi müstəqilliyi olmayan bir ölkənin iqtisadi müstəqilliyi qeyri mümkündür. Heç bir enerji resursları olmayan və bu sahədə Rusiyadan tam asılı bir vəziyyətdə yaşayan ölkədə hansı iqtisadi müstəqillikdən danışmaq mümkündür? Bura Ermənistanın son 20 il ərzində apardığı iyrənc işğalçılıq siyasəti nəticəsində blokada vəziyyətinə düşməsi və regionda reallaşdırılan transmilli layihələrdə iştirak edə bilməməsi nəticəsində məruz qaldığı itkiləri də əlavə etsək, onda bu ölkənin iqtisadiyyatının hansı səviyyədə olduğu tam aydınlaşar. Rusiya qazından və yanacağından asılı olan bu ölkə aldığı enerji məhsullarına görə borclarını qaytara bilməməsi səbəbindən zaman - zaman özünün bütün iri müəssisələrini Rusiyaya borc əvəzinə verməyə məcbur olub. Bu yolla Ermənistanı həm iqtisadi və həm də siyasi cəhətdən özündən tam asılı vəziyyətə salmaq Rusiyanın maraqlarına tam uyğundur. Rusiya qonşuluğunda olan hər bir ölkəyə qarşı bu cür davranmaq istəyindədir. Bu heç kəsə sirr deyil. Lakin o, bunu Azərbaycana qarşı edə bilməz. Çünki Azərbaycan çox az ölkələrdəndir ki, öz iqtisadi və siyasi müstəqilliyini qoruya bilmək üçün bütün imkanlara malikdir. Ermənistandakı iqtisadi durum bu ölkədəki sosial vəziyyətin getdikcə gərginləşməsinə aparır. Gələn ildən qiymətlərin daha da bahalaşması isə Ermənistandakı ictimai-siyasi vəziyyətin dramatikləşəcəyinə bir əsasdır. Bu gün öz ailəsinin, övladlarının gələcək taleyi üçün narahat olan, onların haqsız olaraq Azərbaycan əsgərinin güllələsinə tuş gələməsini istəməyən çoxsaylı erməni ailələri Ermənistanı tərk etməyə çalışırlar və bu prosses sürətlə davam edir. Ermənistandan tam fərqli olaraq Azərbaycan iqtisadi yüksəlişini davam etdirməkdədir. Ümumdünya böhranının yaratdığı fəsadları arxada qoyan Azərbaycan iqtisadiyyatının real sektorunda gələn il 4% artım gözlənilir. Gələn il Azərbaycan iqtisadiyyatının real sektorunda bu qədər artımın olacağını Beynəlxalq Valyuta Fondu proqnozlaşdırır. Bizim hesablamalarımıza görə bu artım ən azından 6% səviyyəsində ola biləcəkdir. Düşünülmüş iqtisadi siyasət gələn il Azərbaycanda sosial məsələlərin həllində əsaslı dönüş yaratmağa və qiymətlərin sabit qalmasına imkan verəcək".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 265 (6878) 18 dekabr 2017

# Erməni ilə duet oxuyan azərbaycanlı qız - düşmən "sevdalı" məşhurlarımız...

## "Əgər o insanların bir əzizi Qarabağda ölsəydi, onlar düşmənlə dostluq etməz və yaxud foto çəkdirib paylaşmazdı"

**Bu günlərdə "İnstagram"da azərbaycanlı və erməni qızın birikdə "Mi gna" (Getmə) mahnısını ifa etməsinə dair video yayılıb. Bu barədə haqqın.az saytı məlumat yayıb. Məlumata görə, videoda mahnının Rusiyada yaşayan Kima Xudoyan azərbaycanlı rəfiqəsi Aytənlə birgə ifa edir.**

"Yeni Müsavat" məsələ ilə bağlı kiçik araşdırma aparıb. Məlum olub ki, Kima Xudoyan Qriqorevna vizajistdir. O, məşhur erməni mahnısını ayt.a777 profil adı olan azərbaycanlı rəfiqəsi ilə birgə ifa edib. Qeyd edilən profildəki azərbaycanlı qızın kimliyini araşdırmaq isə mümkün olmayıb.

Erməni qruplarından birinin həmin videonu "İnstagram" səhifəsində paylaşması sosial şəbəkələrdə geniş müzakirələrə yol açıb. Şərhlərdə həm erməni, həm də azərbaycanlı izləyicilər öz fikirlərini qeyd ediblər.

Qeyd edək ki, Rusiyada və digər xarici ölkələrdə ara-sıra ermənilərlə dost edən azərbaycanlılara rast gəlirik. Bəzən onların arasından tanınmış sənətçilər, məşhurlar da tapılır. Buna misal olaraq bu günlərdə xalq artisti Ramiz Novruzun vizajist qızı Şəfəq Novruzovanın erməni həmkarı ilə iş birliyi yaratması məlum olmuşdu.

Amma təkcə stilistmi? Məlum olduğu kimi, Xalq artistlərimizin də arasında ermənipərəstlər, erməni sevdası ilə yaşayanlar var. Məsələn, bir müddət bundan əvvəl, Xalq artisti Brilliant Dadaşovanın erməni qarmon ifaçısı Varujan Şahbazyanla isti münasibətləri ortaya çıxmışdı. Belə ki, sən demə, Xalq artisti uzun müddət sosial şəbəkədə erməni ifaçısı ilə dostluq edərək, onun paylaşımlarına şərhlər bildirib. Son olaraq ermənin ifasını bəyənib, onun rəy bölümünə "super" yazması isə azərbaycanlı izləyicilərin nəzərindən qaçmamışdı.

Erməni ifaçısı xalq artistimizin rəyinə cavab olaraq "Çox sağ ol, əzizim" yazmışdı. Lakin sonradan Brilliant Dadaşova mətbuatda və sosial şəbəkələrdə ciddi tənqidlərlə üzləşdiyindən rəyini silərək, erməni ifaçısını dostluğundan çıxartmışdı.

Xalq artisti Nazpəri Dostəliyeva isə sosial şəbəkədə təsadüfdən və yaxud bilərəkdən Azərbaycan və Ermənistan bayrağını paylaşaraq yazmışdı: "Biz artıq işimizin başındayıq. Yaxında Nailə Mirməmmədlinin əsəri gəlir. Hazır olun! Heç kəsə pislik arzulamıram. Zamanında ikili oyun aparanların aqibətini görürəm. Az öncə bəlli olduğu kimi... Allah yardımçınız olsun".

Müğənninin prodüseri Mikayıl Hüseynov olaya bu cür aydınlıq gətirmişdi: "O paylaşımın Nazpəri xanımla heç bir əlaqəsi yoxdur. Mənim əlim dəyib, oraya erməni bayrağı səhvən düşüb. Nazpəri xanım, ümumiyyətlə, öz "İnstagram" səhifəsini işlətmir, o səhifəni mən idarə edirəm". Bir müddət sonra adıçəkilən prodüserlə müğənni yollarını ayırdı.

Digər erməni sevdalı tanınmışlardan biri də əməkdar artist Aybəniz Haşımovanın qızı Aynişan Quliyevadır. Bir müddət əvvəl gənc ifaçının "Slavyan bazarı-2011" mahnı müsabiqəsində erməni müğənni Narek Makaryanla dostlaşdığı məlum olmuşdu. Onun Nareklə yan-yana mehribancasına



şəkil çəkdirməsi səs-küyə səbəb olmuşdu. Sonradan aydın olmuşdu ki, Aynişan uzun müddət erməni ilə sosial şəbəkədə də dostluq edibmiş. Sonradan Nareki dostluğundan silməyə məcbur olmuşdu.

Bəs ermənilərlə dost olmaq, iş birliyi yaratmaq, onlarla birgə mahnı ifa edib, sənətçilərinə pərəstiş etmək nə dərəcədə doğrudur?

Əməkdar artist, dünya şöhrətli nağara ifaçısı Natiq Şirinov mövzuya bu cür şərh bildirdi:

"Sənətim elədir ki, beynəlxalq festivallarda həmişə erməniləri görmüşəm. Dünyada azərbaycanlılar olduğu kimi, ermənilər də var. Əgər onların üstünə getmək imkanı olsa, birinci əvvəldə elə mən əlimdə nağara ilə gedərəm.

Qaldı ki, azərbaycanlıların ermənilərlə dostluq etməsinə, mən buna qətiyyən inanmıram, bu, qeyri-mümkündür. Ola bilər ki, sənətçi hardasa çıxış edəndə orda erməni də ola bilər. Amma bizimkilərin onlarla dostluq etməsinə inanmıram. Bildiyiniz kimi, dünyanın ermənilərlə problemi yoxdur, problem bizimdir. Bir erməni görəndə içimdən gəlir ki, onu vurub öldürüm, qanını içim. Çünki onlar mənim ana-bacılarımı, balalarımı şəhid edib. Mənim öz nəslimdən insanları şəhid edib. Bilirsiz ki, əslən mənim bir tərəfim Qərbi Azərbaycan, digər tərəfim Kəlbəcərdəndir. Bizim nəslimizdə nə qədər insanlar, hətta körpələr şəhid olub. Mənim qədər onlara hirsi olan ola bilməz. Beynəlxalq festivallarda və digər bu kimi yerlərdə isə ermənilərə təzyiq göstərməyim mümkün deyil. Mən təzyiqi öz sənətimlə, ifamla göstərir, nağaranın Azərbaycana məxsus olduğunu nümayiş etdirirəm".

Müğənni Afət Fərmanqızı da ermənilərlə dostluğa tənqidi yanaşıb: "Bəzən ölkədən kənar dəvətlər gələndə hansısa məclisdə ermənilərlə rastlaşırıq. Və yaxud başıma gəlib ki, sosial şəbəkə üzərindən məni Rusiyaya məclisə dəvət ediblər. Amma sonra araşdıranda məlum olub ki, bizi dəvət edən şəxs əslində bir zamanlar Azərbaycandan köçmüş ermənidir, hazırda Rusiyada yaşayır. Və təbii ki, bu cür dəvətlərdən imtina edirik. Bildirdik ki, nə qədər pul versələr belə, biz razılaşmayacağıq, çünki onlar bizim əbədi, əzəli düşmənlərimizdir. Kim də onlarla dostluğa bərаət qazandırırsa, onun qanı düz deyil. Necə yəni, bəs bizim orda başı kəsilən uşaqlarımız, Xocalı hadisəsi, bütün bunlar yaddan çıxdı?!

Bu günlərdə sosial şəbəkədə bir həkim erməni həmkarı ilə şəkil çəkdirib paylaşmışdı. Doğrudur, xaricdə işlədiyin klinikada erməni də ola bilər. Amma bilərəkdən erməni ilə şəkil çəkdirib paylaşmaq, bu, o deməkdir ki, sən də ermənisən.

Rusiyada və digər yerlərdə çox rastlaşmışam ki, bizim azərbaycanlılar ermənilər ilə dostluq edir. Mən tam olaraq bunun əleyhinəyəm. Bu, bizim şəhidlərimizin ruhuna hörmətsizlikdir. Əgər o insanların bir əzizi Qarabağda ölsəydi, onlar şəkil düşmənlə dostluq etməz və yaxud foto çəkdirib paylaşmazdı.

Şəxsən mənim qohumlarım arasında şəhid olmayıb, qarabağlı da deyiləm, əslən tovuzluyam. Amma özümü şəhid ailələrinin yerinə qoya bilirəm. Bir vətəndaş kimi hər birimiz qarabağlıyıq".

❑ **Xalidə GƏRAY**
❑ **Musavat.com**

# Bakıya yeni avtobuslar gətirilir: marşrutlarda vəziyyət düzələcəkmi?



## Bakı Nəqliyyat Agentliyi nikbindir, nəqliyyat eksperti isə...

**Bakıya yeni avtobuslar gətirilib. Bildirilir ki, marşrut xəttinə buraxılacaq yeni avtobuslar istilik sistemi və digər avadanlıqlarla təchiz olunub. Avtobusların 65-i xətdə işləyir. Avtobusda sərnişinlərin rahatlığı təmin olunub. Mobil cihazların elektrikə qoşulması üçün xüsusi yerlər də var.**

"Yeni Müsavat"a danışan Bakı Nəqliyyat Agentliyinin mətbuat xidmətinin rəhbəri Mais Ağayev bildirdi ki, "Çinar Trans" MMC bu günə qədər 65 ədəd avtobus gətirib. Bu avtobuslar 65 nəfərə yaxın sərnişin götürmək imkanına malikdir: "Ümumilikdə bu MMC 150 avtobus gətirməlidir. Artıq qeyd etdiyim kimi, 65 avtobus Bakıdadır və istifadə edilir. Yerdə qalan 85 avtobus da gələn ilin əvvəlində gətiriləcək. Ümumilikdə isə Bakıya 2018-ci ilin birinci yarısında 350-yə yaxın avtobusun gətirilməsi nəzərdə tutulub. Bunlardan da 20 ədədi 18 metrlik avtobus olacaq. Bu tipli avtobuslar əsasən şəhərin mərkəzi və qismən də şəhərin ətrafında fəaliyyət göstərəcəklər. Hazırda şəhərdə istifadə olunan və qoyulan tələblərə cavab verən avtobuslar isə kənd və qəsəbələrə ötürüləcək. Yeni avtobusların gətirilməsi ilə yanaşı, mövcud avtobusların da təmir olunması ilə bağlı işlər görülür. Artıq daşıyıcılar qarşısında qoyduğumuz tələbə uyğun olaraq, son iki ildə 1000 ədəddən artıq avtobus əsaslı təmir edilib. Gətirilən avtobuslar da Agentliyin sərnişindaşıma ilə bağlı müvafiq hüquqi normativ aktlara əsasən müəyyənləşdirdiyi tələblərə uyğundur. "Avro 5" standartlarına da cavab verən avtobuslar sərnişinlərə göstərilən xidmətin keyfiyyətinin artırılmasına imkan verir. Yeni avtobuslardan fiziki imkanları məhdud şəxslər, eləcə də uşaq arabası ilə olan sərnişinlər rahat istifadə edə biləcək. Bunun üçün avtobuslarda xüsusi mexanizm quraşdırılıb".

Ümumilikdə gələn ilin əvvəlinədək 700-ə yaxın nəqliyyat vasitəsinin də kart sisteminə keçidi planlaşdırılır. Hazırda xüsusilə də Bakı kəndlərinə işləyən avtobusların bir qismi istismara yararsız vəziyyətdədir. İnsanlar istismara yararsız avtobuslarda yayda istidən, qışda isə soyuqdan əziyyət çəkirlər. Bəzi kəndlərə isə işləyən avtobusların sayı az olduğu üçün bu da əlavə problemlərə səbəb olur.

Bəs gətirilən bu avtobuslar mövcud problemin həllinə səbəb olacaqmı?

Nəqliyyat üzrə ekspert Azər Allahverənov bildirdi ki, ümumilikdə Bakı şəhərində ictimai nəqliyyat sektoru daim yenilənməlidir: "Xüsusilə də sərnişinləri daşıyan avtobuslar var ki, onlar getdikcə istismara yararsız vəziyyətə düşür. Digər tərəfdən, Bakı Nəqliyyat Agentliyi sərnişindaşıma xidmətlərini həyata keçirən avtobus şirkətləri qarşısında müəyyən şərtlər qoyub ki, bu da ümumi işin faydasınadır. Belə ki, avtobuslar nəzərdə tutulan texniki parametrlərə cavab vermədikdə xətdən kənarlaşdırılır və ya sərnişin daşıma xidmətini həyata keçirən şirkətə lisenziya verilmir. Buna görə də şirkətlər arasında da müəyyən proseslər baş verir. Çalışırlar ki, zaman-zaman öz avtobus parklarını yeniləsinlər və tələblərə cavab verən, yeni nəqliyyat vasitələri gətirsinlər. Belə bir fikir yarana bilər ki, hazırda gətirilən avtobusların sayı azdır və şəhərdəki tələbatı ödəməyəcək. Reallıqda bəlkə də doğrudan da bu say, avtoparkın dərhal yenilənməsi baxımından kifayət deyil. Ancaq biz bilirik ki, bu problem kompleks şəkildə öz həllini tapan məsələdir. Yəni bir neçə maraqların toqquşduğu və ya kəsişdiyi sahə olduğu üçün burada Bakı Nəqliyyat Agentliyi daha sərt qaydalar tətbiq edə bilmir. Ən azından sahibkarların maraqlarının qorunması baxımından bu, belədir. Həm də ola bilsin ki, sahibkarların da bu sahəyə qoyduqları vəsait kifayət qədər deyil ki, dərhal avtopark yenilənsin. Ona görə də qeyd etdiyim kimi, problemin tam həll edilməsi və kompleks tədbirlərin icrası da müəyyən zaman tələb edən işdir".

Ekspertə görə, vəziyyətlə bağlı hansı dəyişikliyin olmasını görmək üçün son 3-4 il bundan öncə ilə müqayisə aparmaq lazımdır: "Son 3-4 il öncəyə nəzər salsaq görərik ki, Bakı şəhərinin avtobus parkına kifayət qədər sayda avtobus gətirilib. Ancaq bu da faktdır ki, şəhər də 3-4 il öncə olduğu kimi deyil və böyümə baş verir. Əgər məsələn "BakuBus"ın avtobusları şəhərin daha çox mərkəzi küçələrində hərəkət də olurdusa, artıq həmin avtobusların şəhərin kənar ərazilərinə də hərəkət etmələrinin şahidi oluruq. Bu da onu göstərir ki, Bakı Nəqliyyat Agentliyinin bu sahədə həyata keçirdiyi siyasət öz töhfəsini verir. Bakı ətrafı qəsəbələrə gəlincə isə ümid edək ki, həmin yenilənən avtopark bu əraziləri də əhatə edəcək. Belə olarsa insanlar da bundan faydalanıb, əlavə məsrəflər xərcləməz, taksiyə əlavə pul verməz, vaxtlarını küçələrdə itirməzlər. Təbii ki, bunun üçün də müasir tələblərə cavab verən avtobusların kifayət qədər sayda gətirilməsinə ehtiyac var. Zaman-zaman biz bunun şahidi oluruq. Xüsusilə də Bakı ətrafı kəndlərdə problemlər çoxdur. Bildiyim qədərilə görülən işlərin əsas hədəfi də bu problemləri həll etməkdir. Ümid edək ki, yaxın zamanlarda bu məsələlər də düzələcək".

❑ **Əli RAİS,**
❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 265 (6878) 18 dekabr 2017

# "Üstü bəzək, içi təzək" Yeni il hədiyyələri və... bahalı Şaxta babalar

## Yeni il hədiyyələrinin keyfiyyətinə necə əmin olmalı, Şaxta babanı evdə görmək bu il neçəyə başa gələcək?

**Yeni ilin gəlişinə daha çox sevinən uşaqlar olur. Çünki onlar bu bayramda Şaxta babadan hədiyyə gözləyir və ya Şaxta babanın elə hədiyyə ilə birlikdə evlərinə gəlməsini gözləyirlər. Şaxta babanın hədiyyə gətirəcəyinə inanan, günlərlə Yeni il ağacının altındakı qutulara baxan və o gecənin ən çox əylənənləri də elə uşaqlar olur.**

Məhz buna görə də, bu gün istənilən mağazada istənilən qiymətə uşaqlar üçün Şaxa baba hədiyyələri satılır. Həmçinin, artıq Yeni il şənliklərinin təşkili, Şaxta baba və Qar qızın evlərə getməsini təşkil edən şirkətlər də aktivləşib. Biz də həm Yeni il hədiyylərinin içindəkiləri, qiymətini, keyfiyyətini, həm də Şaxta baba və Qar qızın balacalar olan evə bir saatlıq qonaq getməsinin qiymətini, şərtlərini öyrənmək üçün bir neçə yerə baş çəkdik.





Hər il Yeni il öncəsi göz oxşayan, müxtəlif cizgi filmi qəhrəmanlarının kuklası ilə bəzədilmiş hədiyyələrin içinin heç də üstü kimi keyfiyyətli və sağlam olmadığını desək də, müsbətə doğru dəyişən heç nə yoxdur. Apardığımız müşahidələr bunu deməyə əsas verir. Bu gün istənilən marketdə qiyməti 1 manat 90 qəpikdən, 20 manatadək müxtəlif ölçüdə Yeni il hədiyyələri satılır. 14 manat 90 qəpiyə olan bu cür hədiyyələrdən birini alıb içinə baxdıqda içində yer alan vafli və peçeniyələrin heç də bu qiymətə uyğun olmadığını gördük.

Bundan əlavə, əksər qutuların üstündə və içində istehsal tarixi qeyd edilməmişdi. Hədiyyə qutusunun içində əksər valideyninin övladına yeməyi qadağan etdiyi və az satılan duzlu çubuqlar, bir ədəd şokoladlı vafli, bir ədəd kiçik peçeniye, bir ədəd isə kinder yumurtasına bənzər yumurta olduğunu gördük. Təəssüf ki, bunların heç birinin üzərində istehsal tarixi qeyd edilməmişdi. Bir sıra mağazalarda hədiyyənin içinə açıb baxmağa icazə yoxdur. Əgər açdınsa, mütləq almalısan. Biz də satıcılardan nəyə görə qutunun üzərində və ya içindəki bəzi şirniyyatların istehsal tarixi olmadığını soruşduqda onlar "biz bilmirik, əgər içinə qoyulubsa, deməli, təzədir" cavabını vedilər.

Bu cür hədiyyələri övladları üçün almağa cəsarət etməyəntlərə isə boş qutular məsləhət görülürdü. 90 qəpik 2 manat arasında satılan boş qutuları alıb içinə istədiyiniz konfetləri doldura bilərsiniz. Alıcı Leyla Şeyxova uşağının bağçaya getdiyini və onun üçün hədiyyə aldığını deyirdi: "Bağçada Yeni il şənliyi keçirəcəklər, Şaxta baba gələcək. Amma müəllimə deyib ki, hər valideyn uşağına Yeni il hədiyyəsini özü alsın. Sonra bunu Şaxta baba sanki özü gətiribmiş kimi təqdim edəcək. Amma bu cür hədiyyələri almağa ehtiyat edirəm. Ona görə boş qutu alıb içini özüm dolduracam. Bu mənə nisbətən baha başa gəlsə də, ən azından bilərəm ki, keyfiyyətlidir".

Digər alıcı Sevda Əliyeva isə qardaşı uşaqları üçün hədiyyə aldığını deyirdi: "İçinə baxıb elə alacam. Ötən il pirojnanın üstü porlu çıxmışdı. Ona görə də ən yaxşısını seçməyə çalışıram".




Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov isə ölkədə normal istehlakçı siyasəti formalaşmasa, bununla bağlı problemin həll edilməyəcəyini bildirdi: "Bu hər il baş verir. Biz yalnız istehlakaçılara başa salırıq ki, necə hərəkət etsinlər. Həmin qutulardakı konfetləri açsınlar, şübhələndiyi şeyləri uşaqlara verməsinlər. Buraxılma tarixi olmayan malları almaqdan imtina etsinlər. Bilsinlər ki, 14 gün müddətində malı dəyişmək və qaytarmaq hüquqları var və bu hüquqlarından istifadə etsinlər. Uşaqlar üçün nəzərdə tutulan yeni il hədiyyələrində hər il problem baş verir. Gözləyirik ki, Qida Təhlükəsizliyi Agentliyi gələn il fəaliyyətə düşərsə, bu vəziyyəti dəyişə biləcək. Əlbəttə, agentlik əgər şəffaf şəkildə fəaliyyət göstərərsə vəziyyət dyişəcək. Əks halda daha da pisləşməyə doğru gedəcək".

Şaxta baba və Qar qızın evlərə gətirilməsi məsələsinə gəlincə isə bunun qiymətinin fərqli olduğunu gördük. Bununla bağlı facebook, instagramda müxtəlif səhifələr artıq fəaliyyətə başlayıb. Bundan başqa telefonlara da bununla bağlı SMS-lər gəlir. Biz də bu cür elanların bir neçəsi ilə əlaqə saxladıq. Elanlardan birində Şaxta babanın evə 20 dəqiqəlik gəlməsinin qiyməti 20 manat idi. Əgər Şaxta babanın övladınıza hədiyyə verməsini istəyirsinizsə, əlavə olaraq 5 manat ödəməlisiniz. Qar qızın da Şaxta baba ilə birgə gəlməsini istəyirsinizsə, o zaman qiymət 50 manat olacaq. Telefonlara gələn mesajda isə qeyd olunur ki, Yeni il axşamı sevdiklərinizi Şaxta Baba və Qar qız təbrik edə bilər. Belə ki, ev sahibi təkcə Şaxta babanın evinə gəlməsinə istəsə bunun qiyməti 100 manat, yanında Qar qızın da gəlməsini istəsə isə 130 manatdır. Əgər şəhərdən kənar yerlədən sifariş gələrsə, qiymət 10 manat arta bilər. Şaxta Baba və Qar qızın uşaqlar üçün yarım saatlıq proqramları var".

Başqa bir elanda isə Şaxta babanın uşaqları videorolliklə təbrik edəcəyi deyilir. Belə ki, bu videotəbrikdə övladınız şaxta babanın evinə virtual səyahət edəcək. Şaxta baba ona müraciət edərək öz evi haqqında danışacaq və sehrli bir qutu göstərərək deyəcək ki "Bu qutunun içində özünü yaxşı aparan bütün uşaqların şəkilləri var".

Sonra şaxta baba sehrli qutudan övladınızın şəkilini götürüb övladınıza göstərəcək və onu özünü yaxşı apardığına görə tərifləyəcək. Sehrli qutudan çıxan şəkildə özünü görən övladınız həm təəccüblənəcək həm də çox sevinəcək. Bununla yetinməyib, Şaxta baba övladınızla birlikdə şam ağacının işıqlarını da yandıracaq. O övladınıza həmişə valideynlərinin sözünə baxmağı tapşıraraq, "sehrli qutuda yalnız özünü yaxşı aparan uşaqların şəkilləri qalır" deyəcək. 3 gün ərzində isə video çarx disk şəklində sizə çatdıralacaq ödəniş isə o zaman ediləcək. 58 saniyəlik bu videotəbrikin qiyməti isə 1 uşaq üçün 18 manat 99 qəpikdir.

Onu da qeyd edək ki, son 5 ildə Şaxta baba və Qar qız olmaq istəyənlərin sayı 90 faiz azalıb. Xezerxeber.az-ın məlumatına görə, Bakı şəhər İcra Hakimiyyətinin Ticarət və Xidmət Departamentinin mətbuat xidmətinin rəhbəri Əliabbas Bağırov müraciət edənlərin sayının artacağına ümid edir. Çünki qəbul dekabrın 25-də başa çatacaq. Deportament rəhbərinin sözlərinə görə, azalma fotoqraf kimi müraciət edənlərin olmaması ilə bağlıdır. Çünki Şaxta baba və Qar qızın əsas gəliri fotoqrafın çəkdiyi şəkillər hesab olunur. Hər il dekabr ayının 2-cı yarısından etibarən paytaxtda Şaxta baba və Qar qızı görməyə alışanlar, bayram ab-havası üçün onların vazkeçilməz simvollar olduğunu bildirirlər.

Xatırladaq ki, müraciət edənlər şəxsiyyət vəsiqəsinin surətini, sağlamlıq haqqında arayışı təqdim etməklə yanaşı 60 manat da dövlət rüsumu ödəməlidirlər.

❑ **Günel MANAFLI**

**Kişilər!!! Diqqət!!! Axırıncı şans!!!**

**Əgər sizə Azərbaycanda, xaricdə kömək edə bilməyiblərsə, onda Dr. Vaiz Səmədov sizə komək edə bilər**

* Cinsi zəiflik
* Cinsi marağın azalması
* Vaxtından tez toxum ifrazatı
* Toy gecəsinin uğursuzluqları
* Prostatitlər (vəzin böyüməsi)
* Prostat vəzinin düyünlü adenoması
* Sonsuzluq
* Sidik aktların pozulmaları
* Gərginlik, yuxusuzluq, yaddaşın pozulması və digər kişilərin şikayətləri.

**Oğlan uşaqlarında və yeniyetmələrdə**

* Enurez,
* Saçların tökülməsi,
* Sızanaqlar,
* Cinsi orqanların inkişafdan geri qalması (8-10 yaşından sonra).

**Doktor V.Səmədova saat 11:00-dan sonra, (050) 213-88-05 nömrəsi ilə əlaqə saxlamaq olar.**

Həkimin TV çıxışlarını youtube.com və facebook.com-da izləyə bilərsiniz.




# Polis axtarışda olan şəxsi tutdu, məhkəmə azad etdi

## Dələduzluqda suçlanan Masallı sakini bir neçə nəfəri aldadıb

**Nizami rayon Polis İdarəsinin əməkdaşları uzun müddət axtarışda olan Masallının Qarğalıq kənd sakini Teyyub Muradovun gizləndiyi ünvanı müəyyən edərək onu saxlayıblar. Nizami Rayon Polis İdarəsinin İstintaq Şöbəsinə təhvil verilən T.Muradov az keçməyib ki, Nizami rayon Məhkəməsində azad olunub.**

Bu isə T.Muradovun əməllərindən zərərçəkən şəxslərin qəti etirazına səbəb olub. Zərərçəkənlərdən biri olan Firdovsi Vəliyev deyib ki, Teyyub Muradovla təxminən 9 ay əvvəl tanış olub: "Şəxsi maşınımla taksi fəaliyyəti göstərirəm. Teyyub Muradov müştərilərimdən biri idi. Günlərin birində dedi ki, səni Xəzər Dəniz Gəmiçiliyinin Zığdakı Gəmiqayırma zavoduna işə düzəldə bilərəm. Dedi ki, 1500 manata məni işə düzəldə bilər. Pulun yarısını əvvəlcədən istəyirdi, qalanını da işə çıxandan sonra ödəməli olduğumu demişdi. Məndən ilkin olaraq 600 manat aldı. Bir neçə dəfə iş yerinə dəvət etdi. Xəzər Dəniz Gəmiçiliyinin Zığdakı Gəmiqayırma zavodundan çalışırdı. Dedi ki, işə bir neçə nəfəri də düzəldə bilər. Tanışlarım Fəqan, Elgün,Yusif və Semralla onu tanış etdim. Onların hər birindən 1000-1500 pul alıb işə düzəldəcəyini vəd etdi. Amma bizi işə düzəltmədi. Hər gün bir bəhanə ilə vaxt uzadırdı. Pulumuzu geri istədik, qaytarmadı. Sonradan isə bizdən qaçıb gizlənməyə başladı. Nızamı rayon Polıs İdarəsinin 24-cü polıs bölməsinə şikayət etdik. 2 gün sonra polis əməkdaşları onu tutdular. Məlum oldu ki, Teyyub Muradov bizimlə yanaşı bir şəxsə qarşı da dələduzluq edib. Yeganə adlı xanıma qarşı dələduzluq etdiyinə görə ona qarşı Nizami Ryon Polis İdarəsində Cinayət Məcəlləsının 178.1-ci maddəsi ile cinayət işi başlanlıb, axtarışa verılmiş".

Şikayətçi deyir ki, T.Muradovu Nizami rayon Polis İdarəsinin İstintaq Şöbəsinə təhvil veriblər: "Bizim şikayətimizi də həmin işə əlavə edib Teyyub Muradovun əməlini 178.2 maddəsi ilə tövsif etdilər. Oradan Teyyub Muradov Nizami rayon Məhkəməsinə aparıldı. Müstəntiq dedi ki, barəsində həbs qəti-imkan tədbiri seçiləcək. Amma nə oldusa Nızamı Rayon Prokurorluğu bunu məhkəmə zalından buraxdı".

Şikayətçinin sözlərinə görə, hazırda iş üzrə heç bir tədbir görülmür: "Biz də eşidirik ki, Teyyub Muradov azadlıqda gəzir, bizim kimi yeni qurbanlar axtarır. Baş prokuror Zakır Qaralovadan xahiş edirik ki, bu işi şəxsi nəzarətinə götürsün. Biz pulları bankdan borc alaraq Teyyub Muradova vermişik".

❑ **E.MƏMMƏDƏLİYEV**

**Elan**

**"AAAF Park"da, Xırdalan şəhərində, 2 otaqlı mənzil. Hazırda yaşayış olan binada, 2/9 mərtəbə, 92 kv.m.**

**Qiyməti 44.000 azn**

**(050) 214 05 65**

YENİ MÜSAVAT
N 265 (6878) 18 dekabr 2017

# Arvadını bıçaqlayan qısqanc ərin cəzası azaldıldı

## Anar Mustafayev: "Bizim nəsildə belə şey olmayıb"

**Arvadını mobil telefon işlətdiyi və başqa şəxslə danışdığı üçün bıçaqlayan şəxsin şikayəti qismən təmin edilib. Onun cəzası azaldılıb. Musavat.com xəbər verir ki, arvadını bıçaqlamaqda təqsirləndirilən Anar Mustafayev yenidən hakim qarşısına çıxarılıb. A.Mustafayevə qarşı Cinayət Məcəlləsinin 29.120-ci (qəsdən adam öldürməyə cəhd) maddəsi ilə cinayət işi açılıb.**

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 9 il 6 ay müddətinə azadlıqdan məhrum edilən A.Mustafayev apellyasiya şikayəti verib. Şikayətə Sumqayıt Apelyasiya Məhkəməsində hakim Nazim Mövsümovun sədrliyi ilə baxılıb.

İttihama əsasən A.Mustafayev 1986-cı il təvəllüdlü arvadı Tünzalə Mustafayevaya mobil telefondan istifadə etməsinə icazə vermədiyi halda, sonuncunun kənar şəxsdən telefon aldığından şübhələnib və kirayədə yaşadıqları evin hamamında telefonla danışdığını görüb.

Telefonu onun əlindən alıb və kiminlə danışdığını soruşub. Tünzalə Mustafayeva iş yoldaşı ilə danışıb, sabah işin olub-olmayacağını soruşduğunu deyib. Amma Anar Mustafayev buna inanmayıb və telefonu Tünzalənin əlindən alıb. Onun telefonda tanımadığı kişi ilə danışdığını bilib və onu hədələyib.

Tünzalə Mustafayeva qorxaraq 11 yaşlı qızı ilə qonşuluqdakı ev sahibinin yanına qaçıb. Həmin gecə oradanda azyaşlı qızı ilə naməlum istiqamətə gedib. Anar Mustafayev isə 14 və 10 yaşlı oğlanlarını götürərək Şamaxı rayonuna gedib.



Daha sonra arvadının fəhlə işlədiyi Abşeron rayonu, Güzdək qəsəbəsində yerləşən kərpic sexində olduğunu öyrənib və oraya gedib.

İttihama görə, A.Mustafayev qısqanclıq zəminində arvadını qəsdən öldürmək qərarına gəlib və sexə yollanıb. A.Mustafayev azyaşlı qızını otaqdan çıxardıqdan sonra arvadına bir neçə bıçaq vurub. Səsə gələn fəhlələr A.Mustafayevi otaqdan çıxarıb və yaralı xəstəxanaya çatdırılıb. Onun həyatını xilas etmək mümkün olub. Daha sonra qızını götürərək polis bölməsinə gedib və təslim olub.

A.Mustafayev apelyasiya şikayətində törətdiyi əməldən peşman olmasını, zərərçəkmiş şəxslə barışıq əldə etməsini, himayəsində üç azyaşlı uşağının olmasını və ailəsində yeganə qazanc gətirən şəxs olmasının nəzərə alınmasını və ona daha yüngül cəza təyin edilməsini xahiş edib.

A.Mustafayev özünü qismən təqsirli bilib və söyləyib ki, arvadını öldürmək niyyəti olmayıb. Əgər bu məqsədi olsa idi, arvadını bir saniyənin içərisində öldürə bilərmiş.

Anar Mustafayev deyib ki, ailədə baş verən söz-söhbətlərə arvadının telefon işlətməsi səbəb olub: "Mən fəhləlik edib ailəmi saxlamışam. Son vaxtlarda səyyar ticarətlə məşğul olurdum. Ailə dolanışığımız çətin olduğu üçün Tünzalə də işləməyə başladı. Uşaqları səhər məktəbə aparıb, mən də işə gedirdim. Tünzalə də sexdə işləyirdi. Sonra Tünzalənin telefon işlətdiyini bildim. Bizdə nəsillikcə belə şey olmayıb. Mən istəsəydim, ona telefon alardım. Bir gün səhər Tünzalə işə gedəndə gördüm ki, dayanacaqda telefonla danışır. Mən çatmaq istəyəndə işin maşınına minib getdi. Axşam evə gəldim. Gizli şəkildə hamamda telefonla danışdığını eşitdim. Gedib soruşdum ki, danışdığın kimdir? Birinci dedi ki, iş yoldaşım Günaydır. Mən kişi səsi eşitmişdim. Sonra da dedi ki, "Günayın əridir, telefonu o, açıb". Telefonu əlindən alıb, zənglərə baxdım, mesajları gördüm. Bunlar istintaq materiallarında da var. Sonra qızımı evdən götürüb qaçdı".

A.Mustafayev ifadəsinin davamında bildirib ki, bir müddət arvadından və qızından xəbər tuta bilməyib: "Tünzalənin atasına zəng edib olanları dedim. Onu axtarmağa başladım. Mən ailəmi dağıtmaq istəyən adam olmamışam. Üç uşaq atasıyam. Əgər ailəmi dağıtmaq istəsəydim, ya ailə qurmazdım, ya da bunu çoxdan edərdim. Hər kəsdən, bütün qohumlardan Tünzaləni soraqlaşdım. Amma tapa bilmədim. Bir müddət işinə getdim, tanışlardan soruşmağla axtarmağa davam elədim. Bir gün xəbər tutdum ki, Tünzalə işlədiyi sexə qayıdıb. Onu görmək üçün sexə getdim. Evdən çıxanda da cibimə bıçaq qoydum".

Heç bir kişinin bu xəyanəti bağışlamadığını deyən A.Mustafayev arvadını öldürmək məqsədi ilə sexə getmədiyini deyib və cibinə bıçaq qoymasının səbəbini belə izah edib: "Cibimə bıçaq qoydum ki, birdən orda üstümə təcavüz edərlər. Tünzaləni nə öldürmək, nə də vurmaq fikrim var idi. Həm də qızım da orada idi. Onun yanında bunu etməzdim".

A.Mustafayev hadisələrin bu şəkildə baş verməsində arvadının günahı olduğunu deyib: "Mən Tünzalənin yanına çatanda elədiklərinin izahını soruşdum. Mənə dedi ki, "Taleh məni alıb, saxlayacaq. Özünə arvad edəcək". Bu sözlərdən sonra beynim çöndü, özümü idarə edə bilmədim. Cibimdən bıçağı çıxarıb onu vurdum. Öldürmək fikrim yox idi. Sadəcə, qorxutdum. Əgər onu öldürmək istəsəydim, elə hamamda ilk dəfə tutanda bir saniyənin içində boğub öldürərdim. Bıçaqla vuranda da məni heç kim sakitləşdirmədi. Özüm ondan əl çəkdim. Belə niyyətim olsa idi, sona qədər işimi tamamlayardım".

Məhkəmə tərəfləri dinlədikdən sonra A.Mustafayevin cəzasını 9 il 6 aydan 7 il 10 aya endirib.

❑ **İ.MURADOV**

# Facebook həbsləri - virtual məkan da hüquqi məsuliyyət yaradır

## Misirdə, Türkiyədə gənc fəalları məhz statuslarına görə cəzalandırırlar




**Son illər Azərbaycanda sosial şəbəkələr üzərində də hüquqi nəzarət artırılıb. Əvvəllər bir çoxları elə düşünürdü ki, facebookda ağır təhqir də yazsan, heç bir məsuliyyət yaratmır. Amma beynəlxalq hüquqa və yerli qanunvericiliyə görə virtual məkanda da davranışlar hüquqi məsuliyyət yaradır.**



Azərbaycanda artıq bəzi həbslər "facebook həbsləri" adını alıb. Düzdür, bu iddialar da var ki, sosial şəbəkədə aktivlik edən, status yazan, ictimaiyyəti aktivliyə səsləyənlərin əksəriyyəti müxtəlif bəhanələr və şərləmələrlə həbs edilib. O haqda da danışılır ki, hazırda sosial şəbəkələrin ciddi nəzarət altında olması da şübhəsizdir. Daxili yazışmalardan tutmuş, statuslara, hətta hansı fikri "layk" (bəyənmə) etməyə qədər bir məqam da nəzarətsiz buraxılmır.

Ekspertlər hesab edirlər ki, bu, daha çox "Misir baharı"ndan sonra yaranmış tendensiyadır. Belə ki, iqtidar insanların sosial şəbəkə vasitəsilə məlumatlanması, istiqamətlənməsi, bir sözlə, aktivləşməsindən narahatdır. Və bunun qarşısını xofla, qorxutma yolu ilə almağa çalışır.

Dünyanın bir çox ölkələrində facebook həbsləri olub. Tutaq ki, Amerika, Britaniya kimi ölkələrdə bu, sırf hansısa sosial şəbəkə istifadəçisinin başqasının hüquqlarını tapdaması və ya təhqir etməsinə qarşı açılan cinayət təqibinin nəticəsində baş verir. Məsələn, 19 yaşlı Texas sakini facebook səhifəsində yazdığı istehzalı statusuna görə ömrünün bir neçə ayını həbsxanada keçirib. O, digər istifadəçilərlə söyüşərkən, zarafatyana hansısa məktəbin şagirdlərini güllələməyi düşündüyünü yazmışdı.

Hakimiyyətdə isə bu zarafatın məsuliyyət yaratması qənaətinə gələrək, onun terrora səslədiyini iddia edərək Texas sakinini həbs etdilər.

Amma qonşu Türkiyədə 2013-cü ildə facebook həbsləri geniş vüsət almışdı. Məsələn, təkcə İzmir polisi şəhərdə Taksim Gəzinti Parkında baş verən etiraz aksiyalarına dəstək məqsədilə nümayişlər keçirilərkən sosial mediada hökumət əleyhinə çağırışlar edən 38 nəfəri müəyyənləşdirərək, onların 25-ni inzibati həbs etmişdi. Onlar bir neçə sutka saxlanılandan sonra azadlığa buraxılmışdı.

Beynəlxalq hüquq müdafiə təşkilatı "Human Rights Watch" Səudiyyə Ərəbistanında 7 nəfərin "facebook-da etirazları qızışdırmaq və ictimai nizamı pozma" iddiasıyla həbs edildiyini açıqlayıb. 2013-cü ilin 29 iyun tarixli hesabatda Ağır Cinayətlər Məhkəməsində 7 nəfərə 5-10 il arasında həbs cəzası verildiyi və həbs müddətini başa vurduqdan sonra da ölkə xaricinə çıxışlarının qadağan edildiyi bildirilib.

İranda da 2013-cü ildə facebook həbsləri baş vermişdi. Nazirliyin İnternetdə Təhlükəsizliyin Təminatı idarəsinin rəisi Kamal Hədianın dediyinə görə, polislər "internetdə korrupsiya və rüşvətxorluq yayan qrupu uzun müddətdən bəri müşahidə edəndən sonra həbsə əl atılıb".

Tutulanlar 2 kişi və 2 qadındır. Onların facebook-da yaratdıqları səhifənin artıq 25 min daimi oxucusu vardı. Virtual gözəllik müsabiqəsinə qatılanlar burada öz fotolarını dərc edirdilər.

İranın hakimiyyət dairələri ölkədə facebook-a girişi yasaqlasalar da, iranlılar müxtəlif proqramlar vasitəsilə sosial şəbəkəyə qoşulurlar.

Göründüyü kimi, dünyada da sosial şəbəkəyə görə xeyli həbslər baş verir.

❑ **Sevinc TELMANQIZI**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 265 (6878) 18 dekabr 2017*


# Dəhşətli xəstəlik - yaşadığı hər şeyi xatırlayır

İngilis Aurelien Hayman, "hyperthymesia" adlandırılan bir sindromdan əziyyət çəkir. Sözügedən sindrom bu günə qədər edilən hər şeyi xatırlamaq anlamına gəlir. 22 yaşlı bu ingilisin yaxalandığı sindrom dünyada 20 nəfərdə görülüb. Hayman bu sindrom ucbatından son on ildir heç nəyi unutmur, ən incə detalına qədər xatırlayır.



Maraqlıdır ki, gənc hər hansı bir tarixdə təkcə nə etdiyini yox, həm də nə yediyini, nə geyindiyini, kiminlə nə söhbət etdiyini, hətta həmin gün televizorda hansı xəbərlərin nümayiş olunduğunu və hava proqnozunu da xatırlayır. 14 yaşına çatanda keçmişdəki hər şeyi rahatlıqla xatırlaya bildiyini fərq edən Hayman bunları deyib: "Keçmişlə bağlı hər şeyi xatırlamaq dopdolu bir şkafdan istədiyini bir anda tapmaq kimi bir şeydir. Özümdən asılı olmadan xatirələrim kodlanır".

Haymanı bir çox testlərdən keçirən Hull Universiteti alimləri deyib ki, ona bəzi tarixlərdə nələr baş verdiyi ilə bağlı suallar verilər. Alimlərin sözlərinə görə, aldıqları cavablarla gerçək məlumatları tutuşdurublar və Haymanın hər şeyi ən incə detalına qədər düz dediyi üzə çıxıb.



## Əgər özünüzü gənc hiss edirsinizsə, çox yaşayacaqsız

**İsveçrəli elm adamları insanın həyat müddətinə təsir göstərən bir sıra cəhətləri öz tədqiqatlarında işıqlandırıblar. "PLos One" jurnalında dərc olunan araşdırmaya görə, insanın özünü necə hiss etməsi onun həyat müddətinə bilavasitə təsir göstərir. Siqaret istifadəsi, aşağı təhsil və ya xəstələnmələr isə insan ömrünün qısa olmasına şərait yaradır.**

Tədqiqat müddətində Zürich Universitetinin elm adamları, Dr. Matthias-ın rəhbərliyi ilə müxtəlif sorğular keçiriblər. Uzun müddət tədqiqatlarda iştirak edənlərdən özlərini hər gün necə hiss etmələri soruşulub. Onlara "çox yaxşı", "yaxşı", "qaneedici", "pis" və "çox pis" variantlarından birini seçmələri istənilib. Nəticədə aydın olub ki, özlərini "çox pis" hiss edənlər xoşbəxt və uzunömürlü olmur, "çox yaxşı" hiss edənlər isə 3,3 qat uzun və firavan həyat yaşayırlar. Qadınlarda özlərini "çox pis" hiss etmək ölüm riskini, "çox yaxşı" hiss etmək çox yaşamaq şansını 1,9 qat çoxaldır.

Məlumatda o da bildirilir ki, tədqiqat iştirakçılarını özlərini nə qədər yaxşı hiss etdikləri təcrübələrdə onların həyatda qalma şansı ilə mütənasib tutulub. Həmçinin özünü yaxşı hiss edənlərdə müsbət dünya görüşünün və sağlamlığın yaxşı olduğu bildirilir.

# Dünyanın ən bahalı Yeni il dəsti satışdadır



**Böyük Britaniyada Yeni ilə aid dünyanın ən bahalı delikateslərindən ibarət səbət çıxarılıb. Səbətin məbləği 134,5 min dollar olub. Bu barədə "The Daily Miror" qəzeti xəbər verib.**

Bu dəstin istehsalçısı VeryFirstTo kampaniyası olub. Sözügedən firma lüks hədiyyələr üzrə ixtisaslaşıb. Qəzetin jurnalistləri kampaniyanın bu təklifini dünyanın ən bahalı dəsti adlandırıblar. Komplektin tərkibinə 250 qram nadir kürü, 100 qram ağ trüfel, qurudulmuş balıq, konfetlər, tortlar və digər ərzaqlar daxildir. Bundan başqa, dəstin tərkibinə 5 butulka alkoqol da daxildir. Onların arasında 200 yaşı olan Jules Robin konyakı var. Bu konyakın qiyməti isə 47 min dollardır. Bununla yanaşı, müştərilər şahzadə Çarlzla Diananın 1981-ci ildəki toyunda qonaqlara verilən şampanı da bu dəstin içindən əldə edə biləcək. Kampaniyanın saytında qeyd edilir ki, onlar hər sifarişdən gələn gəlirin 1000 funtun xeyriyyə təşkilatının hesabına köçürəcəklər. Təşkilatın adı "The Prince's Trust"dir və onlar aşağı gəlirli insanların ali təhsil xərclərini maliyyələşdirməyə kömək edir.




**QOÇ** - Dekabr ayının bu təqvimi daha çox yeni əlaqələrlə yadda qalacaq. Qəribə də olsa, ulduzlar məsləhət görür ki, bu gün birinci başlamayasınız. Bir sözlə, risk etməyə dəyməz.

**BUĞA** - Sizin üçün həftənin ən gərgin iş günüdür. Bu səbəbdən də səbrli və məsuliyyətli olmağınız vacibdir. Yorulsanız, axşama yaxın qonaq gedin. Dostlarınızla ünsiyyətdə diqqətli olun.

**ƏKİZLƏR** - Bütün vaxtınızı ailə-sevgi münasibətlərinin yaxşılaşmasına yönəldin. Qarşı tərəfə güzəştə getməyi bacarsanız, sizə qarşı rəğbət daha da artacaq. Uzaq yola çıxmayın.

**XƏRÇƏNG** - Qarşılıqlı münasibətlərdə ümumi vəziyyət qənaətbəxş olsa da, işlə bağlı müəyyən xoşagəlməzliklər də istisna olunmur. Qərar çıxararkən mövcud reallığı mütləq nəzərə alın.

**ŞİR** - Hansısa uğura yiyələnmək fikrinə düşməyin. Yaxşı olar ki, başınızı aşağı salıb gündəlik qayğılarınızla məşğul olasınız. İqlimin dəyişkənliyi səhhətinizə zərər yetirə bilər.

**QIZ** - Sədaqətinə şübhə ilə yanaşdığınız adamlarla ciddi işbirliyi yaratmağa çalışmayın. Əks təqdirdə əliniz boşda qalacaq. Əməkdaşlıq zəminində ehtiyatlılıq tədbirlərindən yararlanın.

**TƏRƏZİ** - "Üçüncü artıqdır" prinsipini qulağınızda sırğa edin. Çünki istənilən məsələdə yalnız ikitərəfli mövqe nümayiş etdirməklə uğur qazana bilərsiniz. Daxili orqanlarınıza fikir verin.

**ƏQRƏB** - Təxminən saat 15-ə qədər gərgin məqamlar yaşaya bilərsiniz. Göstərilən ərəfədə kiminsə işinə müdaxilə etməyin. Sonrakı saatlarda sevindirici xəbərlərin şahidi olacaqsınız.

**OXATAN** - Baxmayaraq ki, Ay bürcünüzdə qərar tutub, ciddi perspektivlər haqqında düşünməyə dəyər. Yaxın gələcəyiniz hazırkı seçiminizdən birbaşa asılıdır. Bəxtinizdə pul da var.

**OĞLAQ** - Qarşınızda duran bu maraqlı təqvimdə bütün gücünüzü münasibətlərin tənzimlənməsinə yönəldin. Böyüklük göstərin, təmkinli olun. Bunu bacardığınız təqdirdə günün ümumi mənzərəsindən razı qalacaqsınız.

**SUTÖKƏN** - Dekabr ayının ən uğurlu günlərindən birini yaşayacaqsınız. Odur ki, özünüzdə təmkin tapıb emosiyalara uymayın. Saat 13-dən sonra fəaliyyətinizdə irəliləyişlər olmalıdır.

**BALIQLAR** - Yeni əlaqə və sövdələşmələr üçün normal gündür. Əlavə işlərə, xüsusən də əyləncələrə meyl etməyin. Ən azı ona görə ki, iştirakçısı olduğunuz hər bir müzakirədə vəziyyət xeyrinizə olacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Başqasının göz yaşını silmək olmaz



**İnsan orqanizminin ən həssas və əhəmiyyətli orqanlarından biri gözdür. Alimlər deyir ki, heç vaxt başqa birinin göz yaşını silməyin. Əgər həmin insanın gözündə qızartı, qapaq şişkinliyi və sulanma varsa, bu, yoluxucu ola bilər. Əgər təmas etmisinizsə, sabunla əlinizi yaxşı yuyun.**

Əsasən rəngli gözlü insanlar Günəş işığına qarşı daha həssas olurlar. Buna görə onlarda qızartı daha çox olur və onların Günəş eynəyindən istifadə etməsi daha vacibdir. Günəş işıqlarına çox məruz qalmaq göz linzasında qalınlaşma, katarakt və görmə nöqtəsində həssaslıq yaradır. Günəşə qarşı həmişə günəş eynəkləri istifadə edin.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100